MƏHƏRRƏM MƏMMƏDOV

# III RESPUBLİKA: MİLLİ İNKİŞAF MODELİ VƏ STRATEGİYASI

Bu kitab kitabxanaya müəllif
tərəfindən hədiyyə olunub.
Oktyabr 2003

187

KİTABXANASI

BAKI – 2003

«Elm» nəşriyyatı

UOT 328 (479.24)
KBT 66.61(2)
M54

Elmi redaktorlar: *t.e.d., prof. Seyfəddin Qəndilov*
*fil.elm.n. Novruz Məmmədov*

Buraxılışa məsul: *Qafar Əliyev,*
*informasiya sektorunun müdiri*

Elmi məsləhətçilər: *s.e.n. Aydın Mirzəzadə*
*t.e.n. Lətifə Məmmədova*

Kitaba rəy verənlər: ***Vüqar Seyidov***
***Musa Quliyev (Urud)***

M54 Məmmədov M.F. III Respublika: milli inkişaf modeli və strategiyası. – Bakı: «Elm» nəşriyyatı, 2003, - 162s. (fotoşəkillərlə).

**ISBN 5-8066-1579-0**

$M\frac{0601000000}{655(07)-03}$ *Qrifli nəşr*

*© Məmmədov*
*© «Elm» nəşriyyatı, 2003*



**"İndi Azərbaycan müstəqil dövlət kimi yaşayır və inkişaf edir"**

***Heydər Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

**"Азербайджан уже сформировался как независимое государство. Это наше достижение"**

***Гейдар Алиев,***
***Президент Азербайджанской Республики***



**"Azərbaycan gərək siyasi və iqtisadi cəhətdən güclü, demokratik ölkə olsun"**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Baş naziri***

**"Mən öz fəaliyyətimdə ümumi işə dəstək verməyə çalışacağam... indiyədək əldə olunanların hamısı nəinki qorunub saxlanacaq, həm də ... bu vaxtadək əldə etdiyimiz nailiyyətlər daha da artırılacaq"**

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Kitab haqqında

Oxucuya təqdim olunan kitab müasir Azərbaycan dövlətçiliyinə həsr edilmiş, polemika xarakterli və buna görə də ənənələrdən müəyyən mənada kənara çıxan informasiyanı əks etdirir.

«İnsanların bütün əzab-əziyyətləri onların bilməməsindən daha çox, yanılmaları üzündən baş verir. Bizim bir şeyi bilməməyimiz guya həmin şeyi bilməyimiz barədə təsəvvürlərdən qat-qat artıq ziyan vurur». Jan-Jak Russonun bu sözləri Azərbaycanın yaxın keçmişinə və müasir tarixinə tamamilə tətbiq edilə bilər. Xalqın siyasi təcrübəsi artdıqca Heydər Əliyevin bu xalqın keçmişində və bu günündə əvəzsiz rolu və yeri get-gedə daha aşkar görünür. Lakin etiraf etməliyik ki, bu barədə çox yazmaq və çox bilmək – heç də eyni şeylər deyil və çox yazmaq çox bilməyə zəmanət vermir, onun mənbəyinə çevrilmir. Bizim fikrimizcə, Heydər Əliyevin siyasi məharətini, hər bir konkret şəraitdə nə etmək mümkün olmasını hiss etmək və bu imkanı gerçəkləşdirmək bacarığını təhlil edən sanballı əsərlər hələ azdır.

Hər bir böyük hərəkat böyük ümidlər doğurur, lakin böyük ümidlər də, öz növbəsində, hökmən gələcəyin müəyyən mənada ideallaşdırılması ilə bağlıdır. XX yüzilliyin 90-cı illərinin əvvəllərində də belə oldu. O vaxt qarşıdakı yolun bu qədər enişli-yoxuşlu olacağını başa düşənlər az idi.

Tarixi şəxsiyyətlər daha artıq hörmətə layiqdirlər – onların realist portretləri yaradılmalı və bu portretlər, hətta ən tələbkar, ən tənqidi zəka sahiblərinin tələblərini də qane etməlidir. Bir sözlə, bizlərdən hər birimizin və hamımızın həqiqəti bütün çalarları ilə dərk etməyimiz nə qədər çətin proses olsa da, bu, həyati zərurətdir. Müəllif haqlı olaraq gös-

tərir ki, Prezident Heydər Əliyevin mənəvi irsi müasir Azərbaycan cəmiyyəti üçün çox böyük əhəmiyyət kəsb edir. Prezident çıxışlarının və nitqlərinin mətni, bu mətnlərə xas olan novatorluq münasibəti diqqətlə tədqiq və şərh edilməlidir.

Ölkə Prezidentinin fenomenal şəxsiyyəti, onun Azərbaycanı beynəlxalq birliyə qovuşdurmaq naminə, Azərbaycan dövlətçiliyini möhkəmləndirmək naminə, dövlətlərarası münasibətlərin bütün spektrində keyfiyyətcə yeni ab-hava yaradılması naminə yeritdiyi çevik və praqmatik siyasət, artıq xeyli vaxtdır ki, bütün dünyada siyasətçilərin, ictimaiyyətşünasların, filosofların, tarixçi və sosioloqların diqqətini cəlb edir.

Heydər Əliyev maarifsiz qüvvə və qüvvəsiz maarif arasında ciddi fərq olmasını həmişə vurğulamışdır. Prezidentin nitqləri iradə gücünə güvənən və əzmkarlıq tələb edən siyasi maarifçilik nümunələridir. O, öz nitqlərini həmişə bu məqsədə müvafiq şəkildə qurur: onun nitqləri dəqiqlik və əsaslandırılmış ülvi fikirlərlə, nəcib çağırışlarla zəngindir. Dövlətçilik şüurunu ifadə edən, demokratik etatizmin, Azərbaycan dövlətinin həqiqətən uğurlu yeganə modelinin – Azərbaycan millətinin salamat qalmasına və onun tərəqqisinə zəmanət verən modelin yaradıcısının bütün çıxışları məhz bu keyfiyyətləri ilə seçilir. O, öz fəaliyyətində dövlətin iradəsinin təntənəsinə nail olur: respublika vətəndaşları onun bəyan etdiyi müstəqillik, dünyəvi dövlət, respublikaçılıq, demokratiya və insan hüquqları, milli mənəviyyat kimi dəyərlərin məhsuldar olmasını yəqin edirlər.

Müəllif Heydər Əliyevin nitqlərini və çıxışlarını təhlil edərək əsas mövzunu – postsosialist məkanında yaradılmış yeni müstəqil dövlətlər arasında layiqli yer tutmuş Azərbaycanda müstəqil milli dövlət strukturunun qurulması və yaradılması mexanizmini fərqləndirə bilmişdir.



Azərbaycanın milli liderlərinin mənəvi-psixoloji bənzərsizliyi məsələsindən söhbət gedəndə hər dəfə N.Nərimanovun bir kəlamı yada düşür: «Nəciblik, mərdlik, əzmkarlıq – türkdilli xalqların xarakterinin tarixən yaranmış cizgiləridir». Heydər Əliyev bu milli liderlər arasında xüsusi yer tutur. Onun xarakteri samballı şəxsiyyətlərə xas olan keyfiyyətlərlə – maneələri dəf etmək, məğlubiyyətləri isə əlavə qüvvəyə çevirmək və daha məqsədyönlü şəkildə fəaliyyət göstərmək qabiliyyəti ilə seçilir.

Heydər Əliyevə xas olan bu məziyyətləri İlham Əliyevdə də müşahidə edirik. Onun şəxsiyyətində siyasi ziyalılıqla yanaşı (fikrimizcə, bu ifadə müəllifin çox uğurlu tapıntısıdır), sahibkarlıq fəaliyyəti təcrübəsi, dövlət təfəkkürünün bir hissəsi olan peşəkar diplomatik təfəkkür vərdişləri də özünü göstərir.

Müəllif modernləşmə fenomenini təsvir edərkən göstərir ki, modernləşmə Azərbaycan üçün yeni hadisə deyil. Heydər Əliyevin nailiyyətlərindən biri də ondan ibarətdir ki, o, dünya islahatlar məktəbinin ən yaxşı ənənələrinə güvənməklə və bu halda Azərbaycanın öz milli identikliyini qoruyub saxlamaqla, milli modernləşdirmənin ana xəttini işləyib hazırlamışdır.

Kitabda icra hakimiyyətinin qərarlarına xüsusi diqqət yetirilir. Aşkardır ki, Azərbaycanda mövcud olan ənənələrə görə, dövlət idarəetmə aparatı siyasi sistemin ən mühüm elementlərindən biridir, çünki cəmiyyətin «sosial ovqatı» bu aparatın işindən asılıdır. Azərbaycan üçün eyni dərəcədə ənənəvi olan bir mühüm məqam da ondan ibarətdir ki, dövlət aparatının ictimai həyata təsiri bu aparatın sosial strukturda xüsusi çəkisindən xeyli artıqdır. Müəllif haqlı olaraq qeyd edir ki, azərbaycanlıların öz ümidlərini dövlətin

fəaliyyəti ilə, yəni dövlət idarəetməsi ilə əlaqələndirməsi - bu xalqın səciyyəvi cəhətidir.

On illik bir dövrü (1993-2003) əhatə etmiş islahatların gedişində Azərbaycan Respublikasının dövlət administrasiyası Prezident Heydər Əliyevin ölkədəki böhranlı menecment şəraitində qarşıya qoyduğu vəzifələrin səmərəli şəkildə həyata keçirilməsi üçün nəzərdə tutulan rasional sistemə, yaxud irimiqyaslı mütəşəkkil struktura çevrilmişdir. Ötən onillikdə Azərbaycan cəmiyyəti dövlət mənafelərini, yəni xalq üçün, xalqın naminə və xalqın dəstəyinə güvənməklə ölkədə hökm sürən asayişin həyati mənafelərini reallaşdıran siyasi idarəetmə məmurlarının ilk baxışda o qədər də diqqəti cəlb etməyən, lakin məhsuldar fəaliyyətinin şahidi olmuşdur. Prezidentin İcra Aparatının fəaliyyəti bunu əyani şəkildə sübut edir. Bu aparata rəhbərlik edən Ramiz Mehdiyev - zəngin praktik təfəkkürə, nəzəri uzaqgörənlik istedadına və idarəetmə münasibətlərinin tənzimlənməsi sahəsində çox böyük təcrübəyə malik olan dövlət xadimidir. İdarəetmə xarakterli qərarların üslubun müəyyən edən isə, əlbəttə, Heydər Əliyevdir. Öz siyasi aktivində həm tarixi, həm də elektoral əhəmiyyətli siyasi kapitala - millətin etimadı kimi əvəzsiz bir kapitala malik olan Prezident idarəetmə münasibətlərinin əsaslarını müəyyənləşdirir. Məhz Prezidentin sayəsində XX əsrin son qərinəsində Azərbaycanda peşəkar dövlət qulluqçuları - uzun illər böyu hazırlıq keçmiş yüksək səviyyəli mütəxəssislər yetişmişdir. Azərbaycan dövlətçiliyinin dövlət stabilliyinin və sabitliyinin müasir milli (tradisionalist) məktəbini də məhz Heydər Əliyev yaratmışdır. Dövlət idarəçiliyinin bütün sahələrində nəsillərin bir-birini əvəz etməsi tamamilə təbiidir, çünki bunsuz heç bir ölkənin sabit və layiqli inkişafı uzun müddət davam edə bilməz.



Dövlət qulluğu məsələsinə Prezidentin bu cür diqqət yetirməsi təkcə korrupsiya və M.Veberin təbrincə desək, «rəzil meşşanlıq» («niedrige Kleinbuergertum») kimi mərəzlərə mübtəla olmaq təhlükəsi ilə həmişə üzləşən dövlət aparatının texniki baxımdan səmərəliliyinin qeydinə qalmaqdan irəli gəlmir. III Respublikanın dövlət xidmətinin təbiətində maddiləşmiş ictimai qüvvə hakimiyyətin normativ qərarlar qəbul etməsi mexanizmini hərəkətə gətirir: bu, millətin iradəsidir və dövlətçilər bu həqiqəti yaxşı dərk edirlər (bax: Л.Мамедова. Государственная концепция Гейдара Алиева: новые подходы к проблемам государственного управления в Азербайджане // XX-XXI: iki əsrin nadir dövlət xadimi və lideri. Bakı. 2003). Məsuliyyətin xüsusi bir növünü - tarixi məsuliyyəti doğuran da, elektoratın iradəsi deyil, məhz xalqın iradəsidir.

Bu kitab barədə geniş polemik şərhlər verməyə imkan olmadığı üçün təkcə bunu qeyd etməklə kifayətlənəcəyik ki, Prezidentin dövlət səviyyəli qərarları həm tənzimlənən fəaliyyətin mənbəyinə, həm onun məzmununa, həm də hüquqi formalara, fəaliyyətin həcminə, məkanına və zamanına, eləcə də bir sıra başqa əsaslara görə üzvi xarakter daşıyır, çünki bu qərarlar xalqın mentallığına və ənənələrinə müvafiq olub, mütərəqqi qərarlar sayılmalıdır, çünki onlar müasir qlobal asayişin reallıqlarını və millətin yeni tələblərini nəzərə alırlar. Dövlətçilər nəsli III Respublikanın indiki vəziyyətində onun fəaliyyətinin təşkili üçün son dərəcə əhəmiyyətli olan insan amilidir. Buna görə də tamamilə məntiqə uyğun haldır ki, bu kitabın müəllifi müxalifətin yalnız sistemdənkənar fəaliyyət adlandırıla biləcək fəaliyyətini ifşa edir.

Hakimiyyətin varisliyi məsələsinin əhatə dairəsi məktəb şagirdləri səviyyəsində liberal təxəyyülə malik olan müxali-

fətin təsəvvür etdiyindən qat-qat genişdir. Bu məsələ ilə əlaqədar, müəllif müxalifətin ideya və şüarlarının ideoloji xarakteristikası üzərində dayanmadan onun siyasi davranışına xas olan radikalizmi xüsusi qeyd edir. Fikrimizcə, bu, kifayət deyil. Bu kontekstdə III Respublikanın dominant ideologiyası barədə R.Mehdiyevin mülahizələri xüsusi diqqətə layiqdir: «Neokonservatizmin milli forması olan «azərbaycançılıq» ideyası milli ideologiyanın əsasıdır və Azərbaycan dövlətçiliyinin bütün tarixi boyunca belə olacaqdır» (XX əsrin sonunda – XXI əsrin əvvəlində dünya və milli ideya. // Ramiz Mehdiyev. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003. s 209). «Azərbaycançılıq» tradisionalizmi nəzərdə tutur və kitabın müəllifi də haqlı olaraq bu məqamı vurğulayaraq bizim cəmiyyəti belə xarakterizə edir: bu elə bir cəmiyyətdir ki, onun mədəniyyəti tədricən, təkamül yolu ilə formalaşır.

***Aydın Mirzəzadə,***
***s.e.n, Milli Məclisin deputatı,***
***Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü***

***Lətifə Məmmədova,***
***t.e.n., Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasınn dosenti***



## О КНИГЕ

Мы представляем читателю книгу, посвященную азербайджанской государственности, книгу полемичную и потому обладающую информацией, выходящей за пределы традиционных текстов.

"Все страдания людей происходят больше из-за заблуждений, чем из-за незнания. Наше незнание вредит гораздо меньше, чем мнимое знание". Эти слова Жан Жака Руссо вполне применимы к нашей ближней и настоящей истории. Каждое большое движение порождает большие надежды, но большая надежда непременно сопряжена с известной идеализацией будущего. Так было и в начале 90-х годов XX столетия. Мало, кто понимал, сколь тернистым будет путь...

В ситуации умножения политического опыта народа все очевиднее неоценимая роль и место Гейдара Алиева в прошлом и настоящем. Но многописание, надо признаться в том, не стало гарантией и источником многознания. Думается, что еще мало обстоятельных работ, анализирующих политическое искусство Гейдара Алиева как умения ощутитъ и реализовать в каждой ситуации новую меру возможного.

Исторические личности заслуживают большего уважения - реалистического портретирования, удовлетворяющего самые взыскательные и критические умы. Словом, постижение истины во все ее многоцветье - всеми вместе и каждым из нас процесс нелегкий, но он жизненно необходим. Автор справедливо указывает на большую значимость для современного азербайджанского общества духовного наследия Президента Гейдара Алиева. Трактовки его текстов заслуживают внимания, они содержат новаторские подходы, подлежащие дальнейшей разработке.

Феноменальная личность Президента страны, его гибкая, прагматичная политика в деле упрочения азербайджанской государственности с целью конвергенции Азербайджана в международное сообщество, формирование им качественно иного климата всего спектра межгосударственых отношений, уже давно привлекает пристальное внимание политиков, обществоведов, философов, историков, социологов во всем мире.

Гейдар Алиев всегда четко различал силу без просвещения и просвещение без силы. В своих речах Президент дает образцы политического просветительства, опирающегося на силу воли и требующего силы воли. Соответственно этой задаче он строит свои речи - всегда выразительные: полные возвышенных мыслей, благородных призывов, четкости, обоснованности и критики так говорит выразитель государственнического типа сознания, творец демократического этатизма, этой единственной модели азербайджанского государства, гарантирующей выживание нации и ее прогресс. В своей деятельности он добивается торжества просвещающей государственной воли: граждане Республики убеждаются в продуктивности провозглашенных ценностей независимости, светского государства, республиканизма, демократии и прав человека, национальной духовности.

Исследование речей, выступлений Гейдара Алиева позволило автору выделить главную тему - механизм построения и создания независимой национальной государственной структуры, занявшей достойное место и получившей общепризнанное место среди современных вновь образованных стран на постсоциалистическом пространстве.

"Благородство, мужество, стойкость являются исторически сложившимися чертами характера тюркоязычных народов" - это изречение Н. Нариманова, вспоминается всякий раз, когда возникает тема нравственно-психологического своеобразия азербайджанских национальных лидеров, среди которых неповторимое место занимает Гейдар Алиев. Характер Гейдара Алиева нес в себе начало свойственное масштабным личностям - способность к внутреннему пути, энергию преодоления препятствий и превращение поражений в дополнительную силу и целеустремленность.



Эти родовые черты мы угадываем в Ильхаме Алиеве, в котором помимо политической интеллигентности (удачное выражение автора), также опыт предпринимательской деятельности, профессиональные навыки дипломатического мышления как одной из сторон государственного мышления.

Описывая феномен модернизации автор отмечает, что модернизация - явление для Азербайджана не новое. Достижение Гейдара Алиева - выработка генеральной линии национальной модернизации с опорой на лучшие традиции мировой реформаторской школы, при этом сохраняя собственную идентичность.

В книге много внимания уделяется решениям исполнительной власти. Очевидно, что аппарат государственного управления традиционно является одним из важнейших звеньев политической системы в Азербайджане, потому что от его работы зависит "социальное самочувствие" общества. И столь же для Азербайджана традиционно, что влияние государственного аппарата на общественную жизнь значительно больше, чем его удельный вес в социальной структуре. Автором верно подмечено, что азербайджанцам в целом присуще связывать перспективы реализации своих ожиданий с деятельностью государства, т. е. с государственным управлением.

За десятилетие реформ (1993-2003) государственная администрация Азербайджанской Республики воплотилась в рациональную систему или крупномасштабную организованную структуру, предназначенную для эффективного претворения в жизнь предначертаний Президента Гейдара Алиева в русле кризисного менеджмента. Общество за истекшее десятилетие стало свидетелем плодотворной, хотя на первый взгляд малозаметной работы, политических управленческих чиновников реализующих государственные интересы, то есть жизненные интересы господствующего порядка для народа, во имя народа и при поддержке народа. Ярким свидетельством этому является деятельность Исполнительного аппарата Президента, который возглавляет государственный деятель, обладающий практическим мышлением, даром теоретических прорицаний и колоссальным опытом налаживания управленческих отношений - Рамиз Мехтиев. Конечно стиль управленческих решений задается Гейдаром Алиевым. Именно Президент определяет мировоззренческие основания управленческих отношений, имея в своем активе политический капитал доверия нации – величины как исторической, так и электоральной. Именно Президент за последние треть XX столетия выпестовал азербайджанских профессиональных государственных служащих как высококвалифицированных специалистов духовного труда, обладающих многолетней подготовкой. Именно Гейдаром Алиевым создана современная национальная (традиционалистская) школа азербайджанской государственности, государственной стабильности и устойчивости. Осуществляется смена поколений во всех сферах государственного управления, без чего



не может достойно, стабильно и долговременно развиваться ни одна страна.

Это внимание к государственной службе, проявляемое Президентом обусловлено не только заботой о технической эффективности государственного аппарата, которому всегда угрожают такие недуги как коррупция и, выражаясь языком М. Вебера, "низкое мещанство" («niedrige Kleinbuergertum»). В государственной службе III Республики, в ее стилевой природе материализована общественная сила, которая приводит в действие весь механизм принятия властно-нормативных решений - это осознаваемая государственниками воля нации (См.: Л.Мамедова. Государственная концепция Гейдара Алиева: новые подходы к проблемам государственного управления в Азербайджане // XX-XXI: iki əsrin nadir dövlət xadimi və lideri. Bakı. 2003). Именно воля нации, а не электората, что порождает особый род ответственности – историческую ответственность. Не имея возможности развернуть широкие и полемичные комментарии к книге отметим, что государственные решения Президента и по источнику, и по содержанию, и по характеру регулируемой деятельности, и по правовым формам, и по своему объему, и по пространству и времени действия, и по многим другим основаниям исключительно органичны, ибо отвечают ментальности и традициям народа и прогрессивны, поскольку учитывают новые потребности нации и реалии современного глобального порядка. Поколение государственников есть крайне ценный человеческий фактор организации в нынешнем положении III Республики. Совершенно логичным в этой связи видятся обличения автором книги деяний оппозиции, которые иначе как внесистемными не назовешь.

Вопрос преемственности власти гораздо объемнее, чем это представляется оппозиции с ее школярским либеральным воображением. Автор книги избегает идеологической характеристики идей и лозунгов оппозиции, он отмечает ее радикализм в политическом поведении, чего на наш взгляд недостаточно. В данном контексте заслуживают пристального внимания соображения Р. Мехтиева относительно доминантной идеологии III Республики: «Идея "азербайджанства", как национальная форма неоконсерватизма, является и на протяжении всей истории азербайджанского государства будет оставаться основой национальной идеологии» (Мир и национальная идея XX - начале XXI века. // Ramiz Mehdiyev. XXI əsrdə milli dövlətçilik. Bakı, 2003. C. 209). «Азербайджанство» предполагает традиционализм и, конечно, автор книги верно на это указывает, характеризуя наше общество так: это общество, культура которого складывается накопительно, эволюционно.

***Айдын Мирзазаде, к.п.н., депутат***
***Милли Меджлиса, член Политсовета***
***партии «Ени Азербайджан»***

***Лятифа Мамедова, к.и.н., доцент***
***Академии Государственного Управления***
***при Президенте Азербайджанской Республики***



## ÖN SÖZ

Bu kitab Azərbaycan cəmiyyətini sıx birləşdirməyə və Azərbaycanın dinamik, üzvi inkişaf trayektoriyasına çıxa bilməsi üçün milli resursların cəmləşdirilməsini təmin etməyə qabil olan milli strategiya barəsindədir. Müasir Azərbaycanda bu strategiyanın banisi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev olmuşdur.

«Milli» və ya «ümummilli strategiya» anlayışları bizim elmi ədəbiyyatda hələ kifayət qədər açıqlanmamışdır. Lakin bir məsələ mübahisəsizdir: «strategiya» anlayışının «milli» sözü ilə birlikdə işlədilməsi o deməkdir ki, həmin strategiya bütün millətə məxsusdur. Burada müxtəlif partiyaların, əhalinin ayrı-ayrı təbəqələrinin siyasi baxışlarından və ideyalarından çıxış etmək deyil, Azərbaycan cəmiyyətində bəyan edilmiş ümumi sosial dəyərlərə arxalanmaq lazımdır.

Dünya səviyyəli görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti Heydər Əlirza oğlu Əliyev kimi sanballı tarixi şəxsiyyətin öyrənilməsi məsələsinə münasibətlər çox müxtəlif ola bilər: onu bir şəxsiyyət və dövlət xadimi kimi öyrənmək mövqeyindən də yanaşmaq olar, onun bir siyasi lider kimi formalaşdığı və yetkinləşdiyi mühiti müstəsna diqqətlə təhlil etmək də olar. Heydər Əliyevin dövlətçilik fəaliyyətinin müxtəlif mərhələlərinin təsvir edilməsi kimi geniş yayılmış münasibətin də mövcudluq hüququ var. Onun qazandığı zəfərlərin epoxal əhəmiyyəti bu cür araşdırmaların heç də hamısında nəzərə çarpdırılmır. Bir sıra müəlliflər qeyd edirlər ki, onun gördüyü işlər və dediyi sözlər insanı heyrətləndirməyə bilməz və eyni zamanda bu şəxsiyyəti anlamağa cəhd göstərən hər bir kəs onun gördüyü bütün işlərdən həqiqətən vəcdə gəlmək üçün özünəməxsus səbəblər tapır. Biz Mehriban Əliyevanın belə bir fikrinə şərikik ki, «Heydər Əliyev – XX əsrdə bizim tariximizin taleyüklü



187
KİTABXANASI

səhifələrinin iştirakçısı və yaradıcısıdır» (Azerbaijan İRS jurn., 2003. - s.3).

1993-cü ilin iyun ayında Heydər Əliyev hakimiyyətə qayıdandan sonra III Respublikanın hakimiyyət maşını yeni tarixi keyfiyyət kəsb etdi: o, real xalq hakimiyyətinin təcəssümünə çevrildi. Marksın məşhur kəlamını bir qədər başqa şəkildə ifadə edərək deyə bilərik ki, 1991-1993-cü illərdə Azərbaycan dövləti burjuaziyanın işlərini idarə edən komitəyə çevrilmək üçün, yəni, plutokrat dövlətə (varlılar üçün dövlətə) və deməli, məhdud sinfi dövlətə çevrilmək üçün hər cür şansa malik idisə, 1993-cü ilin iyun ayından sonra o, bütün millətin işlərini idarə edən komitə kimi fəaliyyət göstərməyə başladı. 1993-cü ilin payızında keçirilmiş seçkilərdən (əslində plebisitdən) sonra islahatlar strategiyasının həyata keçirilməsi üçün institusional-siyasi məkan yarandı, kəskin qərarlar qəbul etmək və qətiyyətli tədbirlər görmək məqamı yetişdi. Azərbaycan Prezidenti Heydər Əliyevin islahatları və siyasəti sayəsində Azərbaycanda nəinki «bərabər şərait», həmçinin «bərabər imkanlar» da bərqərar olmağa başladı. Prezidentimizin sosial siyasəti millətin ən çox təminatlı təbəqələri ilə ən az təminatlı təbəqələri arasında fərqin azaldılmasına yönəlmişdir.

Bunun nəticəsində ilbəil elə vəziyyət yaranır ki, formalaşmış iyerarxiyanın zirvəsi hökmən bilik və asayışin, xeyirxahlıq və ədalətin zirvəsi kimi qiymətləndiriləcəkdir. Hakimiyyət barədə bu təsəvvür Azərbaycan tarixinin baza əhəmiyyətli belə bir ideyasına əsaslanır ki, yalnız vətəndaşların hüquq və vəzifələrinin vəhdətini ifadə edən dövlət sosial asayışın və tərəqqinin qarantı ola bilər. Bu, xalqın mənəvi instinktinin təcəssümüdür, dövlətçilik və ləyaqətli liderlik ideyası ilə bağlı olan familistik münasibətlərin (sevgi, dostluq, başqalarının halına acımaq, sədaqət hisslərinin) təcəssümüdür və nəhayət, bu, xalqın səfərbər edilməsi sahəsində toplanmış tarixi təcrübədir. Bu



səfərbərlik dövlət yaradan xalqın enerji və iradəsini milli, üzvi, yəni xalqın mentalitetinə adekvat olan, tarixi köklərə güvənən Azərbaycan dövlətinin banisi Heydər Əliyev tərəfindən ifadə edilmiş məsələlərin həlli üzərində cəmləşdirir.

Müasir tədqiqatların prinsiplərinə müvafiq olaraq, tarixi-siyasi təhlil aparmaq üçün cəmiyyətdə mövcud olan və həmin cəmiyyətin doğurduğu müəyyən «cəmiyyət modeli» və «insan modeli» olmalıdır. Zəmanəmizin dramatik özünəməxsusluğu bizim özümüzü bir millət kimi fəal dərk etməyimizin zəruri olduğunu diktə edir. Bu özünüdərk ideyası milli tariximizin köklərindən başlanır və buna görə də o, məhsuldar ideyadır. Bizim milli şüurumuz ideal halda daxili intizama malik, mütəşəkkil, milli iradəmizin təməlindən irəli gələn bir dəyər kimi təsəvvür edilir.

Başa çatmış onilliyin (1993-2003) mahiyyətini bu dəyər kontekstində dərk etməyə imkan verən ən mühüm ideyalardan biri - Azərbaycan cəmiyyətində islahatlar keçirmək ideyasıdır və bu kitabın əsas mövzusu da məhz həmin ideya olacaqdır. Bizim «modernləşdirmə» termini ilə ifadə etdiyimiz islahatların obrazının və praktikasının çoxaspektli təqdimi bu əsərin başlıca vəzifəsinin ən ümumi ifadəsidir.

Kitabın strukturunu bir qədər izah etməyə ehtiyac duyuruq. «Modernləşdirmə: tarixi şüur təcrübəsi» adlanan hissə müasir aləmdə modernləşmənin mahiyyəti və Azərbaycanda hansı növ modernləşməyə ehtiyac olması barədə müəyyən təsəvvür yaradan nəzəri xarakterli geniş müqəddimə kimi düşünülmüşdür. «Siyasi modernləşdirmə - identikliyin qorunub saxlanması problemi kimi» adlanan ikinci hissədə Azərbaycan cəmiyyətinin siyasi təşkilində milli xarakterli modernləşdirmə tədbirlərinin işlənib hazırlanması məsələsi diqqət mərkəzindədir. Bu konseptual həqiqət XX əsrin - əsas intriqası "hökumət adamları" ilə

radikal müxalifət arasında mübarizədən ibarət olmuş yüzilliyin 90-cı illərinin siyasi tarixi peripetiyasında «uydurulmuşdur». Burada Heydər Əliyevin milli dövlətçilik konsepsiyasının yaradılmasında görkəmli töhfələri, müstəqil Azərbaycanın formalaşmasına onun həqiqətən tarixi əhəmiyyətli irsi, mahiyyət etibarilə Azərbaycanın dirçəlişinin nəzəriyyə və praktikasının işlənib hazırlanmasına və həyata keçirilməsinə onun fəaliyyəti açıqlanır.

«İqtisadi modernləşmə strategiyası» adlanan üçüncü hissə ölkə hakimiyyətinin dünya təsərrüfat proseslərinin qloballaşması şəraitində iqtisadiyyatı böhrandan çıxarmaq üçün nəzərdə tutduğu tədbirlər və real faktlar barədə icmal xarakterli materiallardan ibarətdir. İşin nəticə hissəsində isə başa çatmış onilliyin çoxölçülü və dramatik siyasi tarixinin təhlili zamanı aşkar olunmuş həqiqətləri ifadə etməyə cəhd göstərilir.

Əsərdə «Heydər Əliyev layihəsi», «Milli təmərküzləşmə siyasəti» və digər anlayışlardan istifadə edilir. Həmin anlayışlar barəsində bunu deyə bilərik ki, onlar Prezidentin hakimiyyət praktikasında müşahidə olunan ən mühüm halları əks etdirməklə, «islahatlar», «modernləşmə» və «səfərbərlik» anlayışları ilə səsləşirlər və buna görə də mövcudluq hüququna malikdirlər. Bir məsələ də şəksizdir: bu anlayışlar terminoloji statusa iddia edə bilməzlər, çünki onların məzmununu dəqiqləşdirməyə ehtiyac var. Fikrimizcə, bu cür işlər hələ irəlidədir.

Bu kitabda nə tarixi, nə də politoloji məsələləri həll etmək məqsədi qarşıya qoyulmamışdır. Müəllifin fikrincə, əsər azərbaycançılıq ideologiyasının formalaşması, dövlət və cəmiyyət təsisatlarının təkmilləşməsi ilə bağlı gələcək işlərdə təzahür edə biləcək təşəbbüslərə səbəb olmalıdır.



## ПРЕДИСЛОВИЕ

Эта книга о национальной стратегии, способной консолидировать азербайджанское общество и обеспечить концентрацию национальных ресурсов для прорыва Азербайджана на траекторию динамичного и органичного развития.

Само понятие «национальная» или «общенациональная стратегия» пока еще недостаточно разработано в нашей литературе. Однако бесспорно одно: в сочетании со словом «национальная» понятие «стратегия» означает, что она принадлежит всей нации. Здесь нужно исходить не из политических взглядов и идей разных партий, отдельных слоев населения, а опираться на общие социальные ценности, провозглашенные в азербайджанском обществе.

Подходы к исследованию исторической фигуры такого масштаба как выдающийся политический и государственный деятель мирового уровня Президент Азербайджанской Республики Гейдар Алирза оглы Алиев могут быть весьма различными: с позиции изучения его как личности и как государственного деятеля или же скрупулезного анализа среды его формирования и становления как политического лидера. Имеет право на существование и столь широко распространенный подход, как описание различных этапов его государственной деятельности. Все эти публикации оставляют ощущение эпохальности его свершений. Многие авторы отмечают, что все сделанное и сказанное им не может не вызывать удивление, равно как и то, что каждый, кто пытается понять эту личность, находит свои причины для искреннего восхищения всем тем, что было содеяно им. Мы разделяем мнение Мехрибан Алиевой о том, что «Гейдар Алиев- участник и создатель судьбоносных страниц нашей истории в XX веке» (журн. Azerbaijan IRS, 2003.- с.3).

После возвращения Г. Алиева в июне 1993 г. властная машина III Республики перешла в новое историческое качество: она стала воплощением реального народовластия. Перефразируя Маркса скажем, что если в 1991-1993 годах азербайджанское государство имело все шансы стать комитетом по управлению делами буржуазии, т. е. стать плутократическим государством (государством для богачей), превратившись таким образом в узкоклассовое государство, то с июня 1993 года оно стало действовать в качестве комитета по управлению делами всей нации. В результате проведенных выборов (фактически- плебисцита) осенью 1993 г. образовалось институционально-политическое пространство для реализации стратегии реформ - настало время рассекающих решений и решающих действий. Благодаря реформам и политике Президента Азербайджана Гейдара Алиева в Азербайджане стало утверждаться не только «равенство условий», но и «равенство возможностей».Социальная политика нашего президента направлена на сокращение разницы между наиболее и наименее обеспеченными слоями нации.

И как следствие год за годом вызревает ситуация, при которой вершина сложившейся иерархии неизбежно будет оцениваться как средоточие знания и порядка, добра и справедливости. Это представление о власти коренится в базовой идее азербайджанской истории - только государство, выражающее единство гражданских прав и обязанностей может быть гарантом социального порядка и прогресса. Здесь воплощение морального инстинкта народа, здесь фамилистические отношения (любви, дружбы, сочувствия, привязанности), завязанные на идее твердой государственности и достойного лидерства, - здесь, наконец, исторический опыт мобилизации народа. Эта мобилизация концентрирует энергию и волю государствообразующего народа на выполнение задач, сформулированных основателем национального, органичного, то есть адекватного менталитету народа, укорененного в исторической почве Азербайджанского государства Гейдаром Алиевым.



Согласно принципам современных исследований историко-политический анализ необходимо вести, имея определенную "модель общества" и "модель человека", действующего в этом обществе и этим обществом порожденного. Драматическое своеобразие нашей эпохи диктует нам нужду в активном познании самих себя как нации. Это самопознание идущее вглубь национальной истории и потому плодотворное. Наше национальное сознание в идеале представляется как очень подтянутое, всегда дисциплинированное и организованное изнутри, из собственной глубины, в которой заложена национальная воля.

В этом ценностном контексте одна из ключевых идей, определяющих понимание истекшего десятилетия (1993-2003) - идея реформирования азербайджанского общества будет главной темой нашей книги. Многоаспектное выстраивание образа и практики реформ, которые мы обозначаем термином "модернизация", - такова в самом общем выражении главная задача нашей работы.

Структура книги нуждается в некотором пояснении.Часть, названная "Модернизация: опыт исторического сознания", задумана как расширенное введение теоретического характера, дающее известное представление о том, что такое модернизация в современном мире и о том какого рода модернизация потребна Азербайджану. Вторая часть "Политическая модернизация как проблема сохранения идентичности" акцентирует внимание на выработке национального характера модернизационных мер в политической организации азербайджанского общества. Эта концептуальная истина "вмыслена" в перипетии политической истории 90-х годов XX столетия, суть которых- борьба государственников с радикальной оппозицией. Здесь

раскрывается выдающийся вклад Гейдара Алиева в создание концепции национальной государственности, его поистине исторический вклад в становление независимого Азербайджана, по сути дела разработку и осуществление теории и практики азербайджанского возрождения.

Третья часть "Стратегия экономической модернизации" содержит обзорный материал о реальных фактах и замыслах власти по выводу экономики из кризиса, в условиях глобализации мирохозяйственных процессов. Заключение данной работы - это попытка сформулировать истины, обнаруженные при анализе многомерной и драматичной политической истории истекшего десятилетия.

В работе используются понятия "проект Гейдара Алиева", "политика национальной концентрации" и другие, о которых можно сказать: они отражают важнейшие явления властной практики Президента, перекликаются с терминами "реформы", "модернизация" и "мобилизация" и как таковые имеют право на существование. Бесспорно и другое: эти понятия не могут претендовать на терминологический статус, поскольку нуждаются в уточнении содержания. Полагаем, что такого рода работа еще впереди.

Настоящая работа не преследует ни исторические, ни политологические задачи. Она, на взгляд автора призвана вызвать инициативы, которые бы проявились в дальнейшей работе по формированию идеологии азербайджанизма и совершенствованию наличных институтов государства и общества.



## I Hissə. TƏRƏQQİYƏ DOĞRU HƏRƏKƏT: TARİXİ ŞÜUR TƏCRÜBƏSİ (MÜQƏDDİMƏ ƏVƏZİNƏ)

Mövzunu şərh etməyə başlayarkən lap əvvəldən qeyd edək ki, Azərbaycanın tarixində modernləşmə xalqın bütün həyat təcrübəsində yaranmış və sınaqdan çıxarılmış normalar əsasında həyata keçirilmiş və bu mənada o, milli və sivil identikliyə malik olmuşdur. Başqa sözlə desək, modernləşmə ölkənin mahiyyətinə uyğun olmuşdur. Buna görə də Azərbaycanda modernləşmənin spesifikası Qərbdə olduğundan fərqli səviyyədədir. Bu spesifika Azərbaycanın tarixi inkişafının ümumi trayektoriyasında özünü göstərir.

Modernləşmə konsepsiyası Qərbdə və ya pan-Avropa aləmində, ilk növbədə Qərbi Avropada və Şimali Amerikada yaranmışdır. Modernləşmə nəzəriyyəsinə görə bütün cəmiyyətlər iki qrupa bölünür: müasir cəmiyyətlər (yəni Qərb cəmiyyətləri) və ənənəvi cəmiyyətlər (dünyanın qalan hissəsi). Qərbin təsəvvüründə siyasi və iqtisadi modernləşmə dedikdə ilk növbədə:

1) vətəndaş cəmiyyətinin dövlət üzərində aliliyi (bütün ənənəvi cəmiyyətlərdə bu məsələ əksinə həll edilir – *müəllifin qeydi*), müxtəlif institutların sərbəst formalaşması, rəqabət;

2) insanın vətəndaş hüquqlarının və siyasi hüquqlarının onun əlindən alına bilməməsi (dövlət hakimiyyəti tərəfindən – *müəllifin qeydi*);

3) nümayəndəli idarəetmə, hakimiyyət bölgüsü, hüquqi dövlət;

4) vəzifə və mövqe iyerarxiyasında uğur qazanmaq və irəliləmək şansının azadlığı nəzərdə tutulur. Dünya ölkələrində modernləşmə Qərbin təsəvvüründə ənənəvi cəmiyyətlərin «modernity» cəmiyyətlərinə çevrilməsi deməkdir. Ənənəvi cəmiyyətlər «mənfi» xüsusiyyətlərə malikdir.

Modernizm baxımından «mənfi» cizgilər dedikdə, çoxəsrlik dini-milli norma və ənənələr, dövlətin cəmiyyət üzərində hökmranlıq etməsi, şəxsiyyətin kollektivə (qrupa, korporasiyaya, qəbiləyə, ailəyə) tabe edilməsi kimi əlamətlər nəzərdə tutulur.

### 1. «Modernity» və yaxud tərəqqi: orijinal və onun yaradıcı variasiyası

Modernizmin Qərbə xas mərkəzçiliyi (sentrizmi) aşağıdakı fikirdə qabarıq şəkildə ifadə olunur: dünya əlaqələrinə cəlb edilmiş hər bir ölkədə siyasi, iqtisadi, mədəni və texnoloji islahatlar aparılmalı, sekulyarizasiya (kilsənin dövlətdən ayrılması) baş verməli və bu islahatlar demokratiya (liberal demokratiya– *müəllifin qeydi*) dəyərlərinə əsaslanmalıdır. M.Veber yazırdı: «Son nəticədə kapitalizmi (modernity - *müəllifin qeydi*) yaradanlar rasional daimi müəssisə, rasional mühasibat, rasional texnika, rasional hüquq olmuşdur. Yalnız onlar tək deyildir: biz buraya rasional təfəkkür tərzini, həyat tərzinin rasionallaşdırılmasını və rasional təsərrüfat etikasını da əlavə etməliyik». Modernin mahiyyəti belədir və XX əsr onun hökmranlığı şəraitində keçmişdir.

Əlbəttə, aşkardır ki, müasir Avropa sivilizasiyası modernist layihənin həyata keçirilməsinin məhsuludur. Bu sivilizasiya özünün bütün fərqləndirici əlamətlərinə görə, praktiki olaraq, məhz modern dövrünə borcludur. Müasir həyatın tərkib hissələri olan elm, sənaye, demokratiya, tərəqqi və cəmiyyətin mövcud olması üçün zəruri olan digər dəyərlərin hamısı, eləcə də Qərb sivilizasiyasına xas olan misilsiz yüksək həyat standartları və digər nailiyyətlər də modernin məhsullarıdır.

Buna görə də XX əsrin 50-60-cı illərində qərb nəzəriyyəçiləri dünyanın qalan hissəsinə belə bir konseptual sxem təklif etdilər: birincisi, pan-Avropa dünyasının inkişafı Avropa inqilablarının, yəni demokratik həyatın dəyər və ənənələrinin kökünün kəsilməsinin nəticəsidir; ikincisi, demokratiyanın ən ali etalonu qərb cəmiyyəti və ona xas olan təsisatlardır, deməli, üçüncüsü, Qərbə aid olmayan ölkələrdə cəmiyyətin demokratiklik dərəcəsi onların qərb modelinə nə dərəcədə yaxınlaşmasının səviyyəsi ilə ölçülür. Beləliklə, qərb cəmiyyətlərinin xarakterik cizgiləri ideoloji universaliyalar, yəni ümumbəşəri dəyərlər elan edilir. Qərb «yeni» və «mütərəqqi» obrazında təcəssüm edilir. Qalan dünya isə «avamlıq» və «geridəqalma» təcəssümü kimi təsir bağışlayır. Aşkardır ki, modernizm avrosentrist siyasətin vasitəsidir, modernist layihə, ən əvvəl transmilli korporasiyaların (TMK – *müəllifin qeydi*) nümunəsində Qərb heqemonizminin ideoloji vasitəsinə çevrilir. Onlar müasir dünyada qloballaşma kimi məşhur olan iqtisadi ekspansiyanı həyata keçirirlər.

Nüfuzlu filosof və sosioloq Aleksandr Zinovyevin fikrincə, «*Qərbdə fövqəlcəmiyyət yaranmışdır... onun zirvəsində* Birləşmiş Ştatlar da daxil olmaqla bütün Qərb ölkələri üzərində hökmranlıq edən müəyyən təbəqə var... metropoliyası Birləşmiş Ştatlar olan bu fövqəlcəmiyyət bu gün dünyadakı ehtiyatların 70%-dən çoxuna nəzarət edir». Onu da əlavə edək ki, Yer kürəsinin əhalisinin 3 %-dən də az olan ABŞ əhalisi dünya resurslarının 40 %-ni, «qızıl milyarder» deyilən ölkələr (Şimali Amerika, Qərbi Avropa...) əhalisinin 15 %-i dünya resurslarının (ilk növbədə neftin və qazın) 70%-dən çoxunu istehlak etdiyi bir şəraitdə modernizasiya barədə söhbətlərdən dramatizm qoxusu gəlir.

Modernləşdirmə – mahiyyət etibarı ilə «müasir dövrdə mövcud olmaq üsuludur». Lakin müasir dövrdə nə qədər müasir cəmiyyət varsa mövcud olmaq üsulları kimi modernləşmələr də bir o qədərdir. Buna görə də «modernləşdirmə»ni mövcud olan hər hansı modellə eyniləşdirmək (məsələn, modernləşdirmə vesternləşdirmə kimi çıxış edəndə belə olur) nəzəri səhvdən daha çox, praktikanın faciəli səhvidir. (Капустин

Б.Г. Современность как предмет политической теории. М.: РОССПЭН, 1998// ***http://www.auditorium.ru).***

Qərb filosoflarının və sosioloqlarının qeyd etdikləri kimi, Qərbin müasir sosial dövləti yoxsulluğa son qoymaq iqtidarında deyildir, kütləvi işsizlik və marginalizasiya artdıqca yoxsulluq da artır, yəni bir sıra sosial qruplar əmək bazarında şansdan praktiki olaraq məhrumdur və buna müvafiq olaraq sosial təminatdan da məhrumdur. Dövlətin ekoloji problemlərin öhdəsindən gəlmək və müasir istehsalatın texnoloji risklərini azaltmaq iqtidarında olmaması getgedə daha aşkar görünür.

70-ci illərdən başlayaraq məlum oldu ki, Qərbin imitasiyası kimi başa düşülən modernləşmə praktikada böyük problemlərə gətirib çıxarır. Siyasi təsisat və normaların Qərbdən birbaşa əks edilməsi – bütün bu «prezidentlər», «parlamentlər», «çoxpartiyalılıq» - uğurlu dəyişikliklərə gətirib çıxarmadı. Məsələn, Mexiko (Meksika), Manila (Filipin) və Qahirə (Misir) modernləşmə məhsullarını birbaşa əxz etmə yolu ilə fəal irəlilədikləri halda onlar yalnız çörək və tamaşa istəyən, sinfi mənsubiyyət hissini itirmiş, lümpenləşmiş insanlara çevrildilər, Qərbin kütləvi cəmiyyətlərinin ən pis cəhətlərini qəbul etdilər (bax: Мурадов А.Д. Регулирование рыночной экономики: зарубежный опыт. Баку, 2002). Bu təcrübə göstərdi ki, heç də bütün dəyişikliklər inkişaf deyil, yəni tərəqqi deyil... İrəliyə doğru hərəkət yalnız o halda baş verir ki, islahatlar aşağıdan dəstəklənsin, modernləşmə obrazı əhalinin əksəriyyətinin düzgünlük və ədalət barədə təsəvvürlərinə uyğun olsun. Bu, cəmiyyətin strukturunun mürəkkəbləşməsi və dəyişikliklərin bütövlükdə cəmiyyətin fəaliyyət sistemini əhatə etməsi kimi struktur mürəkkəbliyi ilə birlikdə yaxşılığa doğru dəyişikliklərin başlıca meyarıdır.

Bu cür modernləşmə praktikası göstərdi ki, hətta Latın Amerikasında və Afrikada bəzi ölkələr ABŞ-ın özündə gözəl təsir göstərən qanunları sözün hərfi mənasında



köçürdükdə belə, Latın Amerikası və Afrika xalqlarının adətləri ilə dəstəklənməyən qanunlar işləmədi. Beləliklə, siyasi təsisatların vahid orqanizmi yaranmadı və müvafiq olaraq gözlənilən iqtisadi inkişaf baş vermədi. Nəticədə üçüncü dünya ölkələri (cüzi istisnalarla) əvvəlkindən də pis yaşamağa başladılar. Qeyd etmək yerinə düşər ki, M.Qorbaçov Rusiyanın qərb sivilizasiyasına qoşulması siyasətini elan edəndən sonra bu ölkələrin yoxsul vəziyyəti daha da kəskinləşdi, çünki belə siyasət Rusiyanın Asiyada, Afrikada, Latın Amerikasında iştirakını və təsirini itirməsi ilə, həmin ölkələrin Rusiyanın dəstəyindən məhrum olması ilə başa çatdı.

Lakin bundan sonra mədəniyyəti və mənəviyyatı puç etmədən inkişaf etməyin mümkünlüyü kimi Asiya fenomeni yarandı. Bu hadisə məxsusi identiklik (mahiyyət) əsasında modernləşmə kimi qiymətləndirilməyə başlandı. Yaponlar birinci olaraq aşkar etdilər ki, kollektivçilik təsisatları və normaları qərb nümunəsindən fərqli modernləşməni təmin etməyə qadirdir. Cənub-Şərqi Asiyanın (o cümlədən, sosialist Çininin və sosialist Vyetnamın təcrübəsi), Yaxın Şərq ölkələrinin təcrübəsi göstərdi ki, Qərb texnologiyalarından istifadə etməklə yanaşı milli-mədəni bənzərsizlik deyilən dəyərlərin hamısını – siyasi ənənə və normaları, mənəvi adətləri və əxlaqı qoruyub saxlamaq mümkündür.

Modernləşmənin bu praktikası sosial nəzəriyyətçilər tərəfindən öyrənilib ümumiləşdirildi və bunun nəticəsi kimi «Asiya ideyası» yarandı. Bu ideya bizə tanış olan dəyər və məqsədləri akkumulyasiya edir. «Hakimiyyətin təşkilinin optimal modeli və siyasi sistem çərçivəsində məsuliyyət; qrup mənafelərinin fərdi mənafelərdən üstünlüyü; dövlətin üzvi şəkildə qavranılması – bu halda dövlət cəmiyyətin əsas mənafelərinin başlıca qarantı kimi çıxış edir; ümumi mənafelərə xidmət etməyin siyasi rəqabətdən üstün tutulması; rəislə onun tabeliyində olanın; idarə edənlə idarə edilənlərin qarşılıqlı məsuliyyəti» kimi başa düşülən ailə – «bazar iqti-

sadiyyatlı siyasi konservatizmin üzvi-etatist variantını» birləşdirən konsepsiya bundan ibarətdir (Гаджиев К.С. Азиатская идея. // Политическая энциклопедия в 2-х томах. Т.1, М., 2000. С.26-27).

Məsələn, Çin ənənələrindəki dəyərlərə görə «dövlət ailənin genişlənməsi və davamı, ailə isə cəmiyyətin əsas özəyi idi... Siyasi dəyərlər sosial və etik dəyərlərdən dəqiq ayrılmamışdır... Siyasət etik normalar və formalar, etika isə siyasi funksiya və strukturlar kəsb edir, yəni siyasətin etikləşməsi və etikanın siyasiləşməsi baş verir».

XXI əsrin əvvəllərində Azərbaycanın nəzəri və siyasi-ideoloji təffəkküründə modernləşmə təcrübəsi yaranır. Bu proses bir sıra ölkələr tərəfindən onların öz ənənələri bazasında, öz məxsusi tarixi əhatə dairəsində həyata keçirilir. Onu da nəzərə almalıyıq ki, XX əsrin 80-90-cı illərində qərb nəzəriyyəçiləri modernləşmənin fundamental qərb konsepsiyasının köməyi ilə sovet tarixini (deməli, həm də Azərbaycan tarixini) izah etmək cəhdlərinə şübhə edirdilər. Qərb alimləri (ideoloqlar yox, alimlər - *müəllifin qeydi*) Qərbi Avropa təcrübəsini və bu təcrübəyə əsaslanan nəzəriyyələri mütləqləşdirmək lazım olmadığını etiraf etdilər. Bu təcrübə və nəzəriyyələr «XX əsr Rusiyası (və Azərbaycanı)» adlı fenomeni izah etmək üçün kifayət olmadı.

Beləliklə, bütün yuxarıdakı mühakimələrə əsasən bu qənaətə gəlirik ki, Azərbaycanın coşqun inkişafı bizim öz modernləşmə təcrübəmiz barədə danışmağa imkan verir. Prezident Heydər Əliyev dəfələrlə demişdir: «Azərbaycan xalqı böyük bir tarixi yol keçmişdir. Bu dövrdə xalqımız yüksəlmiş, onun mentaliteti, təhsil səviyyəsi qalxmışdır. Azərbaycanda böyük elm, mədəniyyət yaranmışdır. Ölkənin sənayesi, kənd təsərrüfatı inkişaf etmişdir» (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, iyun, 1993-may, 1994. S. 158).



## 2. Rusiya imperiyasında islahatlar: prosesin tempini və vektorunu dövlət müəyyən edir

1861-ci ildən sonra Rusiya imperiyası «qovub çatma» modernləşməsi yoluna qədəm qoydu. 1913-cü ildə Rusiya sənaye məhsulları istehsalının həcminə görə ABŞ, Almaniya, Böyük Britaniya və Fransadan sonra dünyada beşinci yeri tuturdu. XIX əsrin 60-cı illərində obyektiv olaraq vətəndaş cəmiyyətinin rüşeymlərinin formalaşmasına doğru aparan islahatlara başlayarkən Rusiya hökuməti bazar münasibətlərinin «tətbiq edilməsi» barədə bəlkə də heç fikirləşmirdi. Bu münasibətlər dəyişikliklər kompleksində yalnız əlavə məhsul oldu. Modernləşmənin lazım olub- olmaması hakim bürokratiya üçün mübahisə doğurmurdu. Mubahisə yalnız modernləşmənin hansı üsulunu seçmək məsələsi ilə bağlı idi. Mühafizəkar və ənənəvi mütləqiyyət rejimi «nəzarət edilən modernləşmə» tərəfdarı idi.

Rusiya imperiyası xüsusi kapitalist münasibətləri yoluna qədəm qoyandan sonra problemlər yarandı. Axı kapitalizmin inkişafı Qərbi Avropadan liberal demokratiyanın siyasi təsisatlarını əxz etmək məsələsini qarşıya qoymuşdu. Lakin bu məntiq dövlət monopolizmi sisteminə zidd idi. Rusiyanın mütləq monarxiyası mülkiyyət münasibətlərini, bu münasibətlərin həyata keçirilməsi qaydasını, dövlət müəssisələrinin və özəl müəssisələrin fəaliyyət qaydalarını total şəkildə reqlamentləşdirirdi. Rusiyada dövlətin təcəssümçüsü hakim bürokratiya idi. Kapitalist sənayesinin fəaliyyətinə nəinki dövlət nəzarətini, həm də şəxsi nəzarəti məhz yüz minlərlə məmurları birləşdirən siyasi sinif həyata keçirirdi və məhz bu sinif kapitalist sənayesini mövcud sistemə daxil etməyə çalışırdı.

Cəmiyyətin siyasi təşkilini, dövlətin hüquqi formalarını, onun tipini müəyyənləşdirən adətlərə diqqəti cəlb etmək istərdim. Kəndli ölkəsi böyük bir ailənin qanunları üzrə yaşayırdı... Çar II Nikolay 1897-ci il yanvarın 27-də ümumi

siyahıyaalma vərəqəsini doldurarkən özünün «məşğuliyyəti, vəzifəsi, xidməti» barədə qrafada inamla yazmışdı: «Rus torpağının sahibi». 1902-ci ilin sentyabrında isə çar II Nikolay Rusiyanın beş quberniyasının volost starşinalarına və kənd starostalarına müraciətlə demişdi: «Yadda saxlayın ki, başqasının malını ələ keçirmək yolu ilə deyil, namuslu əməklə, qənaətlə və Allahın qanunlarına uyğun yaşamaq yolu ilə sərvətlənmək olar. İndicə sizə dediyim bu sözləri kəlməbəkəlmə öz həmkəndlilərinizə çatdırın, onu da deyin ki, mən onların həqiqi ehtiyaclarının qeydinə qalacağam» (Sitat bu mənbədən gətirilir: История государственного управления в России. Изд. 2-е, испр. /Под общей редакцией Р.Г.Пихои. М.: Изд-во РАГС, 2002. с.189).

Məmurluq xidməti Rusiyada (və əlbəttə, Azərbaycanda da) yüz minlərlə insan üçün sosial təminatın xüsusi forması idi. Məşhur rus filosoflarından biri xatırlayır ki, Çində adamlar salamlaşanda «Siz düyü yemisinizmi?» - deyə soruşduqları kimi, köhnə Rusiyada da adamlar bir-biri ilə rastlaşanda soruşurdurlar: «Siz harada xidmət edirsiniz?». S.Y.Vitte belə hesab edirdi ki, Rusiya çarlarının mövcud olduğu şərait «insanı öz mövqeyi naminə ... günaha batmağa və görmək istəmədiyi şeylərə göz yummağa məcbur etmir», onların «xüdbin maddi maraqları» yoxdur.

Qərbdə yalnız 1929-1933-cü illərdəki «böyük böhran» dövründə yayılmış dövlət tənzimləməsi formaları Rusiyada artıq 1870-ci illərdən məlum idi və fəal istifadə edilirdi. Bu siyasət əsaslı siyasət idi, çünki hər yerdə xüsusi mülkiyyət iqtisadi cəhətdən azlıq edir – «özəl təşəbbüslərin və özəl sərmayə qoyuluşlarının nöqsanları yalnız «dövlət sifarişləri çətirinin» köməyi ilə kompensasiya edilir».

Rusiya bir qədər tərəddüd edəndən sonra, ümumiyyətlə desək, vətənpərvər xarakter daşıyan fəaliyyət xətti qəbul etdi. Bu fəaliyyət xətti, ilk növbədə, Sergey Yulyeviç Vittenin (1849-1915) adı ilə bağlıdır. Özü alman lüteranlarının nəslindən olan, «pravoslavlıq, mütləqiyyət, xəlqilik» ruhunda



tərbiyə edilmiş Vitte deyirdi: «Biz ruslar siyasi iqtisad sahəsində, əlbəttə, Qərbin yedəyində gedirdik və buna görə də Rusiyada hökm sürən... təməli olmayan kosmopolitizm şəraitində... ən səfeh istiqamət seçdik. Bizim iqtisadçılar Rusiya imperiyasının iqtisadi həyatını kosmopolit iqtisadi reseptlər üzrə ölçüb-biçmək fikrinə düşdülər. Bunun nəticələri... göz qabağındadır».

Çar III Aleksandrın dövründə Rusiyada sənayeləşmə proqramı qəbul edildi. Bu, ölkənin tarixində dövlət tərəfindən qəbul edilmiş ilk təsərrüfat planı idi. Deməli, bu baxımdan, kommunistlərin qəbul etdikləri beşillik planlar heç də birinci təcrübə deyildi. Sürətlə sənayeləşmə ideologiyası 1893-cü ildə ifadə edilmişdir. S.Vittenin II Nikolaya məruzəsində (1899-cü il) göstərilirdi: «Mən elə güman edirdim ki, mütləq mənada mükəmməl ticarət-sənaye sistemi yoxdur, elə bilirdim ki, hər bir sistemin həm müsbət, həm də mənfi cəhətləri var, lakin praktikada həyata keçirilməli olan sistemi seçərkən tərəzinin bir gözünə ölkədə artıq mövcud olan sistem, tərəzinin o biri gözünə isə uğrunda xalqın müəyyən qədər qurbanlar vermiş olduğu və xalq təsərrüfatının artıq uyğunlaşdığı sistem qoyularsa, bu sistemlərdən ikincisi həmişə ağır gələrdi». Maliyyə naziri S.Y.Vittenin II Nikolaya ünvanlanmış bu məruzəsində imperiyanın ticarət-sənaye siyasətini müəyyənləşdirmək və sonra bu siyasətin müəyyən proqramını dönmədən əməl etmək zərurətindən bəhs edilir.

Sürətli inkişaf həmişə məntiqəuyğun və bütün siyasi rejimlər üçün yararlıdır. Bu mənada, geriləməni aradan qaldırmaq məqsədilə sənayeləşmə bizim üçün – yeni əsrin əvvəlində yaşayan insanlar üçün ibrət dərsi ola bilər. Qərbi «qovub çatmaq» sahəsində bizim Prezidentin yeritdiyi islahatlar siyasətini çar hökumətinin siyasəti ilə müqayisə etsək görərik ki, o dövrdə qısa müddətdə istehsalın çox böyük həcmini təmin etməyə qadir olan ən iri firmaların rəğbətləndirilməsi kursu həyata keçirilirdi. Hökumət bu cür fir-

malara mütərəqqi texnika və texnologiyanın daşıyıcıları kimi, sənayenin təmərküzləşməsinə isə istehsalın və satışın daha səmərəli təşkil edilməsi vasitəsi kimi baxırdı. Bunun nəticəsində iki əsrin qovuşuğunda Rusiyada sənayenin artım sürəti Qərbin daha çox inkişaf etmiş ölkələrindəki analoji göstəricilərdən xeyli yüksək idi. Bunun bir mühüm səbəbi də ondan ibarət idi ki, ölkə iqtisadiyyatına xarici kapital cəlb edilmişdi. Bir məqamı xüsusi qeyd etməliyik ki, indi olduğu kimi o dövrdə də əcnəbi kapitalın iştirakı problemi ictimai şüurda kəskin kolliziyalara səbəb olurdu. Son maliyyə nazirlərinin, demək olar ki, hamısının fikrincə, xarici investisiyalar tamamilə zəruri olsa da, torpaq mülkiyyətçiləri olan aristokratiya və yüksək vəzifəli məmurların nümayəndələri bu investisiyaları özlərinin mövqeyinə təhlükə mənbəyi hesab edirdilər (lakin radikal ziyalılar da onları dəstəkləmirdi). İstər ölkənin özündə mövcud olan, istərsə də xaricdən cəlb edilən məhsuldar kapital «əl-qol aça bilmədi». Bəzi regionlarda torpaq sahibliyi hüquqları məhdudlaşdırılmışdı, əcnəbilər öz müəssisələrini yaratmaq üçün icazə almalı idilər, hökumət səhmdar şirkətlərinin administrasiyasının milli tərkibi ilə bağlı tələblər irəli sürür, xüsusən bu cür şirkətlərin administrasiyasında xaricdə qohumluq əlaqələri və xalis etnik əlaqələri olan yəhudilərin sayını məhdudlaşdırırdı (bax: Сорокин А.К. Государство и предпринимательство в России. (Исторический опыт предоктябрьской модернизации) //Полис. 1995.№3. с.151-154).

Rusiya iqtisadiyyatına xas və bizim bugünkü gerçəkliyə yaxın olan iki mühüm amili – əcnəbilərin qeyri-mütənasib dərəcədə yüksək rolunu və dövlətin iqtisadiyyata birbaşa müdaxiləsini xüsusi qeyd etməyə dəyər. Xarici investisiyaların həcmi Rusiyada bütün sənaye investisiyalarının həcminin 1/3 hissəsinə çatmışdı. Xarici investisiyalar, xüsusən, dəmir sənayesi, kömür, kimya və neft sənayesi kimi mühüm sahələrdə cəmləşmişdir. Milli iqtisadiyyatda dövlətin rolu məsələsinə gəldikdə isə, 1860-1900-cü illər müddətində hər



onillikdə dövlətin bu rolu artırdı. Rusiyada səhmdar kapitallarının məbləği barədə rəqəmlər bu sahədə müəyyən təsəvvür yaradır: 1912-ci ilin məlumatlarına görə, rus kapitalının məbləği 371,2 milyon rubl olduğu halda əcnəbi kapitalın məbləği 401,3 milyon rubla çatmışdı, yəni bütün vəsaitlərin yarıdan çoxu xarici kapitalın payına düşürdü. II Nikolayın hakimiyyətinin başlanğıc dövründə əcnəbilər Rusiyada kapitalın 20-30%-inə nəzarət etdikləri halda, 1913-cü ildə onlar Rusiyada kapitalın 60-70%-inə, 1917-ci ilin sentyabr ayında isə 90-95%-inə nəzarət edirdilər (bax: Мосолов А.А. При дворе последнего Российского императора. Записки начальника канцелярии Министерства императорского двора. М., 1993).

Maraqlı bir məqama fikir verin: imperiya əhalisinin əksəriyyəti mahiyyət etibarilə, ölkənin «kapitallaşması» proseslərindən kənarda qalmışdı. İnsanların bazara daxil olması bazarın özünün inkişaf sürətindən və yeni elitanın varlanma tempindən açıq-aşkar geri qalırdı. «Kapitalizm Rusiyada dərin kök sala bilmədi», o, «kütləvi şüurun müqaviməti ilə üzləşdi». Qərbdəki orta bürgerə xas olan «şəxsi təşəbbüskarlıq, fərasət, riskə getməyə hazır olmaq...» kimi keyfiyyətlər Rusiyada və Azərbaycanda (ən əvvəl Bakıda) kütləvi şəkildə yayılmadı. «Kapitalizmin Rusiya variantı» kəndlinin ənənəvi psixologiyasında yalnız «sənaye maşınının dişli çarxları olan... zavod sahibləri-kapitalist psixologiyasına» çevrilməyə kömək etdi.

Başqa sözlə desək, Rusiyada kapitalizm münasibətləri dərinləşdikcə, «aşağılar»la «yuxarılar» arasında müharibə də dərinləşirdi. Özü də bu müharibə Avropada sinfi mübarizə adlanan formadan daha sərt formalarda gedirdi. Bu qəddarlıq xeyli dərəcədə məhz ondan irəli gəlirdi ki, çar rejimi Qərbi Avropadan və onun iri maliyyə kapitalından asılı idi.

### 3. SSRİ-də islahatlar: öz resurslarına güvənəndə

Sovet dövləti uğursuz liberal-burjua dövlətindən inqilabi yolla imtinanın nəticəsi kimi yaranmışdı. Lakin bu inqilab ənənəvi cəmiyyətin tipik dövlətini - modernizm kimi qələmə verilən dövləti yeni formada və «yuxarıdan» yeni qaydada əsaslandıraraq bərpa etmişdi.

Rusiyanın böyüklüyü fikrindən heç vaxt ayrılmayan Kommunist Partiyası (ÜİK(b)P.- *müəllifin qeydi*) 20-ci illərin ortalarnda iqtisadiyyatın sürətlə modernləşməsi kursunu götürdü. İ.Stalin 1925-ci ildə deyirdi: «Milliləşdirilmiş sənaye, milliləşdirilmiş nəqliyyat və kredit, inhisarlaşdırılmış xarici ticarət, dövlət tərəfindən tənzimlənən daxili ticarət, - bütün bunlar ölkəmizin sənayesinin inkişaf etdirilməsi üçün istifadə oluna biləcək «izafi kapitalların» elə yeni mənbələridir ki, hələ heç bir burjua dövlətinin bu cür mənbələri olmamışdır». 20-ci illərin axırlarında sənayeləşmənin hansı üsulunu seçmək məsələsi taleyüklü xarakter kəsb edirdi. «Əsrin əvvəlindəki Rusiyadan fərqli olaraq, mühüm vəsait mənbəyi kimi əcnəbi kreditləri olmayan SSRİ sənayeləşməni yalnız daxili ehtiyatlar hesabına həyata keçirə bilərdi. Nüfuzlu qrup (Siyasi Büronun üzvü N.İ.Buxarin, Xalq Komissarları Sovetinin sədri A.İ.Rıkov və ÜİHİMŞ sədri M.P.Tomski) «mülayim» variantın - YİS-i (Yeni İqtisadi Siyasəti - *müəllifin qeydi*) davam etdirməklə tədrici yığım variantının, İ.V.Stalin isə sürətli variantın tərəfdarı idi». Tanınmış alim S.Q. Kara-Murza belə bir maraqlı fakt gətirir: «Yenidənqurma illərində Buxarinin variantı müasir metodlarla modelləşdirilmişdi. Hesablamalar göstərdi ki, YİS davam etdiriləcəyi təqdirdə əsas istehsalat fondlarının artımı ildə 1-2 % intervalında olardı. Bu vəziyyət, labüd olaraq, müharibədə məğlubiyyətə və əhalinin get-gedə yoxsullaşması üzündən daxili sosial partlayışa gətirib çıxarardı» (Кара-Мурза С.Г. История советского государства и права. М., 1998. http://www.patriotica.ru).



«Sənayeləşmə, kollektivləşmə, yeni ordu yaradılması - bütün bunlar SSRİ-nin böyük modernləşmə proqramının tərkib hissələri idi». Bu modernləşmədə əsas məsələ kəndli təfəkkürü ilə yaşayan insanı müasir sənaye cəmiyyətinin insanına, mürəkkəb istehsalatın və hərbi texnikanın operatoru ola biləcək insana çevirməkdən ibarət idi. Qərb cəmiyyəti bu cür adamları 400 il müddətində və ağlasığmaz qəddarlıqla (məsələn, İngiltərədə yoxsullar və səfillər haqqında qanunlar qəbul edilməsi, oğurluq etmiş uşaqların edam edilməsi yolu ilə) yaratmışdı. Azərbaycanda kəndlilərin təfəkkürünün dəyişməsi prosesi o qədər aşkar gedirdi ki, hətta «cəbhəçilər» də bunu inkar edə bilmədilər.

SSRİ-də kommunizm praktikasını tənqid edənlər etiraf edirdilər ki, sovet iqtisadiyyatının özünəməxsus qanunauyğunluqları vardı: «mərkəzləşdirilmiş planlaşdırma prosesində aşağıdakı əsas prioritetlərə ciddi riayət edilirdi: investisiya mallarının ölkədə istehsal edilmiş malların idxal olunmuş mallardan, maddi istehsalın xidmətlər sahəsindən üstün tutulması,... ağır sənayenin yüngül sənayedən, hərbi sənaye kompleksinin mülki istehsaldan, yeni tikintinin köhnə obyektlərin modernləşdirilməsindən, iri tikililərin xırda tikililərdən üstün tutulması və i.a.».

Sovet İttifaqı Qərbə alternativ modernləşmə proqramını həyata keçirir və bu proqramı əvvəlcə «sosializmin bünövrəsinin yaradılması və qurulması proqramı», sonra isə «inkişaf etmiş sosializm quruculuğu proqramı» adlandırırdı. Müdafiə sənayesi, kosmik sənaye və nüvə sənayesi, fundamental elmlər və təhsil sahələrində qazanılmış nailiyyətlər, yüksək istehlak standartları, sənayeləşmə - biz bütün bunları, xüsusən 70-80-ci illərdə Azərbaycan SSR-də də müşahidə edirdik. Çar Rusiyası kimi, SSRİ də Qərbin meydan oxumasına cavab rejimində fəaliyyət göstərirdi. SSRİ-nin tarixi yolu «qovub çatma» inkişafı ilə öz imkanları əsasında inkişafın kombinə edilməsindən ibarət modernləşmə modeli kimi şərh edilə bilər (bax: Тойнби А. Постижение истории.

M., 1991; c.108-148). Sovet İttifaqı köhnə Rusiyanın pravoslav-islam mental bazisini qoruyub saxladı və Qərblə mübarizə şəraitində özünün məxsusi modernləşmə amillərini - kollektivçilik, qeyri-bazar münasibətləri, sənayeləşmə və sosial emansipasiya sahəsində maarifçi-rasionalist ideologiya amillərini inkişaf etdirdi.

### 4. Azərbaycanın Rusiya imperiyasının tərkibində modernləşməsi

1917-ci ildə Azərbaycanda (ən əvvəl Bakı sənaye rayonunda) modernləşmənin davam etdirilməsi üçün bütün mümkün variantlar vardı - milli-etatist variant (1918-1920-ci illərdə ADR məhz bu variantı seçmişdi), vətəndaş müharibəsinin gedişində Ağ Rusiyanın və Qərbin qalib gələcəyi halda «kənardan qəbul etdirilən inkişaf» modeli çərçivəsində tətbiq edilməsi nəzərdə tutulan liberal-plutokratik variant və nəhayət, 1920-ci il aprelin 28-dən sonra Azərbaycanda geniş yayılmış kommunist variantı.

Məlum olduğu kimi, XIX əsrin əvvəllərində Şimali Azərbaycan Rusiya İmperiyası tərəfindən işğal edilmişdi. Lakin Şimali Azərbaycan təkcə hərbi-siyasi mənada deyil, həm də sosial-iqtisadi mənada «işğal edilmişdi», yəni o, pravoslav-islam dünyası orbitinə cəlb olunmuşdu. Bu prosesin keyfiyyəti və «kəmiyyəti» barədə mühakimə yürütmək üçün iki fikrə istinad edək. Bu fikirlərdən birinin müəllifi rus, digərinin müəllifi almandır. «Rus mədəniyyətinin nisbətən yüksək səviyyədə olması və rus ziyalılarının nəcib keyfiyyətləri Rusiyanın «derjavanı təmsil etməyən» xalqlarının milli şüurunda çox mühüm rol oynamışdır». «1880-ci ildə Rusiyada 11 milyon müsəlman vardı, onların çap edilmiş bütün ədəbiyyatı cəmi 7-8 kitabdan ibarət idi; onların bir mətbəəsi,... 12 nəfər ali təhsilli nümayəndəsi vardı... 1910-cu ildə onların sayı artıq 20 milyon nəfər idi; onların 1000-



dən çox çap edilmiş kitabı, 14 mətbəəsi və 16 dövri nəşri, Rusiyada ali təhsil almış 200 və Qərbi Avropada ali təhsil almış 20 nümayəndəsi, 100 nəfərə yaxın ədəbiyyatçısı vardı... Kitab və qəzet şəklində ədəbiyyatın yayılması müsəlman-tatarlar arasında daha yüksək səviyyədə idi».

M.Ə.Rəsulzadə (1920-ci ildə) yazırdı: «Azərbaycan... ruslar vasitəsilə avropa elminə və texnikasına yiyələnməklə ... yeni inkişaf yoluna qədəm qoymuş, çiçəklənmiş və tərəqqi etmişdir» (M. Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu.// Xəzər. 1990. № 1, s.49).

Dövlətin mövqelərini möhkəmlətmək məqsədilə həyata keçirilən modernləşdirmə siyasəti Azərbaycanın neft sənayesinin inkişafına ciddi təsir göstərirdi «Çarizmin rəğbətləndirici vergi siyasəti nəticəsində neft aksizi ləğv edilmiş, Amerikadan kerosin idxalına yüksək rüsumlar müəyyən edilmiş, neftin və neft məhsullarının daşınması və ixracı problemi həll edilmişdi». Çarın ali sərəncamına əsasən, Bakı neft rayonunda dövlət torpaqlarının favoritlərə paylanması praktikası geniş yayılmışdı. «Neft sənayesi haqqında qaydalar»a (1892-ci il) əsasən, Abşeronun bütün dövlət torpaqları yalnız icarəyə verilə bilərdi. Burada biz, qeyri-bazar davranışının mühüm bir məqamını müşahidə edirik. Bu məqam onda ifadə olunmuşdur ki, icarə haqqı neftin bazar qiymətindən asılı deyildir və açıq hərracdan sonra alınırdı.

Çar hökuməti neft sənayesini ciddi tənzimləyir, bu sahədə əcnəbilərin və yəhudilərin kapitalının iştirakını məhdudlaşdırır, ifrat inhisarlaşmaya mane olur və eyni zamanda, inhisarların yaranmasını rəğbətləndirirdi.1893-cü ildə S.Vittenin təşəbbüsü ilə Amerikanın «Standart oil» şirkəti ilə birlikdə dünya bazarını bölüşdürmək üçün kerosin zavodları sahiblərinin sindikatı yaradılmışdı, lakin Vittenin fikrincə, müvafiq müqavilənin layihəsi dövlət üçün əlverişli deyildi. Vitte Bakıdakı iri korporasiyaları və ən əvvəl Nobellərin korporasiyalarını qətiyyətlə dəstəkləyirdi. 1898-ci

ildə ingilis kapitalı Rusiya dövləti üçün sərfəli şərtlərlə neft sənayesinə buraxıldı.

Müharibə illərində (1914-1917) dövlət sənayenin ən mühüm sahələrinin inkişafını sürətləndirir, özünün birinci dərəcəli böyük dövlət statusunu və siyasi rejimi qoruyub saxlamaq naminə istehsalın təmərküzləşməsi və kapitalın mərkəzləşməsi üçün əlverişli şərait yaradırdı. Dövlət istehlakçıları üçün neft yanacağının bazardankənar tədarük sisteminin (payçılıq yolu ilə toplanmış neftdən ibarət sistemin) yaranması mühüm məqam oldu. «Çox böyük həcmə və dəyərə malik olan xəzinə mülkiyyəti dövlət-kapitalist neft təsərrüfatının yaradılması və inkişafı üçün bünövrə idi» (Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Баку, 1984. с. 34, 39, 30, 178, 177).

Modernləşmənin miqyası barədə təsəvvür yaranması üçün daha bir neçə fakta nəzər salaq. Neftin sənaye üsulu ilə hasilatı başlanandan (1872-ci il) sonra dünyada heç bir şəhər Bakı kimi sürətlə inkişaf etmirdi. 1898-1901-ci illərdə neft hasilatının həcminə görə dünyada birinci yeri tutan Bakı güclü modernləşmə proseslərinin mərkəzində idi. Çox böyük kapitala malik olan adamlar Rusiyanın, demək olar ki, bütün quberniyalarından, eləcə də Qərbi Avropadan Bakıya elə axışırdılar ki, sanki bura «Kaliforniya idi». Çar məmurlarının buraya işə göndərilməsi onlar üçün çox sərfəli idi, çünki burada ağlasığmaz məbləğdə rüşvət almaqla qısa vaxtda varlanmaq olardı. Neftli torpaq sahələrinin yerli sahibkarları az bir vaxtda hədsiz varlanmışdılar, Azərbaycanın uyezdlərindən və Cənubi Azərbaycandan (İrandan) yüz minlərlə kəndli nisbətən yaxşı qazanc dalınca Bakıya üz tuturdu.

Bakı Rusiya imperiyasının beş ən mühüm iqtisadi rayonundan biri olmaqla yanaşı, həm də sosial və milli-azadlıq hərəkatlarının mərkəzinə, çoxmillətli cəmiyyətə çevrilmişdi. Yerli burjuaziya nümayəndələri (H.Z.Tağıyev, M.Nağıyev,



M.Muxtarov, B.Quliyev və başqaları), Peterburq və Moskva burjuaziyasını təmsil edən L.Nobel, E.Nobel, S.M.Şibayev, A. Benkendorf və başqaları, çar məmurları, eləcə də islahatçı müsəlman, liberal və sosialist dünyagörüşlərini təmsil edən texniki və humanitar yönümlü çoxmillətli burjuaziya nümayəndələri Bakıda həm Asiyaya, həm də Avropaya xas elementlərin ecazkar şəkildə birləşməsindən ibarət olan yeni həyat tərzi yaratmışdılar. Beləliklə, modernləşmənin sosial-mədəni təməli tam formalaşmışdı.

«Sosial-mədəni təməl» dedikdə biz nəyi nəzərdə tuturuq? Buraya cəmiyyətin bütün üzvləri üçün eyni olan və bu cəmiyyəti ideoloji baxımdan bütöv bir qurum hesab etməyə imkan verən, tarixi köklərə malik olan sabit mənəvi dəyərlər və normalar daxildir.

Məlum olduğu kimi, islam modernizminin banisi Cəmaləddin Əfqani (1839-1897) olmuşdur. Əhməd bəy Ağayevin təbirincə desək, «istedadına və əzminə görə zamanəmizin ən heyrətamiz insanlarından biri» olmuş C.Əfqani müsəlman ölkələrinin geridə qalmasının səbəblərini açıqlayır və eynilə Avropa proqressizmi ruhunda olan radikal dəyişikliklərin reseptlərini təklif edirdi. Əfqani belə hesab edirdi ki, Quranın həqiqi mənası və onun əxlaqi ayələri azadlığa hörmət ideyaları ilə, azadlığın müasir təcəssüm formaları olan şəxsiyyət azadlığına, mətbuat azadlığına, yığıncaqlar keçirmək azadlığına hörmət ideyaları ilə uzlaşır. Əfqaninin fikrincə, müsəlman ziyalılarının vəzifəsi – avam və nadan kütləleri avropa təfəkkürü ilə, modernləşmənin Avropa standartları ilə tanış etməkdən ibarət idi. Azərbaycanda Əfqaninin Əhməd bəy Ağayev, Əli bəy Hüseynzadə və Məmmədəmin Rəsülzadə kimi layiqli şagirdləri vardı.

Ə.Ağayev Avropanı ideallaşdırmaq fikrindən uzaq idi. O, islam dəyərlərini müdafiə dəstəkləyir və belə hesab edirdi ki, islam dəyərləri doqmatik yozumlardan təmizlənməlidir. İstər Ə.Ağayev, istərsə də Ə.Hüseynzadə və M.Rəsulzadə türkiyəli «ultraproqressistlərə» xas olan «heç

bir hesabat vermədən, əlkimyaçılar mistik formulalara inandıqları kimi, Avropa təsisatlarının gücünə ekzaltasiyalı inam»ı qəbul etmirdilər. Ə.Ağayevin fikrincə, «ultraproqressistlərin» təqsiri ondan ibarətdir ki, onlar müsəlmanların «əsrlər boyu formalaşmış psixoloji və sosioloji xüsusiyyətlərə malik həyat tərzi ilə hesablaşmaq istəmirlər». Ə.Ağayev bu mövqedən çıxış edərək, Avropa adətlərinin şübhəli cəhətlərini, xüsusən adyulteri (ərin arvada və arvadın ərə xəyanət etməsini) və fahişəliyi pisləyir, bu naqisliklərin Avropa həyat tərzində kök salmasını vurğulayır və buna görə də Azərbaycanın «ikinci Avropaya» çevrilməsinə qarşı çıxırdı. Ə.Ağayev və Ə.Hüseynzadə «Həyat» qəzetinin birinci nömrəsində (1905-ci il) Avropa modernizminə aludəçiliyin ideolji hədlərini göstərirdilər: «Türkün fransızlaşdırılması müsəlmanın tərəqqisi deyil, fransızın tərəqqisi deməkdir».

Mahiyyət etibarilə, onlar siyasətin ideoloji resursu olan din uğrunda mübarizə aparırlar. Azərbaycanlıların milli mənafelərini təmin etmək məqsədi güdən bu siyasət müstəqil milli dövlətdə həyata keçirilməli idi. İslam modernizminin daha bir xüsusiyyətini qeyd etməmək olmaz: ərlə arvadın qarşılıqlı məhəbbətinə və hüquq bərabərliyinə əsaslanan ailə, məişətin maariflənmiş və tənzimlənmiş olması dövlətləşdirilmiş milli varlığın əsasları hesab edilir.

M.Rəsulzadə özünün təsis etdiyi «Açıq söz» qəzetinin birinci nömrəsində (2 oktyabr 1915-ci il) «Biz hansı yolu seçirik» adlı proqram məqaləsində yazırdı ki, biz zəmanə adamları olmalı və üç əsas dəyərə sadiq qalmalıyıq. Müsəlman modernizminin əsas şüarına çevrilmiş həmin dəyərlər bunlardır: «türkləşmə, islamlaşma və modernləşmə». Bu sosial-mədəni amillərdən ilk ikisinin – «türkləşmə» və «islamlaşma» amillərinin «modernləşmə» amili ilə birləşdirilməsi onu göstərir ki, modernləşmənin bu modeli avropa modernini korkorana təqlid etmək deyildir.



## 5. Azərbaycan Demokratik Respublikası: etatist tipli islahatlar təcrübəsi

H.Əliyev deyir: «Birinci Dünya Müharibəsinin başa çatması, rus çarizminin süqutu, Oktyabr inqilabı... - bunlar hamısı birlikdə Azərbaycan Demokratik Respublikasının yaradılması üçün əlverişli şərait təmin etmişdi. (...) O dövrdə Azərbaycanda böyük ziyalılar dəstəsi tarix səhnəsinə çıxdı. (...) Onlar öz intellektual potensialları ilə ... XX əsrdə Azərbaycanda baş verən proseslərə xidmət edirdilər...» (Azərbaycan Demokratik Respublikasının 80 illiyinə həsr edilmiş təntənəli iclasda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi.//Возрождение-XXI век. 1998. №5. с.3-4).

Doğrudan da, 1918-1920-ci illərdəki böhranlı vəziyyətin Azərbaycan dövlətçilik təfəkkürü tərəfindən təklif edilmiş ən mühüm mənası, Azərbaycan Demokratik Respublikasında dövlət *quruculuğu praktikası və metodları* – bütün bunlar kənardan əxz edilməmişdi, bu praktika və metodlar bizim özümüzünkü idi. Əlbəttə, ADR-in baniləri – əksəriyyəti hüquqşünas, Rusiya universitetlərinin məzunları olan Ə.M.Topçubaşov, F.Xoyski, M.Rəsulzadə, X.Xasməmmədov və başqaları Avropa mədəniyyətinin klassik matrisinə – humanizm, rasionalizm, idrakın tarixi və obyektiv olması prinsiplərinə əsaslansalar da, bununla yanaşı, onlar öz fikirlərinin milli nizamını qoruyub saxlayırdılar. Azərbaycan dövlət xadimləri görkəmli islahatçı S.Y.Vittenin kiçik müasirləri idilər. S.Y.Vitte deyirdi: «Siyasi iqtisad millət ideyasını çıxış nöqtəsi kimi qəbul etməli və müəyyən millətin... öz iqtisadi vəziyyətini nə yolla qoruyub saxlaya və yaxşılaşdıra biləcəyini öyrətməlidir»

Tarixçi alim L.Məmmədova yazır: «ADR-in yaradılması ... ictimai-siyasi fikrin bütün əvvəlki inkişafının qanunauyğun maddiləşməsi oldu». Bununla yanaşı, müəllif

qeyd edir ki, həmin ziyalılar o dövrün mütərəqqi ideyaları ilə yaşayırdılar.

Modernin Azərbaycan layihəsi 20-30-cu illərdə kamalçı Türkiyədə tam dərinliyi ilə təzahur etməyə macal tapmamış bir hadisə idi, lakin bu layihə Xoyskinin və Usubbəyovun hökumət kabinetlərinin praktikasında əyani şəkildə mövcud idi. Azərbaycan dövlətçiliyi də, özünün sələfi olmuş Rusiya dövlətçiliyi kimi, Qərbi Avropa dövlətçiliyindən aşkar fərqlənirdi, çünki Azərbaycan dövlətçiliyi Azərbaycan xalqının bənzərsiz milli-mədəni xüsusiyyətlərini dərindən əks etdirirdi.

1918-1920-ci illərdə Azərbaycanda milli dövlətçiliyin yaradılması və müvafiq resursların səfərbər edilməsi, intizam, özünüməhdudlaşdırma, vətənpərvər ruh yüksəkliyi və xarizmatik liderə ehtiyac kimi məsələlərin həllini tələb edən modernləşmə 1993-cü ildən başlayaraq Azərbaycan Respublikasının rəhbərliyi tərəfindən həyata keçirilən modernləşməyə çox oxşayır. Əlbəttə, həyat şəraiti və buna müvafiq olaraq, modernləşmənin siyasi metodları da dəyişmişdir: bu gün ölkədə vətəndaş müharibəsi getmir, Azərbaycan Respublikası beynəlxalq təsisatlar səviyyəsində dəstəklənir. Buna görə də Prezidentin «Biz Azərbaycan Demokratik Respublikasının sədaqətli və layiqli varisləriyik» bəyanatının proqram əhəmiyyəti inkaredilməz tarixi həqiqəti ifadə edir.

Bütün yuxarıda deyilənlərlə əlaqədar, İlham Əliyevin bəyanatları çox xarakterikdir: «Biz xarici şirkətlərə deyirdik: siz ayrı-ayrı şirkətlərin mənafelərini müdafiə edirsiniz, biz isə ölkənin və Azərbaycan xalqının mənafelərini müdafiə edirik. Əgər siz səhvə yol versəniz bu, yalnız sizin şirkətin bir layihəsində özünü göstərəcək, lakin əgər biz səhv etsək, bu səhv bütün Azərbaycan xalqının mənafeyinə ziyan vurar... Biz heç bir halda, heç bir səhvə yol verə bilmərik». İlham Əliyev hakimiyyətin – ən mühüm sosial kapital olan xalqın etimadının doğruldulması qeydinə qalan dövlətçilərin hakimiyyətinin – tarixi məsuliyyət səviyyəsini də, mənəvi



prioritetləri də göstərir. Hakimiyyətin özülü – tarixin indiki mərhələsində «yalnız iqtisadi inkişaf, xarici investisiyaların cəlb edilməsi... şəraitində təmin edilə biləcək» real müstəqilliyin möhkəmlədilməsində təcəssüm etmiş modernləşmə proqramının uğurla həyata keçirilməsidir. (Доклад первого вице-президента ГНКАР, депутата Милли Меджлиса Ильхама Алиева//Возрождение-XXI век. 1999. №19. с.10).

## 6. XX yüzilliyin 70-80-ci illərinin «qabaqcıl ənənəvi cəmiyyət»i

90-cı illərdə Prezident H.Əliyev öz nitqlərində bir faktı dəfələrlə etiraf etmişdir ki, 70-80-ci illərdə Azərbaycan böyük uğurlar qazanmışdır. 80-ci illərin ortalarında respublika SSRİ-nin ən dinamik inkişaf edən müttəfiq respublikalarından biri statusu qazanmışdı.

1969-cu ildə Heydər Əliyev hakimiyyətə gələndən sonra respublikada neqativ hallara qarşı fəal mübarizə başlandı. 1969-1985-ci illər, səfərbərlik iqtisadiyyatının imkanlarını əyani nümayiş etdirmiş dəyişikliklərin miqyasına görə, II Respublikanın tarixində misilsiz dövr kimi qalmışdır. Azərbaycanın dövlət suverenliyinin və iqtisadi müstəqilliyinin bazası məhz həmin illərdə yaradılmışdır.

XX əsrin 70-80-ci illərində Azərbaycanda möhkəmlənmiş və qərarlaşmış cəmiyyəti «qabaqcıl ənənəvi cəmiyyət» adlandırmaq olar. Bu cəmiyyətə xas olan əsas cəhətlər mənəvi sahədə nailiyyətləri üzvi və tarixi xarakteri, mənəvi dəyərlərin daxili bütövlüyü və sistemliliyidir. Qabaqcıl ənənəvi cəmiyyətdə siyasi münasibətlərin və hakimiyyət sahəsinin sosial-mədəni amillərdən (adət-ənənələr, mərasimlər, mifoloji strukturlar və i.a.) asılılığı yüksək dərəcədə olur. Azərbaycan cəmiyyəti də bu xarakteristikaya uyğun gəlir, çünki burada sənayeləşmə, mədəni tərəqqi və şəxsiyyətin fərdiliyi kimi dəyərlər qərarlaşmışdır və bütün bunlar kə-

nardan müdaxilə edilmədən, ənənəvi sivilizasiya çərçivəsində baş vermişdir. Bir faktı xüsusi qeyd edək ki, 90-cı illərdə baş vermiş böhranlara baxmayaraq, Azərbaycan öz identikliyi əsasında modernləşməni davam etdirmək üçün zəruri potensialını qoruyub saxlamışdır. Vəziyyətə bu cür nikbin qiymət verməyimiz ona əsaslanır ki, hər bir sivilizasiyanın öz daxili qanunauyğunluqları ilə təyin edilən bənzərsiz dinamikası vardır. Buna görə də sivilizasiyalar bir-birinə qarşılıqlı təsir edərkən bu prinsipi rəhbər tutmaq lazımdır: «Hər bir sivilizasiya öz məxsusi fərdiliyini pozmadan, ona yabançı olan elementləri seçmə yolla qəbul edir» (Ерасов Б. Выступление на круглом столе «Что же дальше?»//Осмысливая мировой капитализм. М., 1997. c.189).



## II Hissə. AZƏRBAYCAN İDENTİKLİYİNİN QORUNUB SAXLANMASI PROBLEMİ

### 1. Seçim Şəxsiyyət üzərində saxlanır: Heydər Əliyev

Heydər Əliyev ona xas olan analitik təfəkkürlə XX əsrin Azərbaycan tarixini dörd mərhələyə bölür: birinci mərhələ – əsrin əvvəlindən Oktyabr inqilabına qədərki dövrü əhatə edir. İkinci mərhələ 1918-1920-ci illəri - Azərbaycan Demokratik Respublikasının mövcud olduğu dövrü, eləcə də formal baxımdan suverenlik əldə etmiş Azərbaycan SSR-in mövcud olduğu 1920-1922-ci illəri əhatə edir. Üçüncü mərhələ Azərbaycan SSR-in federativ dövlətin tərkibində mövcud olduğu dövrdür (1922-1991-ci illər). Nəhayət, 1991-ci ildə başlanmış dördüncü mərhələ. Azərbaycan Prezidentinin İcra Aparatının rəhbəri, Azərbaycan dövlətçiliyinin müasir nəzəriyyəçisi Ramiz Mehdiyev göstərir ki, son iki mərhələ - üçüncü və onun bilavasitə nəticəsi olmuş dördüncü mərhələ birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Çünki Azərbaycanı müstəqil dövlət quruculuğuna gətirib çıxarmış yol, əslində 1969-cu ildən – Heydər Əliyev hakimiyyətə gəldiyi vaxtdan başlamışdır.

Ramiz Mehdiyev milli dövlət yaradılması ideyasının həyata keçirilməsinin aşağıdakı mərhələlərini xüsusi qeyd edir: 1988-1992-ci illər, 1992-1993-cü illər, 1993-1995-ci illər və 1995-2003-cü illər. 1993-1995-ci illəri «Müstəqillik ideyaları və dövlətçilik uğrunda «gərgin, amansız mübarizələr, müstəqillik və dövlətçilik şüurunun qələbəsi» mərhələsi» kimi səciyyələndirən R.Mehdiyev sonrakı – 1995-2003-cü illəri əvvəlki mərhələnin nəticəsi olan «siyasi müasirlik» və «tammiqyaslı hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu mərhələsi» adlandırır (Mehdiyev R. Azərbaycanda müstəqil dövlət quruculuğu təcrübəsi: uğurlar, problemlər və perspektivlər. /Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001. s. 254).

Sözügedən dövrün siyasi qiymәti belədir. Bu dövr təkcə dövlətçilərin hakimiyyətinin möhkəmlənməsi və hüquqi, demokratik dövlətin və vətəndaş cəmiyyətinin qurulması dövrü deyildi... Prezidentin seçdiyi yolun konseptual zənginliyi onun bütün çıxışlarında nəzərə çarpır. Onun hərəkətlərinin məntiqi, xalqın qarşısında ən mühüm mövzularda çıxışlarının xarakteri bu fəaliyyət xəttini «Heydər Əliyev layihəsi» adlandırmağa əsas verir. Millətin rəhbərinin həyat təcrübəsini və «miqyasını» dərindən dərk etməyə qadir olan görkəmli şəxsiyyətlər bu fikri təsdiq edir. «Heydər Əliyev - siyasi cəhətdən əzmkar, məntiqi təfəkkürə malik intellektual şəxsiyyət olub, öz fikrini dinləyiciyə qısa müddətdə çatdırmağı bacarır, bir sözlə, o, şəksiz liderdir» (Z.Bjezinski). «Heydər Əliyev – bizim dövrün yetişdirdiyi unikal dövlət xadimlərindən biridir, Heydər Əliyev özünün mühüm hadisələrlə zəngin olan bütün həyatı boyu daim öz xalqı haqqında, öz Vətəni haqqında düşünmüş, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və öz xalqının səadəti naminə çalışmışdır. Azərbaycandan ötrü ən çətin vaxtlarda Heydər Əliyev Vətəni xilas etmək üçün misilsiz fədakarlıq göstərmişdir. O, ölkəni bir sıra bəlalardan xilas etmiş dövlət başçısıdır» (İ.Doğramacı).

Heydər Əliyev nadir zəkaya və xarakterə malik dövlət xadimidir. Bu keyfiyyətlər praktikadan irəli gəlmiş və onunla şərtlənmişdir, yəni onlar xalis akademik xarakter daşımır. O, əsl dövlət adamıdır və dövlət adamı olmaqla, sözlərində və hərəkətlərində çox konkretdir. Heydər Əliyevin şəxsiyyətində ümumbəşəri dəyərlər Azərbaycan tarixinin son 200 ili ərzində bu millətin görkəmli övladlarının bir neçə nəsli tərəfindən işlənib hazırlanmış Azərbaycan maarifçilik idealları ilə qaynayıb-qarışmışdır.

Biz Heydər Əliyevin tərcümeyi-halını yazmaq niyyətində deyilik, lakin istənilən siyasi araşdırmada dahi şəxsiyyətlərin bioqrafiyası və tarix problemlərinə, eləcə də konkret sosial struktur çərçivəsində bioqrafiyalarla tarixin



kəsişməsi məqamlarına toxunmaq zəruridir. Bioqrafiya, tarix, siyasət və cəmiyyət – modernləşdirmə problemlərinin öyrənilməsində başlanğıc nöqtələrdir.

İndiki halda bizi həqiqi milli dövlətin formalaşma mənbələri, Heydər Əliyevin adı ilə ayrılmaz şəkildə bağlı olan hadisələr maraqlandırır. Milli dövlətçilik konsepsiyasının yaradılmasına, müstəqil Azərbaycanın formalaşmasına və deməli, Azərbaycanın dirçəlişinin nəzəriyyə və praktikasına Heydər Əliyevin töhfələrinin öyrənilməsi – mənəvi əhəmiyyət kəsb edən məsələdir. İlk növbədə Azərbaycan dövlətinin möhkəmlənməsini nəzərdə tutan milli marağın dərin mənasını aydın təsəvvür etsək, bu barədə başqa fikir ola bilməz. Milli dirçəliş ideyaları Heydər Əliyevin əsərlərində və çıxışlarında sistemli şəkildə açıqlanır. Bu ideyalar onun sözləri ilə ifadə edildikdə daha asanlıqla dərk edilir. Azərbaycan mənəviyyatı zəminində kök salmış müasir üzvi, milli dövlətin tarixi 1993-cü ilin iyun ayından başlanır. Məhz həmin vaxtdan etibarən xaos və vesternləşmə proseslərinin entropiyası zəifləməkdədir. «Yalnız 1993-cü ilin yayında Heydər Əliyev hakimiyyətə gələndən sonra vəziyyət yaxşılığa doğru dəyişməyə başladı. Vətəndaş müharibəsinin qarşısı alındı» (İlham Əliyev).

1993-cü ilin yay-payız aylarında Heydər Əliyev özünün bir sıra çıxışlarında Azərbaycan dövlətinin, onun siyasi quruluşunun islahatı ilə bağlı vəzifələrin konturunu cızmışdır. Bu islahatların məzmununu nəzərdən keçirsək, həmin vəzifələri siyasi modernləşmə vəzifələri adlandıra bilərik. Buraya icra hakimiyyəti, qanunverici və məhkəmə hakimiyyəti təsisatlarının fəaliyyətinin intensivləşdirilməsi, əhalinin vətəndaş fəallığının artması, hakimiyyətin demokratikləşməsi, yəni hakimiyyətin müyəssərliyi, açıqlığı və şəffaflığı, dövlətin və cəmiyyətin ümumi vəzifələri barədə mənəvi konsensusun yaranması vəzifələri aiddir.

## 2. Heydər Əliyev: «Böyük» siyasətə qayıtmaq zərurətini həyat diktə edir

1991-1993-cü illərdə mütəllibovçu, sonra isə cəbhəçi-müsavatçı «dövlət xadimləri» özlərinin neqativ nümunəsində şəxsiyyət amilinin əhəmiyyətini nümayiş etdirdilər. İndi biz bilirik ki, müvafiq şəxsiyyət təminatı olmadan keçirilən radikal islahatlar ənənələrin və əmək motivasiyalarının aradan qalxması ilə, istehsalatın bərbad hala düşməsi və işsizliyin artması, həyat səviyyəsinin aşağı düşməsi, cəmiyyətdə insanların əmlak vəziyyətinə görə misli görünməmiş təbəqələşmə yaranmasına və s. mənfi hallara gətirib çıxarır.

Lakin bundan əvvəlki hadisələr ardıcıllığı da real müstəqillik əldə edilməsi baxımından elə bir əhəmiyyət kəsb etmirdi: hər şey mərkəzdə, Moskvada həll edilir, rusiyalı yenidənqurmaçı demokratlar «real sosializm» adlanan totalitarizmə son qoymaq xətti seçmiş partiya aparatının qeyri aşkar dəstəyinə güvənərək, get-gedə zəifləməkdə olan dövlətin taleyini həll edirdilər.

Məlum olduğu kimi, 1982-ci ilin noyabr ayında H. Əliyev Andropovun təşəbbüsü ilə Moskvaya dəvət edildi. O, SSRİ Nazirlər Sovetinin sədri, Brejnev dövrünün herontokratı Tixonovun birinci müavini təyin edildi. H.Əliyev elə bir dövrdə Sov. İKP MK-nın Siyasi Bürosunun üzvu olmuşdu ki, həmin dövrdə bu mühitdə şəxsi münasibətlərə əsaslanan xırdaçılıq siyasəti baş alıb gedir, çox şey «konkret vəziyyətlə» əlaqələndirilirdi. Bununla belə, dövlət piramidasının zirvəsində azərbaycanlının olması, haqlı olaraq, SSRİ xalqları birliyində Azərbaycan xalqının sanballı nailiyyətlərinin rəmzi kimi qəbul edilirdi: Heydər Əliyev SSRİ-də bu cür yüksək dövlət rəhbəri pilləsinə qalxmış yeganə azərbaycanlı idi. H.Əliyev Moskvada olduğu illərdə çox yüksək nüfuz qazanmışdı. Onun adına on minlərlə məktub ünvanlanırdı, sadə insanların onunla hər bir görüşü bu insanlar üçün əlamətdar hadisəyə çevrilirdi. Bu da aydındır: qərarlar qəbul edilərkən şəxsi və korporativ məmur mənafelərinə deyil, dövlətin mənafeyinə və vicdan amilinə əsaslanmaq lazım olmasına adət etmiş insanlar Əliyevin simasında bütöv bir şəxsiyyət, dövlətin mənafelərinə zidd olan xudbinlik hallarına qarşı amansız mövqe tutan bir dövlət xadimi görürdülər.

Heydər Əliyev Sov. İKP MK-nın Siyasi Bürosunda yaranmış mənəvi-psixoloji ab-hava barədə söhbət açarkən, həmin mühitdə işgüzarlığın və onun ayrılmaz tərkib hissəsi olan daha bir keyfiyyətin - insanların bir-birinə münasibətlərində və davranışında səmimiyyətin itirilmiş olmasına dair əyani misallar gətirərək, deyirdi: «Mən – Siyasi Büronun üzvüyəm... Sovet İttifaqına rəhbərlik edən 10-11 nəfərdən biriyəm... Bir dəfə Kremldə, özümün iş kabinetimdə olduğum vaxt qəflətən ürəyim məni narahat etməyə başladı və məni xəstəxanaya apardılar... On gün keçdi, iyirmi gün keçdi, amma iş yoldaşlarımdan heç biri mənimlə maraqlanmadı. Bir ay keçəndən sonra Baş nazir Rıjkov mənim yanıma gəldi... Baş katib Qorbaçov isə bircə dəfə də olsun, telefonla zəng etmədi...» – «...Sovet İttifaqına rəhbərlik edən insanlar bir-birinə bu dərəcədə laqeyd idilər».

Şəxsiyyətinin miqyasına görə, dövlətçilik zəkası və əzmkarlıq baxımından, O.Bismarkla müqayisə edilə biləcək H. Əliyevin Siyasi Bürodan kənarlaşdırılması onun «Literaturnaya qazeta»ya verdiyi, əlamətdar «Qoy ədalət zəfər çalsın» sərlövhəli müsahibəsini xatırlayan və qiymətləndirən bütün insanlardan ötrü əsl faciə oldu. M.Qorbaçovun nüfuzlu agenti A.Yakovlevin qurması əsasında H.Əliyevin dövlət vəzifəsindən kənarlaşdırılmasını bu gün biz Qorbaçovun həqiqi dövlət xadimlərinə – Romanov, Qrişin, Ustinov, Qromıko və başqaları kimi, ona mane olan və ya mane ola biləcək insanlara divan tutması kimi qiymətləndirə bilərik. 1994-cü ildə «Rossiyskaya qazeta»ya müsahibəsində «1987-ci ildə SSRİ rəhbərliyi ilə, o cümlədən Qorbaçovla ciddi ixtilaflar ucbatından Siyasi Büronun tərkibindən çı-

xandan» ta 1990-cı ilə qədər siyasi fəaliyyətlə məşğul olmadığını qeyd edən Heydər Əliyev o dövrü xatırlayaraq deyir: «Moskvada məndən ötrü dözülməz şərait yaradılmışdı: əslində mən cəmiyyətdən təcrid edilmişdim, ciddi nəzarət altında, ev dustağı kimi saxlanırdım...» O, Qorbaçovun kursunu mənasız, düşünülməmiş, əsassız və «anlaşılmaz» bir kurs kimi xarakterizə edirdi. Ölkəni məhvə doğru aparan proseslərin miqyasını və istiqamətini düzgün qiymətləndirən uzaqgörən insanlar sayca çox deyildi və bu uzaqgörən insanlardan biri məhz Heydər Əliyev idi.

1990-cı il yanvarın 21-də Heydər Əliyev Azərbaycan SSR-in Moskvadakı daimi nümayəndəliyində bəyanat verərək Bakıda baş vermiş faciənin səbəblərini göstərmişdi: DQMV-də bu hadsələri qabaqlaya biləcək «zəruri tədbirlər görülməmişdi». H.Əliyev bu faciənin əsas təqsirkarını da göstərmişdi. Bu təqsirkar – taleyi şəxsiyyətindən daha geniş miqyaslı olan Ə.Vəzirov deyildi, təqsirkar - xalq arasında «xallı Mikayıl» deyilən M.Qorbaçov idi. Sonradan Heydər Əliyev cəbhəçilərlə polemika zamanı deyəcək: «Meydanda toplaşan adamların əksəriyyəti oraya yalnız və yalnız Qarabağ məsələsinin ədalətli həllinə nail olmaq üçün gəlirdi. Buna görə də bu, ümumxalq hərəkatı idi». H.Əliyev xalqın siyasi potensialını, mübarizə, sabitlik, hakimiyyət, güclü dövlət və liderlik anlayışlarının xalqın təsəvvüründəki mənasını hamıdan yaxşı qiymətləndirirdi. Ümumxalq hərəkatının ideoloji məzmunu ayrıca bir söhbətin mövzusudur. Fövqəlmilli ideologiyalar sürətlə puç olanda ideoloji vakuumun yaranması labüddür. Bircə anda «əhaliyə» çevrilmiş xalq kütlələrinin birgə yaşaması və hər biri ayrıca istehkamı xatırladan minlərlə şəhər və kəndlərə dağılışmaması üçün milli ideologiya əsasında bu birgəyaşayışı əsaslandırmaq və möhkəmlətmək üçün həmin vakuumu dərhal və hər yerdə vulqar millətçilik ideologiyası ilə doldurmağa çalışırlar. Millətçiliyin yaranması üçün iki amil lazımdır: ideoloji vakuum və milli ideyanın daşıyıcısı olan sosial təbəqə.



Azərbaycanda bu rolu ziyalılar yerinə yetirirdi: idarəçilərin (keçmiş partiya və sovet işçilərinin) şəxsində dövlət ziyalıları və siyasi fəaliyyət təcrübəsinə malik olmayan yaradıcı ziyalılar. H.Əliyev millətçiliyin mahiyyətini aydınlaşdırdı, öz əməli fəaliyyəti ilə bu terminə siyasi məna verdi: millətçilik – milli ideyanın qorunması üzərində cəmləşmiş ideya və hisslərin bir-biri ilə nisbi ədaqəli sistemidir. O, Elçibəyə xas olan şovinist etnokratizmi rədd etdi, millətçi separatizmi darmadağın etdi və bununla da milli azlıqların dövlətə zidd hərəkətlərinin qarşısını aldı.

H.Əliyevin yenidən böyük siyasətə qoşulması zaman etibarilə 1990-cı ilin payızına təsadüf edir. Həmin dövrdə o, xalqın iradəsi ilə hesablaşaraq Naxçıvan MSSR-in Ali Sovetinə daxil oldu. Bizim fikrimizcə bu, düşünülmüş addım idi. Xalqın çağırışlarına məhəl qoymadan hakimiyyət sükanına qayıtmaq istəməmiş Roma imperatoru Diokletianın düşdüyü mənəvi vəziyyəti Heydər Əliyevə tətbiq etməyi təsəvvürə gətirmək mümkün deyil. Siyasət – riskli fəaliyyət növüdür. İnsanlar öz talelərini, millətin, dövlətin taleyini siyasətlə həll edir, özlərinin cəmiyyətdəki statusunu siyasət yolu ilə dəyişirlər. Mahir idarəetmə işçisi olan Heydər Əliyev də siyasəti insanın imkanlarının təşkil edilməsi uğrunda mübarizə kimi başa düşür. Onun parlaq dövlət fəaliyyəti onun motivlərini bu cür izah etməyə əsas verir. Biz cəsarətlə belə bir fərziyyə söyləyə bilərik ki, hələ o vaxt – 1990-cı ildə diletantlıq edərək «hakimiyyəti oğurlayanlara» onun münasibəti müəyyən mənada Bismarkın aşağıdakı fikirləri ilə səsləşir: «sükanı tamahkar, «novarum rerum cupidi»lərin (yeniliklərə can atanların) və düşüncəsiz kütləlləri aldatmaq qabiliyyətinə ən yüksək səviyyədə yiyələnmiş natiqlərin əlində olan dövlət həmişə çox sürətlə (burada: fəlakətli şəkildə. - müəllifin qeydi) inkişafa məhkum olacaqdır. Bu isə dövlət kimi böyük bir qurumun bütün orqanizminə ciddi ziyan vurmaya bilməz» (Бисмарк О. Мысли и воспоминания. В трех томах. Т.II. М., 1940, с.56).

Dövlət adamı, vətənpərvər, etatist, sözün geniş mənasında xalqçı öz şəxsi inciklikləriini dövlətin mənayefindən və mənəvi borc hissindən uca tuta bilməz. Buna görə də Heydər Əliyevin siyasətə – «böyük siyasətə» qayıtması tamamilə qanunauyğundur. Burada biz «böyük» və «kiçik» siyasət arasında fərq qoymalıyıq. Kiçik siyasət – status quo-nun bərpa edilməsi siyasətidir. Kiçik siyasət – cari siyasətdir. O, cəmiyyətin təşkilinin mövcud siyasi formatına yerləşir, halbuki, böyük siyasət – transformasiya tipli siyasətdir.

H.Əliyev mövcud qaydaları bərpa etmək siyasəti sahəsində çox böyük təcrübəyə malik idi. Bu yerdə bir qeyd-şərt etməliyik: onun əvvəlki fəaliyyəti heç də gerçəkliyin xalis təkrar istehsalı deyildi. O vaxtdan neçə illər keçəndən sonra biz başa düşmüşük ki, 1969-cu il iyulun 14-də Azərbaycan tarixində yeni era başlanmışdır: Heydər Əliyevin Azərbaycana rəhbər seçilməsi siyasi rəhbərlərin dəyişdirilməsi kimi adi prosedurun hüdudlarından kənara çıxırdı. Bu hadisə ölkəmizin müasir tarixində yeni, hadisələrlə çox zəngin bir eranın başlanğıcı oldu. Məhz həmin gündən etibarən Azərbaycanlıların tarixi həyatının (yəni milli ruh sahəsində zəfərlərlə dolu həyatın) təşkilati və mənəvi əsasları yaradılmağa başlandı. Bu həyatın tərkib hissələri plan-direktiv iqtisadiyyat koordinatlarında sürətli inkişafın həyata keçirilməsi, milli özünü ifadənin bütün formalarının stimullaşdırılması, milli mənlik şüurunun güclənməsi. Sosial- iqtisadi inkişafa verilmiş yeni təkan, bəlkə də Azərbaycan cəmiyyətinin milli mənlik şüurunun dirçəldilməsi, milli köklərə qayıdış istiqamətində Azərbaycan cəmiyyətinin təkamülünü kölgədə qoyurdu. Lakin məhz buna görə həmin prosesin nəticəsi – mənəvi müstəqillik əldə edilməsi daha da qanunauyğundur.

H.Əliyev öz həyatının bu yeni mərhələsində böyük siyasət «yaratmağa» başladı. Bu siyasət elə «imkanlar pəncərəsi» yaradır ki, böyük şəxsiyyətlər tərəfindən idarə edilən insanlar yeni təsisatların təməlini qoymağa, ictimai həyatın yeni təşkilinin prosedur və normativ əsaslarını yaratmağa qadir olur. O vaxt çox cüzi sayda adam başa düşürdü ki, hakimiyyətin təşkili məsələsində xalqın iradəsini ifadə etməyin yeni tipini həyata keçirmək missiyası məhz Heydər Əliyevin üzərinə düşmüşdür. Hegelin təbirincə desək, mənəvi pozğunluq və ehtirasların kor-koranə qızışması şəraitində nicat tapmağın zəruri yolunu seçmək lazım idi. Axı «mütəllibovçularla» cəbhəçilər arasında qarşıdurma şəraitində hakimiyyətin oğurlanması və hakimiyyət məkanının parçalanması Azərbaycanın bir dövlət qurumu və ölkə kimi məhvinə gətirib çıxara bilərdi.

1990-1991-ci illərdə dövrün ən ümdə məsələləri ilə bağlı Heydər Əliyevin proqram xarakterli çıxışları respublikada milyonlarla insanın qəlbində çox güclü ümid hissi doğurmuşdu. Deputat Heydər Əliyevin hər bir çıxışı milyonlarla soydaşımızın qəlbində əks səda doğururdu. Halbuki, ölkənin o vaxtkı rəhbərləri – Mütəllibov və onun ətrafındakı insanlar barədə bunu demək heç cür mümkün deyildir. Onlar öz gələcəkləri üçün narahat olur və əsəbiləşirdilər. H.Əliyev 1990-cı ilin aprel ayında Respublika Ali Sovetinin sessiyasındakı çıxışında açıq demişdi: «Həqiqəti isə desək yeni İttifaq müqaviləsinin layihəsi əvvəlkindən də yararsızdır. Yeni bir ittifaqa girməyi Azərbaycan xalqı üçün rəva bilmirəm. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. Azərbaycan xalqı artıq bu yola çıxmışdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır» (Deputat Heydər Əliyevin sessiyada çıxışı. //Səs. 1990. №8. s. 5). SSRİ-nin qorunub saxlanması məqsədilə təşkil edilmiş referendumu Naxçıvan Muxtar Respublikasında boykot etmişdilər, Azərbaycan Demokratik Respublikasının üçrəngli bayrağı ilk dəfə burada dövlət bayrağı kimi qəbul edilmişdi. Keçmiş SSRİ-nin bütün hərbi birləşmələri Naxçıvan ərazisindən çıxarılmışdı.

Müxtar Respublikanın məclisi 1990-cı il 20 yanvar hadisələrinə siyasi qiymət vermişdi.

### 3. Simasız dövlət, lidersiz millət

1992-ci ilin aprel ayında dövləti idarə edənlərin düşərgəsində yaranmış hərc-mərclik hamıya aydın olanda R.Mehdiyev bildirdi ki, Heydər Əliyev milləti öz arxasınca apara biləcək insandır – «o, heç şübhəsiz qeyri-adi şəxsiyyət lider keyfiyyətlərinə malik olan böyük dövlət xadimidir» (Прошлое в контексте будущего. Интервью Р.Мехтиева газете «Бакинский рабочий» //Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001. s. 145).1992-ci ilin iyun ayında mütəllibov ölkəni tərk edəndən sonra Mehdiyev uzaqgörənliklə demişdi: «Əhalinin demokratik təbəqələri tərəfindən dəstəklənən güclü prezident öz nüfuzuna arxalanaraq cəmiyyətin demokratikləşməsi prosesini, iqtisadi və sosial islahatlar aparılmasını sürətləndirər, partiyaların və siyasi hərəkatların qurucu fəaliyyəti üçün şərait yaradar. Bütün bunlar, əlbəttə, Azərbaycanın həyati mənafelərinə cavab verər, onun Avropa demokratik sivilizasiyasının standartlarına yaxınlaşmasına imkan verərdi» (Yenə orada, s. 157).

1992-ci ilin mart ayında Azərbaycanın dövlət maşını ilk ibrətamiz böhran keçirdi: cəbhəçilər və onlara qoşulmuş əqidəsiz adamlar bu maşina (dövlət maşınına – *müəllifin qeydi*) hücum etdilər. Azərbaycanda dövlət xidmətinin tənəzzül vəziyyətində olması göz qabağında idi. Cəbhəçilər və müsavatçılar təzyiqi get-gedə artırırdılar. Onlar faktiki olaraq cəmiyyətdə yaranmış milli və vətənpərvərlik cəhdlərini qatı millətçiliklə eyni anlayış kimi qələmə verərək inhisarçılıq edirdilər.

1992-ci il martın 3-də cəbhəçi R.Qazıyevin təklifi ilə Ali Sovetin fövqəladə sessiyasını çağırmaq barədə qərar qəbul ediləndə uzaqgörən müşahidəçilər başa düşdülər ki, əməlli başlı zəifləmiş prezident hakimiyyəti üzərinə hücum başlanır. Martın 5-də deputatlar «prezident istefa verməlidir!» deyə qışqıran kütlə tərəfindən mühasirəyə alınmış binada işə başladılar. Ali Sovetin sədri E.Qafarova istefa verir. Mütəllibov söyləyir: «Bu qısa müddətdə döyüş qabiliyyətli ordu yaratmaq və milli sərhədləri möhkəmlətmək çox çətin idi. Lakin belə bir iş aparılır. Bu gün ölkənin rəhbərliyi və respublikanın hərbi komandanlığı üçün sərhədləri möhkəmlətməkdən və Azərbaycanın ərazi toxunlmazlığını təmin etməkdən daha mühüm bir vəzifə yoxdur». Lakin dövlət çevrilişi maşını işə düşmüşdür. Tələb irəli sürülür: Azərbaycanda vətəndaş müharibəsi başlanmasının qarşısını yalnız «Rusiyanın süngüləri gücünə» hakimiyyətə gəlmiş respublika rəhbərinin istefa verməsi yolu ilə almaq olar. Cəbhəçilər onlardan ötrü görünməmiş bir hal olan səliqəliliklə bu tələbin ruhunu dəstəkləyirlər. Özünün qeyri-adi çıxışları ilə tanınmış «sosial-demokrat» A.Əlizadə ölkədə fövqəladə vəziyyət elan etməyi və koalisiyalı hökumət yaratmağı təklif edir. Sonra E.Məmmədov ayağa qalxaraq əvvəlcədən hazırlanmış qərar layihəsini oxuyur. Prezident Azərbaycan Respublikasının Konstitusiyasının bir sıra maddələrini pozmaqda günahlandırılır. Respublika Müdafiə Nazirinin birinci muavini Ş.Musayev istefaya göndərilməsini xahiş edərək iclas zalını tərk edir: normal işləməyə imkan yoxdu. Deputat E.Məmmədov daha bir şaşırdıcı xəbər verir: guya ordu hissələri ali sovetin binasına yaxınlaşır. A.Məmmədov da öz deputat mandatını təhvil verir. Bu ərəfədə respublika ali sovetinin sədri vəzifəsinə seçilmiş Y.Məmmədov şifahi bəyanatla istefa verdiyini bildirir: belə vəziyyətdə o, parlamentə başçılıq edə bilməz.

Bütün bu müddətdə parlamentin divarları arxasında mitinq davam edirdi. Mitinq iştirakçılarının bir tələb var – prezident istefa verməlidir. İctimai asayişi təmin etməli olan şəhər milisi nümayişkaranə şəkildə özünü bir kənara çəkmiş, azğınlaşmış kütlə martın 5-də axşamçağı parlament

binasını tərk etməyə çalışan deputatları təhqir etməyə başlamışdır. Kütlə onları təhqir edirdi, deputatların bir neçəsinə bədən xəsarəti yetirilmişdir. Mitinq iştirakçıları arasında silahlı adamlar da vardı. Onlardan bəziləri maşınlarda oturub gözləyirdilər ki, əgər milis insanları meydandan dağıtmağa başlasa atəş açsınlar.

Martın 6-da günün ikinci yarısında sessiya öz işini davam etdirdi. Axşam saat 6-da Mütəllibov parlamentin deputatları qarşısında çıxış edərək, istefa verməsini bildirdi. Onun dediyinə görə bu qərarı «baş verə biləcək provokasiyaların və qan tökülməsinin qarşısını almaq naminə çox düşündükdən sonra» qəbul etmişdi (Бакинский рабочий. 1992, 7 марта). Bu, AXC və onun törəmə qrupları tərəfindən təşkil edilmiş əsl çevriliş idi. Ali Sovetin A.Mütəllibovdan istefa haqqında şifahi ərizəni qəbul etməyə hüququ yox idi (yazılı formada ərizəni o verməmişdir). Konstitusiyaya görə prezidentə etimad məsələsi referenduma çıxarılmalı idi. Ali Sovet kifayət qədər dəlil və sübutu olmadan istefa haqqında qərar çıxara bilməzdi. Bununla belə prezidentin istefa barədə xahişi Ali Sovetdə mütləq səs çoxluğu ilə qəbul edildi. Qalib gələnlər dərhal bəyan etdilər ki, «Prezidentin istefa verməsi heç də konstitusiyaya zidd çevriliş deyil, hadisələrin millət üçün təhlükəli məcrada inkişaf etməsinin qarşısını almaq kimi obyektiv zərurətdən irəli gəlir. Demokratiya – qanunsuzluq deyil. Azadlıq – dövlət tərəfindən qəbul edilmiş konkret öhdəliklər çərçivəsində müstəqillikdir» (Бакинский рабочий. 1992, 10 марта). Bu həyasız, psevdodemokratik və ritual xatirinə söylənən sözlər idi: sən demə, prezidentin istefa verməsi çevriliş deyil, müəyyən hadisələrin «qarşısını almaq üçün obyektiv zərurət» imiş.

1992-ci ilin 5-6 mart çevrilişi Robespyerin belə bir fikrinin düzgünlüyünü bir daha nümayiş etdirdi ki, inqilabın konstitusiyası - yalnız sosial qüvvələrin nisbətidir. Mayın 14-də mütəllibovçular hakimiyyətə qayıtmağa cəhd göstərdilər və çox qəribə vəziyyət yarandı! Ali Sovetin sessiyasında 241 nəfər deputat Xocalı faciəsini təhqiq edən deputat istintaq komissiyasının məruzəsini səbrlə dinləyir və məruzənin sonunda bildirilir ki, bu faciədə keçmiş prezident A.Mütəllibov «qismən günahkar»dır. Əsas nəticə belədir: xəyanət ediliməmişdir, «səhlənkarlıq» edilmiş, «düşünülməmiş və anlaşılmaz kadr siyasəti» yeridilmişdir. Bundan sonra çıxış edən deputatların bir neçəsi Mütəllibovu müdafiə edir. Onların ümumi qənaəti belədir: martın 6-da prezidentin istefa verməsi «təzyiq altında» və «kifayət qədər əsas olmadan» baş vermişdir (Бакинский рабочий. 1992, 15 мая). 230 deputat martın 6-da qəbul edilmiş qərarın ləğv edilməsi lehinə səs verir. A.Mütəllibov öz çılğın nitqində deputatları bütün qüvvələri cəmləşdirməyə və bundan ötrü «bütün ictimai-siyasi hərəkatların fəaliyyətini dayandırmağa» çağırır: «siyasi və iqtisadi islahatlar həyata keçirməyə, qanunun aliliyinin hökm sürəcəyi demokratik dövlət qurmağa çalışmaq lazımdır» (Вышка. 1992, 17 мая). Lakin mayın 15-də saat 00-dan etibarən Bakıda fövqəladə vəziyyətin elan edilməsi barədə fərman kağız üzərində qaldı... Elə həmin gün axşam Mütəllibov Bakını tərk etdi. Mayın 16-da Ali Sovetin yaraqlılar tərəfindən zəbt edilmiş binasında Milli Şuranın iclası başlandı.

Mütəllibovun məğlub olması əslində Azərbaycan dövlətçiliyinin ziyanına fəaliyyət göstərən kütlə siyasətbazlarının əlində aciz qalmış, laxlamış, gedonist idarəetmə elitasının təslim olması idi. Mütəllibov administrasiyası başa düşmədi ki, dövlət maşınının gücü (əmrlərin yerinə yetirilməsinə nəzarət etmək qabiliyyəti baxımından) siyasətdən, proqramlardan və ya kadrlardan daha çox həmin dövlətin cəlb edildiyi ictimai proseslərlə bağlıdır. Onlar «hər bir evə daxil olmaq» (azərbaycanlıların ciddi, lakin ədalətli və həqiqi hakimiyyət barədə təsəvvürlərinə cavab verən layihələri «zorla» reallaşdırmaq zərurətindən daha çox özlərinin problemləri və piar aksiyalar barədə düşünürdülər. Böhranlı

vaxtlarda insanlar həmişə elə hesab edirlər ki, onların yoxsul və işsiz olması söz və yığıncaq azadlığının olmaması ilə müqayisədə daha fundamental və daha mühüm əsarət növləridir.

### 4. «Hökumət problemləri həll etmir»

Prezident Mütəllibov hakimiyyətdən devriləndən sonra bizim sosial gerçəkliyimizin bəlkə də hər bir mərhələsi tarixi yekun kimi qavranmağa başlamışdır. Cəmiyyət bu dövrü hər bir ev, hər bir ailə üçün təhlükəli bir mərhələ kimi, dövlətçilik hissinin və fədakarlığın tükəndiyi dövr hesab edir. Ölkə anarxiya dövrünə qədəm qoyurdu. Zəruri həyat şəraitinin dövlət tərəfindən təmin edildiyi vaxtları unutmaq olardı. Adamlara elə gəlirdi ki, bu mübarizədə qalib gələnlər onlara başqa həyat vəd edir – axı cəbhəçi-müsavatçılar özlərini tərəqqi (yəni modernləşmə) tərfdarları kimi qələmə verirdilər.

İyunun 7-də seçki keçirildi və elan edildi ki, Əbülfəz Elçibəy prezident seçilmişdir. Legitim seçki prosedurları üçün ən ləyaqətli namizəd olan Heydər Əliyevi xalq formal baxımdan seçə bilməzdi. Çünki Ali Sovetin deputatları hüquqi «şlaqbaum» - 65 yaşlıq senz müəyyən etmişdilər. Seçki məntəqələrinə gəlmiş 76,0 % seçicidən 59,4 %-i Elçibəyə səs vermişdi. Əlbəttə bunu zəfər adlandırmaq olmazdı və cəbhəçilər həssaslıq göstərərək bunu başa düşdülər. Onlar birdən dərk etdilər ki, siyasətdə qısa müddətdə çox şey dəyişir, hakimiyyətin şirinliyi məğlubiyyətin acısı ilə əvəz edilir. AXC-nin bir il davam etmiş hakimiyyəti dövründə ən çox dəbdə olan hal – özlərinin bu hakimiyyətdə müvəqqəti olmalarını dərk etmək psixologiyası idi.

Lakin ən maraqlısı – səs qazanmaq üçün sanki sərgiyə qoyulmuş proqramlar idi. Hərçənd siyasi bazar əxlaqının bərqərar olmasını göstərən məqamlar hələ dəqiq nəzərə çarpmırdı. Özlərini cəbhəçilər kimi qələmə verən partiyalar Azərbaycanın inkişaf modellərində qərbləşmə variantlarına üstünlük verirdilər. Bu partiyaların hamısı müasir demokratiya formalarının və azad bazar prinsiplərinin bərqərar olunmasını tələb edirdilər; onların hamısı varlı və yaxşı təhsil görmüş orta sinif və onlardan daha varlı sinif yaradacaqlarını vəd edirdilər. Onlar respublikanın siyasi sistemində milyonerlərin də, orta sinfin də üstün mövqe tutacağını vəd edirdilər. Hərçənd bəziləri qərbdə «insanların üçdə iki hissəsinin cəmiyyəti» deyilən qaydanın nədən ibarət olmasını başa düşürdü, onlar bilirdi ki, bu dəyişikliklər ölkədə dəhşətli qütbləşməyə və qeyri-bərabərliyin dərinləşməsinə gətirib çıxaracaq. Cəbhəçi partiyalar xaricdən kapital, texnologiya, əmtəə və peşə bilikləri idxal etməyi və maddi nemətlərin istehlakı sahəsində tədricən qərb modelinə keçməyi təklif edirdilər.

Bu cür seçkiqabağı bəyanatlar gəlişigözəl ideoloji uydurmalar və siyasi moda həvəskarları tərəfindən ciddi qəbul edilmək üçün həddən artıq açıq idi. Gələcəkdə gözlənilən obyektiv nəticələr məsələsinə gəldikdə isə cəbhəçi partiyaların «beynəlmiləl kapitalizmi» Azərbaycanı qərbləşdirilmiş cəmiyyətə və ... müstəmləkəyə çevirərdi. Axı Elçibəy elan etmişdir ki, suverenlik prinsipi Azərbaycan ərazisində «dövlətlərarası sazişlər əsasında» xarici dövlətlərin qoşunlarının yerləşdirilməsini inkar etmir. Elçibəyin platformasının iqtisadi blokunda xalq təsərrüfatının milliləşdirilməsinin ləğv edilməsi, dövlət mülkiyyətinin demokratik yolla özəlləşdirilməsi barəd müddəalar vardır. Başqa sözlə desək ölkə iqtisadiyyatı və ilk növbədə Azərbaycanın ən böyük sərvəti olan neft «Ceneral Motors» üçün yaxşı olan şey Amerika üçün də yaxşıdır» qaydasını təbliğ edən və üçüncü dünya ölkələrindən 12 şərtinin qabaqcadan yerinə yetirilməsini tələb edən trans milli korporasiyaların nəzarətinə keçəcəkdir. 1992-ci il iyunun 16-da Elçibəy prezident vəzifəsində işə başlayarkən çox liberal, doqmatik bir fikir söyləmişdi: «hökumət problemləri həll etmir, o, vətəndaşların

həmin problemləri öz qüvvələri ilə həll etməsi üçün optimal şərait yaradır». Bu bəyanat, daim xalqın rifahı qeydinə qalan dövlət hakimiyyəti ənənələri olan bir ölkədə səslənirdi.

Cəbhəçilərin prezidenti bütün xalqlar üçün tətbiq oluna biləcəyi elan edilmiş, özlərinin də başı çıxmadan əxz etdikləri prinsiplər əsasında Dövlət və Cəmiyyət qurmaq barədə doqmatik fikirlərə inanırdı. Lakin bu hələ harasıdır? Sonrakı hadisələr göstərdi ki, cəhbəçi-müsavatçılar siyasi uydurmaçılıqda və peşəkar utanmazlıqda lap ifrata varıblar.

Elmi dünyagörüşü ilə bağlı bir faktı qeyd edək: dövlət xalqın birliyə və həmrəyliyə can atmasından yaranmışdır, dövlət hakimiyyəti isə dövlətdən asılılığın dərk edilməsi ilə şərtlənən qüvvədir (Коркунов Н.М. Русское государственное право. Т.1. Изд. 6-е. СПб., 1908. с. 24). Cəbhəçilərin dövləti isə eybəcər bir qurum imiş: hakimiyyətdə olduqları bir il ərzində onlar özlərinin «partiyaları», kassaları və yaraqlıları ilə dövlətin bir dəstə siyasətbazlar əlində parçalanmasına səbəb oldular. Bu proses o qədər sürətlə gedirdi ki, Elçibəyin kreslosu altında bircə ovuc torpaq qalmışdı. Dövlətin mənəvi-siyasi qüvvəsi fəlakətli şəkildə tükənirdi. Belə dövlətdən asılı olmağı xeyirli hesab edənlər az idi.

Nə qədər təəccüblü də olsa, yalnız faktdır: dövlət adamı olmayan, dövlətçilikdən bixəbər olan Ə.Elçibəy öz həyat təcrübəsindən dərs almamış və öz taleyinin «miqyasını» başa düşməmişdi. O, yalnız çox danışmağı xoşlayan istedadlı natiq idi. Öz çıxışlarında dövlət işlərinin vəziyyəti barədə söhbət açmaqdansa ele hey təəssüfləndiyini bildirirdi ki, Azərbaycanda türk dilinin incəliklərini dərindən bilən adam qalmayıb. Bununla əlaqədar, Robert Takerin məşhur bir kəlamını bir qədər dəyişdirərək deyə bilərik ki, Azərbaycanda siyasi birliyin liderliyinin strukturu güclü prezident hakimiyyətidir. Lakin bu həqiqət yalnız o halda «işləyir» ki, ölkədə plebisitar lider olsun – «seçkilərin döyüş meydanında diktator» olsun (M.Veber). Bu gün biz xoşbəxtik ki, Heydər Əliyevin parlaq hakimiyyət təcrübəsinin şahidi olmuşuq. Elçibəydə dövlətçilik təfəkkürü lazımi səviyyədə deyildi. Məlum oldu ki, cəbhəçilər düşərgəsinin irili-xırdalı rəhbərlərinin əksəriyyəti bu keyfiyyətdən məhrumdur.



Bununla belə, etiraf etməliyik ki, cəbhəçi-müsavatçılar öz kadr siyasətləri sayəsində müəyyən uğurlar qazandılar: onların sayəsində xalq anladı ki, ölkənin ümummilli, ümumdövlət səviyyəsində düşünən məsuliyyətli və namuslu rəhbərə, ümummilli liderə ehtiyac var. Pul hərisi, vəzifə hərisi olan bu adamlar əvəzedilməz dövlət məmuru ilə siyasətçi arasında fərqi hiss etmədilər, hərçənd, addımbaşı andaman edirdilər ki, guya onlar Avropa dəyərlərinə, Avropa prinsiplərinə sadiqdirlər. Onlar müəssisələrin idarə aparatlarını bacarıqlı kadrlardan təmizlədilər və beləliklə dövlət qulluğu sahəsində fəlakətli vəziyyət yarandı.

Amma hər halda, cəbhəçi rejimin ən böyük qüsuru-konseptual qüsur idi. Onların yalançı novator, özlərinin bixəbər olduqları dəyərləri mənimsəmək kursu «materialın» müqavimətini artırır və nəticə etibari ilə hökumət məhdud məsuliyyətli hökumətə, ölkə – məhdud məsuliyyətli ölkəyə çevrilirdi.

## 5. Xalqın legitim etimad prosedurundan keçmiş lider. Xarizmatik dövlət xadimi

*Əgər mən xalqıma lazım olsam,*
*onun iradəsini yerinə yetirəcəyəm.*

*Heydər Əliyevin «Комсомольская правда»*
*qəzetinə müsahibəsindən.*
*1992, 17 aprel.*

Sosioloqlar P.Berger və T.Lukman yazırlar ki, sosial qayda bəşəriyyətin əvvəlki fəaliyyətinin məhsuludur və bu qayda yalnız o vaxtadək mövcud olur ki, insanların fəa-

liyyəti həmin qaydanı doğurmaqda davam etsin. Cəbhəçilərin yaratdığı sosial qayda əslində sosial nizamsızlıqla – qiyamlar və eksseslərlə dolu idi. Bu qiyamların ən böyüyü cəbhəçilərin hakimiyyəti üçün fəlakətlə nəticələndi. S.Hüseynovun qiyamı III Respublikanın tarixində yeni dönüş məqamı oldu. Cəmi yarım ay ərzində mövcud rejiminin daxili çürüklüyü, püçlüğü üzə çıxdı. Cəbhəçilərin isteblişmentini bürümüş vahimə siyasi, iqtisadi və mənəvi- əxlaqi münasibətlərin hədsiz dərəcədə dolaşıq olmasının üzvi təzahürü idi.

Məhz belə bir vaxtda ictimaiyyət Heydər Əliyevə müraciət etdi. Ə.Elçibəy sonradan deyəcək: «Biz elə bilirdik ki, Əliyev bizə kömək edəcək, o isə gəlib hakimiyyəti öz əlinə keçirdi». (Неделя. 1999, 14 июня). Bu bəyanatın «sadəlövlüyü» insanı heyrətə gətirir. İyunun 9-a keçən gecə Bakıya gəlmiş H.Əliyev iyunun 13-də Milli Məclisə daxil oldu. O deyirdi ki, «Azərbaycan Prezidentinin və respublika əhalisinin müxtəlif təbəqələrinin nümayəndələrinin xahişi ilə böhranlı vəziyyətdən çıxış yollarını axtarmaq üçün vicdanının hökmü ilə Bakıya gəlmişdir» (Бакинский рабочий. 1993, 14 июня). Vəziyyəti öyrənmək və hərbi münaqişəni dinc yolla tənzimləmək üçün son dərəcə gərgin və dramatik iş başlandı. İyunun 15-də H.Əliyev parlamentin rəhbəri seçildi, əslində isə onu "Ölkənin Xilaskarı" kimi qəbul etdilər. Məsələyə kənar mövqedən yanaşanda Surət Hüseynov Elçibəyin və onun nazirlərinin istefa verməsi barədə tələblər irəli sürməkdə davam edirdi: «Əgər onlar istefa verməsələr, qəzəblənmiş xalq onları devirəcəkdir» (Бакинский рабочий. 1993, 18 июня). Lakin əslində heç bir ikihakimiyyətlilik yox idi. Bu halda Heydər Əliyevin mənəvi-siyasi resursu hərbi resursdan daha güclü çıxdı.

İyunun 18-nə keçən gecə Elçibəy bu dəfə təqib edilən şəxs rolu oynamaq üçün Naxçıvana qaçdı. Şəhərdə qarışıqlıq idi, sakinlər evlərin pəncərələrini möhkəm bağlayır, hər ehtimala qarşı qapıların rəzələrini yoxlayır, uşaqları şəhər-



dən kənarda yaşayan qohumlarının yanına göndərir, özləri ərzaq ehtiyatı görürdülər. Heydər Əliyev milli televiziya ilə çıxış edərək dedi: «Mən Azərbaycan Respublikasının Ali Sovetinin sədri kimi Azərbaycan Konstitusiyasına müvafiq olaraq bu vəzifələri, hakimiyyəti və məsuliyyəti öz üzərimə götürürəm və bunu bütün Azərbaycana bəyan edirəm. Güman edirəm ki, bizim xalqımız, vətənpərvər əhval-ruhiyyəli adamlar bu işdə mənə kömək edəcəklər ki, biz birlikdə bu vəziyyətin öhdəsindən gələk (Бакинский рабочий. 2001, 28 июня).

Dövlət böhranı şəraitində «cəncəl adamların» fəallaşması qanunauyğun hal idi. Ə.Hümbətov Lənkəranda regional hakimiyyətə yiyələnmək iddiasını bəyan etdi. Balakəndə vəziyyət son dərəcə kəskinləşmişdi. Gəncədə səngər qurmuş Surət Hüseynov Əbülfəz Elçibəylə görüşməyə etiraz etmir, lakin onun istefa verməsini tələb edirdi. Naxçıvana, doğma Kələki kəndinə qaçıb getmiş Elçibəy də Hüseynovla görüşməyə etiraz etmir, lakin bu arzuların reallaşdırılması üçün heç bir konkret addım atmırdı. Eyni zamanda Qarabağda Azərbaycanın hərbi dəstələri t orpaqları itirə-itirə geri çəkilməkdə davam edirdi.

İyunun 24-də Milli Məclis faktiki olaraq əlində hakimiyyət olmayan Ə.Elçibəyin legitimliyinin ləğv olunması barədə qərar qəbul etdi. O vaxtdan etibarən Elçibəy formal baxımdan «qovulmuş» sayılsa da əslində könüllü olaraq bu vəziyyətdə yaşayırdı. Konstitusiyanın 121 maddəsinin 7-ci bəndində müvafiq olaraq Azərbaycan Respublikasının Prezidenti səlahiyyətləri H.Əliyevə verildi. Azərbaycan tarixinin dönüş məqamında bu, zamanın tələbi idi.

Ağlı başında olan, yaddaşını itirməyən heç kəs mübahisə etməz ki, Heydər Əliyev xarizmatik dövlət xadimidir, bu keyfiyyət onda Allah vergisidir. Bununla bərabər o, seçicilərin şəxsində bütün xalqın etimadını legitim prosedur yolla qazanmış liderdir. Legitimləşdirilmiş idarəçidən fərqli olaraq «xarizmatik lider» öz fəaliyyətində belə bir daxili inama

əsaslanır ki, qarşıya qoyulmuş problemlərin həlli üsulunu yalnız o bilir. Azərbaycanın yaxın keçmişi əyani şəkildə göstərdi ki, seçkilərdə seçilmiş liderdən fərqli olaraq, Heydər Əliyev hakimiyyətinin mənbəyi onun davamçılarının seçkilərdə səs verdikləri bülletenlərin sayında ifadə edilmiş əzmidir. 1993-cü ilin yayında Milli Məclisdə də belə oldu: Heydər Əliyev öz iradəsinin gücü və zəkasının məntiqi ilə Azərbaycan dövlətçiliyinin qərəzli və qərəzsiz düşmənlərini ram etdi.

## 6. «Proqramlaşdırılan» dünya dövründə Heydər Əliyevin modernləşdirmə layihəsi

1993-cü ilin iyun ayında gənc Azərbaycan dövlətinin ən çox nəzərə çarpan cəhəti ölkədə hökm sürən hakimiyyətsizlik və hərc-mərclik idi. Yenicə dövriyyəyə buraxılmış milli valyuta – Azərbaycan manatı inflyasiyanın təzyiqi ilə üzləşmişdi, sənayedə və kənd təsərrüfatında çox təhlükəli vəziyyət yaranmışdı. Çörək mağazalarının qarşısındakı növbələri, kriminal elementlərin azğınlaşmasını, sıravi vətəndaşların qarətlərə məruz qalması, döyülməsi, ziyalıların kütləvi şəkildə ölkəni tərk edib getmələri, hakimiyyət iddiasında olan qruplaşmaların çəkişmələri, erməni millətçi, separatçı və şovinistlərin simasında düşməninin azğınlaşması onları dəf edə biləcək qüvvənin qeyri-simmetrik, özünümüdafiə vasitələrinin primitiv səviyyədə olması, hərbi intizamın olmaması üzündən orduda «maxnoçuluq» hallarının geniş yayılması, cəbhə xəttində AXC-Müsavat hökuməti və Surət Hüseynov tərəfindən yaradılmış silahlı dəstələr arasında subordinasiyanın gözlənilməməsi öz kədərli nəticələrini göstərirdi.

Bu tarixi şəraitdə Heydər Əliyev xarizmatiklərin əzminə və zəkasına müvafiq bir şəkildə fəaliyyət göstərməli idi: müasir siyasi dünya nizamının indiki mərhələsi «proqramlaşdırılan» yəni siyasi layihələrin şüurlu şəkildə təcəssümü



ilə üzvü vəhdətdə olan mərhələ kimi xarakterizə olunur. İstər milli-sivilizasiya, istərsə də dünya miqyasında müasirliyin subyektiv və obyektiv amillərinin üst-üstə düşməsi bizim «Heydər Əliyevin modernləşdirmə layihəsi» dediyimiz bir fenomenin yaranmasını şərtləndirmişdi.

Heydər Əliyevin dəstəklənməsi fenomeninin bir mənbəyi hamı üçün aşkardır – o, böyük şəxsiyyətdir. Lakin bu fenomenin tarixi-sosioloji əsasları da vardır. Hər hansı sosial inqilabın (və ya əksinqilabın) tərəfdarları da olur, əleyhdarları da. Lakin bütün hallarda elə bir məqam yetişir ki, həmin məqamda «biganələr» işə qarışır. Böyük sarsıntılar ərəfəsində belələrinə adətən fikir vermirlər, lakin məhz son mərhələlərdə onlar birinci dərəcəli rol oynamağa başlayırlar. Böhranları «tufana düşmüş sürü» kimi qarşılayan, sosial sarsıntılardan, sabahkı günə inamsızlıqdan təngə gəlmiş dinc "obıvatel"lər (sadə sakinlər- *müəllifin qeydi*) asayişə meyl edir, özlərini sakitləşdirmək üçün sarsılmaz dəyərlər sayılan sistemə üz tuturlar. Bunun nəticəsində transformasiyaların gedişində mühafizəkar əhval-ruhiyyə dalğası güclənir.

Xalq həyatının mənəvi mənbələrinə müraciət dövrü yetişir. Onda bu ada nail olan milli elita iki zehni səyi birləşdirməyə borcludur. Bunlardan biri identikliyin və tarixi varisliyin qorunub saxlanması üçün məsul olan milli mədəni yaddaşın fəalaşması ilə, ikincisi isə digər lokal svilizasiyaların ali və sanballı məhsullarının yaradıcı şəkildə mənimsənilməsi ilə bağlıdır.

«Bu gün böyük kütlələri planlaşdıran və planlaşdırmağa cəhd edən bütün adamlar tarixin fəlsəfəsi ilə hansı formadasa məşğul olur». Heydər Əliyevin nitqlərinin və çıxışlarınn mətnlərini dərindən öyrəndikcə məşhur Avropalı Karl Şmitin bu kəlamı yada düşür (bax: Шмитт К. Единство мира. Пер. с нем. Ю. Коринца. //http://www.nationalism.org/vvv). Prezident 1993-cü ilin yay və payız aylarındakı çıxışlarında Azərbaycanın modernləşdirilməsinin əsas mövzularını və

bütövlükdə III Respublikanın tarixi trayektoriyasının konturunu cızmış və əsaslandırmışdır.

1993-cü il iyunun 15-də Heydər Əliyev Milli Məclisdə proqram əhəmiyyətli nitqlə çıxış etdi. O dedi: «Biz Azərbaycanda suveren, demokratik respublika yaradarkən, sivil cəmiyyət uğrunda mübarizə edərkən... çalışmalıyıq ki, əsrlər boyu, illər boyu davam etmiş asılı vəziyyətdən sonra müstəqillik əldə etmiş Azərbaycan özünün tarixi nailiyyətlərini, özünün milli ənənələrini bütün dünyaya nümayiş etdirsin. Güman edirəm ki, bu mənada Azərbaycanın böyük imkanları var – həm tarixi, həm də müasir imkanları və islam dininin timsalında dini, mənəvi) mənbələri də var – bütün bunlar məcmu halda çox böyük baza yaradır. Bizim vəzifəmiz bütün bunlardan səmərəli istifadə etməkdir» (burada və sonrakı mətndə bu kitaba istinad edəcəyik: Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, iyun, 1993 – may, 1994. s.10-11).

Alimlərlə görüşdə (21 sentyabr 1993-cü il) Heydər Əliyev son dərəcə məzmunlu nitqlə çıxış edərək, öz siyasi strategiyasının bütün ideoloji aspektlərini vurğulamışdır: «Bizim yolumuz demokratiya yoludur... siyasi plüralizm yoludur... biz Azərbaycanda çoxpartiyalı sistem ... üçün şərait yaratmalıyıq. Azərbaycan müstəqil dövlət kimi öz vətəndaşlarının hüquqlarını qorumağı əsas vəzifələrindən biri hesab etməlidir» (Birinci kitab, s. 151).

Siyasət və hüquq sahəsində siyasi modernləşmənin baza anlayışlarını yüksək qiymətləndirən, ümumbəşəri dəyərlərə dərin hörmətlə yanaşan Prezident hər dəfə bu məsələlərin mədəni və mental şərtlənmiş olması mövzusuna qayıdır. Onun bu barədə fikirlərinin ümumi mənası belədir: ümumbəşəri dəyərləri, qloballaşmaqda olan dünyanı yalnız milli özünüdərk prizmasından alamaq olar. Bu elə bir həqiqətdir ki, onu yaddan çıxarmaq fəlakətli nəticələr verə bilər. Prezident 1993-cu il avqustun 22-də gənclərin qarşısında çıxış edərək demişdir: "Əsas vəzifələrdən biri də gənclərimiz arasında vətənpərvərlik hissini geniş təbliğ etməkdir. Bu təkcə ona görə deyil ki, biz indi müharibə aparırıq. Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sahib olmasan, şübhəsiz ki, dünyada başqa şeyləri də qiymətləndirə bilməzsən» (Birinci kitab, s. 175). Belə bir həqiqət Azərbaycanda bu gün də öz aktuallığını saxlayır: mənəvi hakimiyyət yabançı etalonların idxalına əsaslanırsa,... mənəvi hakimiyyət bir dəfə əldən buraxılmışdırsa, siyasi hakimiyyət metodları nə qədər sərt və qətiyyətli olsa da, bu metodların köməyi ilə həmin hakimiyyəti geri qaytarmaq mümkün deyil» (Философия истории. М., 2001. с. 97, 96).



Prezidentin çıxışlarında mənşə etibarilə Qərbi Avropaya xas olan insan və vətəndaş hüquqları ideyaları mənəvi mənbələrə qayıdış ideyası ilə uzlaşır: «Xalqımız öz dininə qayıtdı. İslam dini dünyada öz tarixi yerini tutmuşdur. Xalqımızın mənəviyyatına, qüdrətinə, zəkasına islam dininin böyük təsiri olmuşdur. Milli ənənələrimiz, mədəniyyətimiz bir çox hallarda islam dini vasitəsilə nəsildən-nəslə keçib, indi böyük sərvətimiz kimi bu günkü nəsillərə çatmışdır» (Birinci kitab. s.205).

Vətənpərvərlik və tarixi yaddaş bir-birindən ayrılmazdır. Tarixi yaddaşın sayəsində mənəvi cəhətdən yetkin vətəndaşlar tərbiyə etmək olar – bu fikir dövlətimizin başçısının çıxışlarında tez-tez səslənir. Bununla bərabər o, son 70 ildə qazanılmış tarixi uğurların əhəmiyyətini də vurğulayır: «müstəqil dövlət olmaq üçün xalqın gərək yüksək mentalitet səviyyəsi olsun. Xalqın mentalitetini qaldırmaq isə bir-iki günün işi deyil. (...) Tarixi təhrif etmək lazım deyil. 1920-ci ildən başlayaraq... Azərbaycan xalqı böyük bir tarixi yol keçmişdir. Bu dövrdə xalq yüksəlmiş, onun mentaliteti, təhsil səviyyəsi qalxmışdır» (Birinci kitab, s.158). Cəbhəçi-müsavatçılara xas olan sovet tarixinə münasibətdə təzahür edən nihilizm yaradıcı insanı qəzəbləndirir: «74 il ərzində buranı dağıdıblar?.. Yaşadığınız torpaq da, ev-eşik də,

oxuduğunuz, işlədiyiniz məktəb də, bu bina da hamısı 74 il ərzində yaradılıbdır... 74 il Azərbaycan xalqının tarixidir, bizim tariximizdir... Sizin nə haqqınız var ki, bu 74 ilin üstündən qara xətt çəkirsiniz?» (Birinci kitab. s.191). Səfərbərlik ideyaları onun nitqlərində, milli sazişin və ümumxalq həmrəyliyinin zəruri olması barədə fikirlərində müxtəlif formalarda səslənir. Məsələn, A.Proxanovun (12 avqust 1993-cü il) «Xalq cəbhəsinin iki əllə yapışdığı liberalizm ideyası iflasa uğradı. Siz insanlara hansı ideyanı təklif edəcəksiniz? – sualına prezident belə cavab vermişdir: « yalnız milli barışıq ideyasını, ayrı heç bir ideyanı yox! Bunun daha mənası yoxdur – sən hansı partiyaya mənsubsan... bizi dəhşətli həddən yalnız ümummilli barışıq uzaqlaşdıra bilər... əgər sən liberalsansa, əgər sən xalq cəbhəsinin üzvüsənsə, səni heç kəs təqib etməyəcək... xalqa xidmət elə, xalqın yolunda özünü fəda elə» (Birinci kitab, s.61). 1993-cü il sentyabrın 28-də Prezident əmək kollektivlərinin nümayəndələri ilə görüşdə demişdi: «Üzümü bütün Azərbaycan vətəndaşlarına tutub bir söz demək istəyirəm: gəlin çalışaq ki, xalq birləşsin, xalq öz gücünü bir yerə cəmləşdirsin, bütün vətəndaşlar bir olsun, ağır vəziyyətdən əl-ələ verib birlikdə çıxaq...» (Birinci kitab, s.187). Partiyalar məsələsi barədə, ümumiyyətlə siyasi azadlıqlar məsələsi barədə Prezidentin çıxışlarında səfərbərlik imperativi səslənir: «hər bir təşkilatın özünə aid, özünə məxsus proqramı var, istiqaməti var. Lakin hamı üçün bir istiqamət olmalıdır: Azərbaycanın müstəqilliyini qorumaq..., ərazi bütövlüyünü qorumaq...., siyasi sabitlik yaratmaq, qanun-qayda yaratmaq» (Birinci kitab. s. 188).

Prezidentin obrazlı müqayisələri çox əlamətdardır. Bəzən onun lakonik müqayisələri real hadisənin mahiyyətini, onun mənasını uzun uzadı nəzəri müddəalardan daha yaxşı ifadə edir. 1993-cü il avqustun 24-də faciəli Lənkəran hadisələri barədə çıxışında prezident demişdi: «Müstəqil Azərbaycan Respublikası hələ tutmamış qatıqdır. O gərək bərkisin, möhkəmlənsin...» (Birinci kitab. s. 113). Sonradan, 1994-cü ilin may ayında Prezident apardığı siyasətin məzmununu səciyyələndirərək daha bir obrazlı ifadə işlətmişdir: «Demək olar ki, biz nazik bir sapın üstü ilə gedirik». (Birinci kitab. s.592). Beləliklə, iki metaforik obrazda hələ sabit qeyri-sabitlik vəziyyətində olan dövləti – vəziyyətin bütün aşkar dramatizmi də elə bundan ibarətdir, - gözləyən ölümcül təhlükələr ifadə olunmuşdur.



Prezidentin siyasi nitqinin struktur xüsusiyyətlərini qeyd edək. Bu nitqdə fikrin məntiqi ardıcıllığı və dilin dəqiqliyi ilə yanaşı, «həm – həm də» dəyərlər sxemi diqqəti cəlb edir. Məsələn, 1995-ci il noyabrın 24-də Milli Məclisin birinci iclasında çıxış edən Prezident Azərbaycanın əvvəlki üç Konstitusiyasının (1921, 1937 və 1978-ci il konstitusiyalarının) adını çəkərək demişdi: «Biz bu gün tarixi keçmişimizə hörmət edərək, keçdiyimiz yolun nə qədər əzab-əziyyətli olduğunu qeyd edərək, eyni zamanda xalqımızın müstəqilik yolunda inamla irəli getməsindən məmnun olduğumuzu bildirərək, buna görə də fəxr etdiyimizi bildirərək yeni konstitusiyamızın qəbul olunmasını tarixi bir hadisə kimi, böyük bir bayram kimi qeyd etməyə haqqımız var» (Beşinci kitab. s. 6). Bu o deməkdir ki, onun dünya görüşündə Azərbaycan millətinin qəhrəman və faciəli keçmişi, dinamik bu günü və uzaqgörənliklə təsəvvür etdiyi gələcəyi harmonik şəkildə birləşir. Bu işıqlı gələcəkdə Azərbaycan millətinin sosial siyasi və mənəvi idealı təcəssüm etməlidir.

Heydər Əliyev dərhal dövlət mexanizmini «işə saldı». Yaranmış vəziyyətlə əlaqədar onun nüfuzu əzmkar və qəti tədbirlərə əl atmasına imkan verirdi. Xalq da onu ürəkdən dəstəklədi. O, plebisitar lider kimi birbaşa xalqa müraciət edir. Heydər Əliyevin xalq qarşısında çıxışları onun «siyasi insan» naturasının həddini əks etdirir. Bu insanın əsas motivi dövlət səviyyəsində qərarlar qəbul edilməsi sahəsində öz imkanlarını gerçəkləşdirmək cəhdidir. Heydər Əliyev xalq

kütlələrinin rəhbəridir. Onun tribun-siyasətçi məharəti ondan ibarətdir ki, bütün mürəkkəb məsələlərə zahirən sadə yanaşır, prinsip etibarilə bir məsələni qəbul etmədiyi məsələləri də kütlənin intellektual inkişaf səviyyəsini nəzərə alaraq fikrini inandırıcı formada açıqlayır. 90-cı illərin əvvəllərində tarixin yeni dövründə Heydər Əliyev kütləlləri fəth etmişdir. O, həmin kütləni gələcəyə inam ruhu ilə yaşayan siyasi millətə çevirmişdi. O, millətin az qala unutmaqda olduğu Zaman və Zəfərlər duyğusunu addım-addım ona qaytarmışdır. Millətin anladığı qələbə əhval-ruhiyyəsi onun gələcək zəfərləri ilə bağlıdır. Bu ovqat tdaha da inkişaf etməli və formalaşmalıdır. Onda bu suala cavab vermək mümkün olacaq: «Xalqın tarixi missiyası varmı və onun milli əzəmətini göstərmək vaxtı yetişibmi?» (K.Şmitt).

Onun insanları inandırmasına, təkid etməsinə, nəyisə tələb etməsinə ehtiyac yox idi. Ətrafındakı adamların hamısı ona inanır, hörmət edirdilər. Əliyevin qərargahı o dövrdə mümkün olduğu dərəcədə sürətlə və səmərəli şəkildə işləməyə başladı. Bir-birinin dalınca verilən sərəncamlar dərhal öz ünvan sahiblərinə çatdırılırdı. AXC ilə bağlı məmurlar sakitcə öz kabinetlərini tərk etdilər. Dövlət maşını sürətini artırmağa başladı.

### 7. Diletantların bonapartizminin darmadağın edilməsi

S.Hüseynovun Azərbaycan Bonapartı roluna iddialarını «kökündən kəsmək» üçün Heydər Əliyevə vaxt lazım idi. İyunun 28-də S.Hüseynov H.Əliyevlə görüşmək üçün Bakıya gələndə o, hakimiyyət barədə xülyalarına heç də sərfəli olmayan mənəvi-psixoloji ab-havaya düşdü. S.Hüseynovun xalqın iradəsinə apellyasiya etməsi («Xalq məni hansı vəzifədə görmək istəsə mən həmin vəzifəni tutmağa hazıram») tarixən kecikmişdi. 180 il mülki şəxslərin idarə etdiyi Latın Amerikası ölkələrinə xas olan populist diktatura Azərbaycan xalqı tərəfindən qəbul edilə bilməzdi. Xalqın və vətənin



xilaskarı Heydər Əliyev idi. Bu inamı onun əvvəlki uğurları barədə yaddaşlarda qalan faktlar da gücləndirirdi. Üstəlik, ölkənin siyasi qüvvələrinin, yerli hakimiyyət orqanlarının böyük əksəriyyəti şüurlu surətdə və intuitiv şəkildə qət etmişdi ki, Azərbaycana Heydər Əliyev başçılıq etməlidir. Surət Hüseynovun itaətkar davranışını diktə edən bir mühüm amil də müharibə idi. S.Hüseynov vətən müharibəsini vətəndaş müharibəsinə çevirməyə cəsarət etmirdi və çox güman ki, bunu edə bilməzdi. 1993-ci il iyunun 30-da Heydər Əliyev Surət Hüseynovun Baş Nazir vəzifəsinə namizədliyini Milli Məclisə təqdim etdi - yuxarılarda siyasi sülh əlamətləri bərqərar oldu.

İyul-avqust aylarında H. Əliyev separatçıları və ən odioz, ən mürtəce cəbhəçiləri darmadağın etdi, onlara qarşı hüquqi sanksiyalar tətbiq edildi. Bu, hakimiyyət məkanının əzmkarlıqla təmizlənməsi idi. Vəziyyət hakimiyyətin legitim şəkildə cəmləşdirilməsini tələb edirdi və xalqın nəzərində dövləti şəxsən təcəssüm etdirən Heydər Əliyev siyasi dəyişikliklərin parametrlərini: onların miqyasını, müddətini və istiqamətini müəyyən edirdi. Xalqın misilsiz dəstəyinə güvənən H.Əliyev dövlət təfəkkürünə və xidməti məsuliyyətə əsla hazır olmayan özündən bədgüman adamların iddialarına son qoydu.

Nəcib məqsədlər naminə hüquqdankənar zorakılıq məsələsi ayrıca bir mövzudur və dövlətçiliyə hörmət edənlər adətən bu mövzu barədə susmağı üstün tuturlar. Zorakılıq - etik-siyasi hadisədir (bax: Капустин Б. К понятию политического насилия. Фрагмент книги //http://www.politstudies.ru). Zorakılığın daxili hədləri var. Bu hədlər zorakılıq obyektinin müqavimətinin nəticəsi deyil, onları zorakılıq özü müəyyənləşdirir. Zorakılıq əbədidir və hətta demokratiyaya qarşı da tətbiq edilir. Buna səbəb odur ki, zaman keçdikcə hakimiyyətin istənilən forması, o cümlədən, münaqişələrin qeyri-zorakı yolla həll edilməsinin və ya tənzimlənməsinin bir forması olan demokratiya da «bürüncə-

şir». Demokratiyanın daşlaşmasına qarşı zorakılıqla müqavimət göstərilmədikdə (bu müqavimətin silahlı şəkildə olması vacib deyil) demokratiya özü cırlaşaraq status-kvonun bərpa edilməsi formasına çevrilir, onun özündən razı rahatlığını poza biləcək narazlıq təzahürlərinin öz metodları ilə dəf etməyə başlayır. Tarixi səbəb-nəticə əlaqələrinin inqilab və ya üsyan formasında «qırılması» (ləğvi-*müəllifin qeydi*) özü-özünü istehsal etməklə qarşıdakı yeniliyə münasibətdə zorakılıq edən formaya qarşı zorakılıq aktından başqa bir şey deyildir. 1993-cü ilin iyun hadisələri pantürkist, etnoqratik status-kvonun zorakılıq yolu ilə kəsilməsi idi. AXC tərəfindən yaradılmış qaydalar ölkənin labüd olaraq «somaliləşdirilməsinə», dövlətin parçalanmasına və məhvinə, cəmiyyətin deqradasiyasına doğru aparırdı.

Heydər Əliyev formal mənada hələ prezident olmasa da faktiki olaraq ona hələ cavan yaşlarından xas olan polad iradəsini səfərbər edərək ölkəni idarə edir, əsl fədakarlıq göstərərək, tarixi dövrün tələblərini şəxsi səfərbərlik rejimində həyata keçirmək üçün hədsiz dərəcədə çox işləyirdi. Onun hərəkətlərinin konstitusiyaya müvafiq olmasına heç bir şübhə yox idi. 1993-cü il avqustun 29-da keçirilmiş referendumda iştirak edənlərin 92-i faizi Elçibəyə etimadsızlığını bildirdi. Bundan sonra prezident seçkilərinin vaxtından əvvəl keçirilməsi imkanı yarandı. 1993-cü il oktyabrın 3-də bu cür seçki keçirildi və Heydər Əliyev seçicilərin 98,8%-nin səsini topladı.

Ölkənin idarə edilə bilən olmasını bərpa etmək, ordunu və digər güc strukturlarını ali hakimiyyətə tabe etmək, əllərində silah olan bir dəstə siyasətçini ləğv etmək, əhalidə olan silahları yığmaq, banditliyin və küçələrdə cinayətkarlığın kökünü kəsmək lazım idi. Müvafiq tədbirlər nəticəsində həyat fəaliyyəti üçün minimal şərait yaradıldı: «İnsanlar sərbəst... istirahət edə bilir, gündüz də, gecə də sərbəst hərəkət edə bilirdi». Prezident sonradan deyəcək: «ölkədə



qayda yaratmaq üçün mənə iki il yarım vaxt lazım gəldi» (Xalq qəzeti. 1998, 13 iyul). Mahiyyət etibarilə o, cəmi bir neçə ay ərzində nizami ordunu yenidən yaratmalı – 1993-cü ilin payızında respublikanın 6 rayonunu işğal etmiş erməni silahlı qüvvələrinin hücumlarını dayandırmağa və hətta əks hücum əməliyyatlarını təşkil etməyə müvəffəq oldu. Bu ordunun sayəsində 1994-cü il oktyabrın 4-5-də baş vermiş Gəncə qiyamı yatırıldı.

Lakin ölkədə şəxsi səviyyədə ifadə olunan rəmzi ikihakimiyyətlilik davam edirdi. S.Hüseynov cəmiyyətdə mövcud ab-havanı öz xeyrinə dəyişməyə ümid edirdi... o, öz partiyasını yaratmış və parlament seçkilərinə hazırlaşmağa başlamışdır. O, başa düşmürdü ki, dəyərlər seçimi (xalq tərəfindən güclü hakimiyyətin xeyrinə edilmiş seçim) və elektoral seçim – ayrı-ayrı şeylərdir. Qarabağ problemi (Bişkek sazişi, Rusiyanın və NATO-nun mövqeləri) istər hakim düşərgədən kənarda, istərsə də onun daxilində müxalifətin demarş tədbirləri üçün bəhanə oldu.

Ölkə daxilində ciddi siyasi mübarizə başladı. Bu mübarizə Qərbin və Rusiyanın diplomatik fəallığı ilə müşayiət olunurdu. Nəticədə Heydər Əliyev xarici siyasət raundunda qalib gəldi. O, Qərbdən zəmanət aldı ki, Ermənistan tərəfindən hərbi təzyiq göstərilə biləcəyindən narahat olmamaq mümkündür, eləcə də Ermənistan-Azərbaycan münaqişəsində onun yeritdiyi xətt Qərb tərəfindən dəstəklənəcəkdir. Lakin 1994-cü ilin may hadisələrindən sonra Azərbaycanın ən böyük qazancı bu oldu ki, Elçibəyin əvəz edilməsinin qeyri-legitim olması barədə Vaşinqtonda gedən söz-söhbət artıq keçmişdə qalmışdı. Bununla bərabər Qərb, müxalifətin vəziyyəti barədə «canfəşanlıq və nigarançılıq» nümayiş etdirirdi.

İlham Əliyev 1999-cu ildə həmin hadisələri xatırlayaraq deyirdi: «Qoy «Azərbaycanda demokratiya yoxdur» deyə qışqıran başabəla demokratlar o vaxt özlərinin necə «demokratiya» yaratdıqlarını yada salsınlar...Gəlin bir anlığa

təsəvvür edək ki, 1993-cü ilin yayında ölkəni böhranlı vəziyyətə gətirib çıxarmış adamlar yenidən hakimiyyətə qayıdıblar. Bu halda Azərbaycan xalqına kim zəmanət verə bilər ki, ölkə yenidən bu vəziyyətə düşməyəcək, çətin anda onlar hərəsi bir tərəfə qaçmayacaq?» (Выступление И.Алиева на форуме молодежи// Возрождение – XXI век. 1999. № 13. c.14).

S.Hüseynov və R.Cavadovla bağlı hadisələrdən sonra anarxiyaya və özbaşınalığa son qoyulanda diqqətli müasirlərimizin nəzərindən belə bir fakt qaçmadı ki, Prezidentin qələbəsi bəzi yeni hadisələrə aydınlıq gətirdi. Artıq 1995-ci ilin baharında mövcud iqtidarı Mütəllibovun və cəbhəçilərin praktiki idarəetmə kadrları ilə səthi müqayisə edəndə görünürdü ki, Əliyevin yetişdirdiyi siyasi elitanın əzmi, onun fəallıq fəlsəfəsi yeni sosial-iqtisadi reallıqların yaranmasına, tranzisiya (keçid) prosesinin özünün müqəddəratına həlledici təsir göstərir. Qeyd etmək yerinə düşərdi ki, bu mövzu xarici ölkələrdə siyasi savad kurslarında elmi dərəcə almış nəzəriyyəçiləri siyasi sistemin «özü-özünü idarə edən institutlarının imkanlarına inanan, güya bu sistemin cəmiyyətdə və dövlətdə yaranan problemləri avtomatik həll edəcəyini güman edən müxalifətlə iqtidarın ideya və mənəvi-psixoloji fərqlərini üzə çıxarır. O vaxtdan bir neçə il keçib. İndi görürük ki, Prezident dövlətçiliyi möhkəmlətmək naminə geniş miqyaslı güc metodlarına və təzyiqə əl atmalı olmamışdır. Bu siyasət ona görə uğurlu oldu ki, Azərbaycanda tarixən yaranmış dövlətçilik var, onun matrisi ənənəvi və üzvi matrisdir. Y.Evolanın təbirincə desək: «Dövlət o halda üzvi dövlət hesab edilir ki, öz təbiətinə görə, mahiyyəti etibarilə onun müxtəlif hissələrinə forma kəsb etdirən müəyyən ideyanı əks etdirən mərkəz olsun; parçalanma və ayrıca bir şəxsin «özbaşnalığı» belə dövlətə yabançıdır, onun tərkib hissələrindən hər biri... öz funksiyasını yerinə yetirir və daxilən tamla bağlıdır. Bizim nəzərdən keçirdiyimiz sistemin mahiyyəti məhz bundan ibarətdir: bu sistemi şəxsi mənafelərin nizamsız şəkildə toqquşduğu elementlərin adi cəmi və ya məcmusu deyil, bir-biri ilə qarşılıqlı əlaqəli və mənəvi cəhətdən vəhdət təşkil edən bir tamdır» (Эвола Ю. Люди и руины. Julius Evola. Les hommes au milielu des Ruines. / Pardes: Parigi-Puiseaux, 1984. Пер. с франц. В. Ванюшкиной. /http://www.nationalism.org/vvv). «Şəxsi mənafelərin nizamsız şəkildə toqquşduğu elementlərin» bu məcmusu – Heydər Əliyevə meydan oxuyan insanların müxalifətçi birliyidir, onlar «başqa» dövlətçiliyin obrazları, əlləri qana batmış, qiyamlar və çevrilişlər təşkil etmiş, özlərinin xuntaları və qorilla-prezidentləri olan elementlərdir. Məhz Prezidentin sayəsində, onun təcrübəli idarəçi kadrlar korpusunun sayəsində Azərbaycan prinsip etibari ilə millətin qarşısında siyasi modernləşmə məsələlərini qoymağa qabil olan sivil dövlətlər sırasında qaldı.

## 8. «Legitimlik» informasiya müharibəsini ört-basdır edən vasitə kimi

Radikal müxalifət bir qədər çaşqınlıqdan sonra informasiya-psixoloji müharibəyə başladı. Bu müharibənin daimi mövzuları «demokratiya», «vətəndaş cəmiyyəti», «legitimlik», «düzgün seçkilər», «avtoritarizmin tənqidi» mövzuları idi. Radikal müxalifətin qəzetləri demokratiya və insan hüquqları barədə hər gün ritual boşboğazlıq edirdi.

Onlar sanki Karl Marksın ifadə etdiyi aşağıdakı qaydaya əməl edirdilər: «İndi mətbuatın birinci vəzifəsi mövcud siyasi quruluşun bütün təməlini dağıtmaqdır» (Маркс К. и Энгельс Ф., Соч. Т.6. с. 345).

Bizim hüquq və azadlıq pərəstişkarları «Marksist leninçi» plutokratik liberalizmdən başqa heç bir tənqid barədə, deyəsən heç eşitməyiblər, üstəlik onu da yalançı və doqmatik tənqid kimi damğalayıblar. Əslində isə «hər şey yüksək

zəkaya malik olan az sayda insanlar tərəfindən həll edilir, bəlkə də bu adamların adı çox məşhur deyil, lakin ikinci dərəcəli siyasətçilərin, ritorların və tribunların, deputatların və jurnalistlərin, əyalət nümayəndələrinin böyük əksəriyyəti cəmiyyətin ən aşağı təbəqələrində xalqın öz müqəddəratını təyin etməsi barədə illüziyanı dəstəkləməkdən başqa heç nə etmir» (Шпенглер О. Закат Европы. Новосибирск, 1993. с. 74). Çox qısa müddətdə müxtəlif fondlar tərəfindən maliyyələşdirilən radikal müxalifətin ideolji bazası Qərbdə gedən proseslərdən get-gedə daha çox uzaqlaşır. 90-cı illərin əvvəllərində bunu bağışlamaq olardı, çünki o vaxt çoxları bilmirdi ki, MDB-də keçid dövrü liberal Qərb demokratiyalarının transformasiyası ilə eyni vaxta düşmüşdür. Sovet cəmiyyətinin demokratik hissəsinin can atdığı bir sıra məqsədlər (hakimiyyət bölgüsü, çoxpartiyalılıq, BMT üzvlərinin suverenliyinə hörmət və s.) 90-cı illərin ikinci yarısından etibarən Qərbdə sürətlə qiymətdən düşür. Dünya «qızıl milyarda» daxil olmayan xalqlara münasibətdə polis, oliqarxiya və həmin xalqlara qarşı düşmən mövqe tutan dövlətə çevrilir. Lakin həqiqi vətənpərvərlər üçün xəcalət sayılmalı hadisələr hələ bu gün də müxalifəti ruhlandırır!Söhbət ondan gedir ki, Qərbin «soyuq müharibədə» qələbəsi onun strateji təfəkkürünün ifrat dərəcədə bəsitləşməsinə maarifçilərin belə bir özündənrazı mifinin dirçəlməsinə şərait yaratmışdır ki, guya qərb iqtisadiyyatına müvafiq insan təbii (sivil) insan, digər lokal sivilizasiyalara mənsub insan tipləri isə süni insanlardır. Müxalifətin ideoloji savaddan məhrum olan əllamələrinin doqmatik məntiqinə görə orta Azərbaycanlı tam dəyərli insan deyil, çünki o, özünün siyasi psixologiyasına görə Avropalıya və Amerikalıya oxşamır və əgər belə insan özünün (bu məqamı xüsusi vurğulayırıq) vətəndaş bənzərsizliyinə inadkarlıq edirsə o, ikiqat nifrətə layiqdir. Halbuki, «sosioloji qanunauyğunluqlar (cəmiyyətin fəaliyyət qaydaları. – *müəllifin qeydi*) aksioma qüvvəsinə malik deyildir və bir cəmiyyətdən



digərinə keçid zamanı dəyişərək geniş mədəni kontekstdən asılıdır» (Портянкин Б.А. Размышления о микро- и макросоциологии //Социологические исследования. 1992. №1. с. 116).

## 9. «Cırtdan» Milli Məclisin sonu

Qanunvericilik hakimiyyətinin dəyişməsi, onun funksional və kadr səviyyədə keyfiyyətcə dəyişməsi III Respublikanın siyasi modernləşməsində mühüm mərhələ oldu. Məlum olduğu kimi 1993-cü ilin yayında Milli Məclis – 1991-ci ilin noyabr ayında hakimiyyətlə radikal müxalifətçilərin qızğın çəkişməlri nəticəsində yaranmış bu cırtdan parlament əsl mübarizə meydanına çevrilmişdir. Azərbaycan SSR Ali Sovetinin cəsədi üzərində qurulmuş, Mütəllibovçu nomenklaturla kütlə içərisindən və çayxanalardan çıxmış siyasətçilərin dinc yanaşı yaşamaq praktikasından doğulmuş bu mutant müvəqqəti bir orqan kimi nəzərdə tutulmuşdur. Formal baxımdan həmin məclis yeni dövlətin ilk milli parlamentinə seçkilərin vaxtından əvvəl hazırlanması ilə məşğul olmalı idi. Onun bütün tarixi fraksiyalar arasında çəkişmələrlə doludur: «Yarımların» heç biri sıx birləşmiş qrup deyildi, hərçənd Milli Məclisin «nomenklatur» hissəsi daha intizamlı idi. «Demokratik» hissə isə yeni struktura kooptasiya edəndən sonra elə ilk günlərdən başlayaraq şöhrətpərəstlik zəminində mübarizələr onu didib dağıdırdı. Az sonra «demokratlar» cərgəsi onların buraya təyin edilməsi təşəbbüsünü irəli sürmüş AXC lideri Ə.Elçibəyin ən barışmaz düşmənlərinə çevrildi. Belə «Milli Məclis» hakimiyyətin diqqət əlamətlərinə çox həssas münasibət bildirirdi, onu asanlıqla idarə etməyə imkan verən səbəblərdən biri də bu idi ki, Prezidentlər dövlət vəzifələrinə öz tərəfdarlarından 10-15 nəfəri təyin etmişdi. Xüsusi əhəmiyyət kəsb edən iclaslarda bu deputatlar icra hakimiyyətinin qərarlarına intizamlı şəkildə səs verirdilər.

Milli Məclis fəaliyyətdə olan prezidentlərdən ikisinə – Mütəllibova və Elçibəyə qarşı satqınlıq etdi: guya onların tərəfdarları sayılan deputatların işləri uğurla getməyəndə bu deputatlar həmin prezidentlərə xəyanət etdilər. Heydər Əliyev yaxşı bilirdi ki, bu deputat korpusuna toplaşmış adamlar istənilən rejimdə özlərinə yer tapmağa çalışan əqidəsiz insanlardır. Ali Sovetin o biri deputatları da belə idi. Prezident nə Milli Məclisi buraxmaq qərarına gəldi, nə də Ali Soveti tam tərkibdə yenidən çağırdı. Görünür, o, bu orqanın «təbii ölümünü» gözləməyə və bundan sonra dövlətə zidd xadimlərdən təmizlənmiş təməl üzərində parlament quruculuğuna başlamağa üçtunluk vermişdi. Bir sözlə, bu məclis 1995-ci ilin sentyabr ayında özünün hüquqi səlahiyyət müddəti başa çatana qədər mövcud oldu. Bəlkə də prezident yeni parlamenti xalqın iradəsini təcəssüm etdirən qanunların işlənib hazırlanması mexanizmindən daha çox, ali məqsədlər naminə onunla əməkdaşlıq edən həmfikir dövlətçilərin kadr təşkilatı hesab edirdi.

1995-ci ilin mart ayında R.Cavadovun qiyamı yatırılandan sonra milli təmərküzləşmə ideyası adlandırıla biləcək bir ovqat yaranmışdı. Bu ovqatın ideya mahiyyəti barədə həvəslə danışanlar çox olub. Martın 17-də hələ XTPD (Xüsusi Təyinatlı Polis Dəstəsi) bazasının dövrəsində atəş səsləri eşidiləndə prezidentin yanında müşavirə keçirilirdi. Bu, açıq aksiya idi: müxalifətin dövlətə zidd fəaliyyətinin ifşa edildiyi müşavirə televiziya kanalları ilə translyasiya edilirdi. Senzura müvəqqəti gücləndirilmişdi. 1994-cü ilin payızından etibarən məcburi tədbir kimi fövqəladə vəziyyət rejimi tətbiq edildi. Lakin fövqəladə vəziyyət tətbiq edilməsi ilə bağlı əvvəlki praktikalardan fərqli olaraq bu dəfə həmin tədbirin görülməsi üçün ciddi mənəvi əsaslar vardı. Mart ayında fövqəladə vəziyyət rejiminin müddəti daha 2 ay artırıldı.

Dövlət mətbuatı və ieleviziyası Prezidentin kursunun izah edilməsi və radikal müxalifətin dövlətə zidd bir qüvvə



kimi pislənməsi kompaniyasını genişləndirdi. Prezident həmin açıq müşavirədə xatırlatdı ki, o, qarşıdakı seçkilərin, yəni xalqın prezidentə və onun kursuna etimad ifadə etməsini təmin edən seçkilərin demokratik şəkildə keçirilməsinin qarantıdır.

1995-ci ilin yazından etibarən Milli Məclisə seçkilərlə bağlı kompaniya başlandı. Noyabrın 12-ə təyin edilmiş seçkilərə hazırlıq siyasi ehtirasların coşması ilə müşayiət olunurdu. Elçibəylə bağlı hadisələr, avanturist cəbhəçilərin, xarici ölkələrdən dəstək alan partiya funksionerlərinin bir neçəsinin tutulub saxlanması və həbs edilməsi, dövlət əleyhinə cinayətlər törətmiş şəxslərin barəsində məhkəmə hökmləri – dövlətin öz mövcudluğunu qoruyub saxlamaq üçün gördüyü tədbirlər ən ümumi şəkildə desək, bunlardan ibarətdir. Qeyd etməliyik ki, hər bir siyasi sistemin böhransız inkişaf etməsi üçün öz normaları var və bu normalar sistemin düşmənlərinin fəaliyyətinə daim nəzarət olunmasını tələb edir. Azərbaycan gerçəkliyinə xas olan hərbi-fövqəladə şəraitdə, millətin «bir yerə cəmləşdiyi» vaxtda bu norma sərt olmaya bilməz.

Seçkilərə hazırlıq son dərəcə gərgin sosial-iqtisadi şəraitdə həyata keçirilirdi. Çeçenistanda birinci müharibə gedirdi. Rusiya Azərbaycanla sərhədi bağlamışdı. Onu da qeyd edək ki, həmin dövrdə «Torkvil qanunu» deyilən qanunun təsirinin ilk əlamətləri müşahidə olunurdu. Həmin qanuna görə ümumi vəziyyətin sabitləşməsi xalqın hakimiyyətə ümidlərinin və tələblərinin artmasına stimul yaranır.

## 10. Demokratiyanın kəmiyyəti və keyfiyyəti

1995-ci ilin əvvəllərində ölkədə 45-dən çox siyasi partiya və təşkilat rəsmi və qeyri-rəsmi şəkildə fəaliyyət göstərirdi. Lakin onların çoxu əhalinin əhəmiyyətli hissəsinin mənafelərini əks etdirmədiklərinə baxmayaraq, xarici fondlardan dəstək alır və öz məqsədlərini güdərək fəal iş aparırdılar.

Çox-partiyalı sistemin yaranması Avropa standartlarına uyğun siyasi modernləşmə məcrasında baş verirdi. Mahiyyət etibarilə bu vəziyyət qondarma novatorluq təsiri bağışlayırdı, çünki o, başqa cəmiyyətlərin və xalqların zövqlərini mexaniki şəkildə Azərbaycana tətbiq etmək cəhdi idi. 45 partiyadan yalnız Yeni Azərbaycan Partiyası - peşəkar siyasi menecerləri (idarəçilər sinfini) öz sıralarında cəmləşdirmiş bu partiya Prezidentin niyyətlərini şüurlu şəkildə və intizamla həyata keçirirdi. Yeni Azərbaycan Partiyası bu işləri obyektiv fakt üzrə, öz üzvlərinin hər hansı hissəsinin karyerist, tamahkar mülahizələrindən asılı olmayaraq həyata keçirirdi.

Kommunist partiyalarını da dövlətçilər partiyalarına aid etmək olar. Məsələn, Azərbaycan Kommunist Partiyası (sədr R.Əhmədov) bu gün də əmindir ki, o, kommunist ideallarının bərpa edilməsi uğrunda mübarizə aparır. Lakin faktiki olaraq bu partiya Prezidentin dəstəyinə güvənərək müasir Azərbaycan dövlətçiliyinin möhkəmlənməsinə xidmət edir. Məhz həmin illərdə prezidentin kursuna prinsipcə loyal olduqlarını bildirən bir neçə az saylı partiya formalaşmışdı. Onları instinktiv dövlətçilər hesab etmək olardı. Bir qədər sanballı görünmək xatirinə «alyanslar» şəklində birləşən bu kiçik partiyaların mövcud olması belə bir fikir doğurur ki, partiya - ikinci dərəcəli subyektdir. Siyasətin birinci dərəcəli subyekti isə mühüm dövlət məsələləri barədə öz vəhdətini dərk edən və bu irimiqyaslı mənafeləri birlikdə müdafiə etməyə hazır olan bir qrup nüfuzlu insandır. Əgər belə bir qrup yoxdrsa, partiyanın mövcudluğu yalnız imitasiya edilir, çünki indiki partiyaların hamısı personlaşdırılmışdır: onlar ambisiyalı populyar xadmin ətrafında formalaşmışdır.

Azərbaycandakı partiyaların böyük əksəriyyəti sistemdənkənar müxalifətdir, onun potensialı xarici fondlar tərəfindən maliyyələşdirilir. Özlərini «milli demokratlar» adlandıran bu cür partiyalar öz hərəkətləri ilə belə bir fikrə düşməyə əsas verirlər ki, onlar heç vaxt demokrat olmayıblar, daxilən onlara xas olmuş millilik keyfiyyəti isə subsidiyaların təsiri ilə, necə deyərlər, buxarlanmışdır. Belə partiyalar yerinə yetirdikləri ideoloji rola görə vasitəçi partiyalardır. Çünki onlar kor-koranə qərbləşməni «düzgün» modernləşmə kimi qələmə verərək onu ölkəyə zorla qəbul etdirməyə çalışırlar. Azərbaycan tarixində özlərinin rolu barədə siyasi uydurmalarından asılı olmayaraq onlar hamısı Azərbaycanda təqribən eyni işlə məşğuldurlar: onu «tamamlayıcı iqtisadiyyat» ölkəsinə, xalis xammal ölkəsinə özünün elmi, yüksək texnologiyaları olmayan, adi kütlədən ibarət bir cəmiyyətə çevirmək istəyirlər. Əlbəttə, əgər onlar hakimiyyət sükanını ələ keçirə bilsələr.

## 11. 1995-ci ilin Milli Məclisi: dövlətçiliyi müdafiə edilən legitim qurum

1995-ci il yayın axırlarında parlamentə seçkilər haqqında qanun layihəsi Milli Məclisə təqdim edildi. Həmin layihədə müəyyən edilmişdir ki, Milli Məclis 125 deputatdan ibarət olacaq. Onlardan 100-ü majoritar seçki dairələrində, 25-i isə partiya siyahıları üzrə seçiləcəkdir. Dövlətçilərin ideoloqları partiyaları süni qurumlar hesab edirdilər. Buna görə də seçkiləri majoritar dairələr üzrə keçirmək təklif olunurdu. Qərb sivilizasiyasının nailiyyətlərini seçmə yolla tətbiq etmək faktı bu məsələdə özünü göstərmişdi. Daha sonra məlum kompromis formula işlənib hazırlandı.H

1995-ci il noyabrın 12-də Milli Məclisə seçkilər və yeni Konstitusiyaya dair referendum keçirildi. Noyabrın 19-da MSK (Mərkəzi Seçki Komissiyası) seçkiyə rəsmən yekun vurdu: səsvermədə 3,5 milyon nəfər və ya səsvermə hüququna malik olan vətəndaşların 86,0%-i iştirak etmişdir. Səsvermədə iştirak edənlərin 92%-i birinci Konstitusiyanı bəyəndiyini bildirmişdir. III Respublikanın siyasi həyatında

artıq ənənəyə çevrilmiş bir hal – seçki prosedurlarının şəffaf və düzgün olması barədə mübahisələr və etiraz manifestasiyaları başlıca məsələdə bizi bir daha inandırır: Azərbaycanda seçkilər səslərin «partiyalar üzrə» süni yolla xırdalanmasına əsaslanmırsa və plebisit deyildirsə, yəni dövlətin proqramına etimad məsələsini «lehinə» - «əleyhinə» prinsipi üzrə səsə qoyulmursa bu seçkilər «təbii deyildir». Bu yerdə sayı milyardı keçmiş çinlilərlə bağlı bir faktı xatırlatmaq istərdim: həmin ölkədə bir partiyanın olması onların planetdə liderliyə doğru irəliləməsinə «mane olmur». İlk baxışda buna tam zidd olan başqa bir faktı da xatırlatmaq yerinə düşər – Fransa Milli Cəbhə partiyasının lideri Le Pen prezident seçkilərində ikinci mərhələyə çıxmışdır. ABŞ-da «isteblişment» deyilən sistemə daxil olmayan siyasətçinin gözlənilməz qələbəsi mətbuatda və televiziyada çox böyük bir isterikaya səbəb olmuşdur. Deyə bilərsiniz ki, bu iki xalqın praktikası arasında ortaq cəhət nədir? – ortaq cəhət hər iki cəmiyyətdə hökm sürən normalar və qaydalar - isteblişment olmasıdır. Çində formal cəhətdən çoxsaylı xırda marginal partiyaların olmasına baxmayaraq bir «isteblişmentar» partiyanın hökmranlıq etməsi normal hal sayılır. Fransada bir neçə «isteblişmentar» partiya və çoxlu marginal partiyalar olduğu şəraitdə həmin bir neçə «isteblişmentar» partiyanın hökmranlıq etməsi normal hal sayılır. Hər iki ölkədə marginalların irəli çıxması dövlət orqanizminin sarsılmasına gətirib çıxara bilər və belə halda tanklar siyasətə «daxil olur» (Pekin, 1989-cu il, Moskva, 1993-cü il) və ya isteblişment əleyhdarlarını sakitləşdirmək üçün tankların siyasətdən çıxarılacağı vəd edilir. Görünür, MDB-nin Azərbaycandakı ekspertləri xalqın siyasi psixologiyasına kifayət qədər yaxşı bələd idilər: onlar seçkilərdə qeydə alınmış xırda pozuntu hallarına əhəmiyyət vermədilər və seçkiləri «Azərbaycanın demokratikləşməsi yolunda mühüm addım» kimi qiymətləndirdilər. Müsəlman aləmindən olan müşahidəçilər 92,0%rəqəminə hörmətlə



yanaşdılar, lakin Avropa Şurasından olan müşahidəçilərin fikri başqa idi.

Noyabrın 13-də onlar qeyd etdilər ki, seçkilərin gedişində «ciddi pozuntular və qanundan kənara çıxma halları olmuşdur», missiyanın rəhbəri C.Bomel isə demişdi: «Bu cür qeyri-demokratik seçkilərdən sonra Azərbaycan Avropa Şurasına qəbul edilə bilməz». Şərqi Avropa Demokratiya İnstitutunun (ABŞ) direktoru İ.Lasota seçkiləri «ən ədalətsiz və demokratiya ilə identifikasiya edilə bilməyəcək» seçkilər kimi qiymətləndirilmişdi. Bu eqosentrik tənqiddə ən çox diqqəti cəlb edən – «identifikasiya» sözüdür. Belə çıxır ki, guya demokratiya bir etalon kimi, yalnız dünyanın müəyyən hissəsində mövcuddur. Beləliklə, radikal müxalifət sıralarında olan həmvətənlilərimizi saymasaq, ən uzaqgörən və vicdanlı azərbaycanlılar bəzi qərb siyasətçilərinin və ictimai xadimlərin ikili standartlarını bəlkə də birinci dəfə gördülər və bunu lazımınca qiymətləndirdilər. Bununla belə, Azərbaycan demokratiya yolunda inamla irəliləyirdi.

## 12. Tarixi inkişaf marşrutları haqqında mülahizələr

Belə bir faktı qeyd etmək istərdik ki, bir sıra sosioloqlar tərəfindən kəşf edilmiş həqiqət Heydər Əliyevin və onun davamçılarının dövlətçilik fəaliyyətində öz əksini tapır. Avropadan kənarda yerləşən ölkələrin inkişaf təcrübəsi müxtəlif modernləşmə marşrutlarının (modernləşmə «qapılarının») mövcud olmasının qanunauyğunluğunu təsdiq edir. Radikal müxalifət isə praktiki olaraq bu həqiqəti təkzib edərək, milli bənzərsizliyi «totalitarizmin və avtoritarizmin törtöküntüsü» adlandırır. Prezident islahatların gedişində sosial-mədəni amillərin (ənənələrin, etiqadların, əqidələrin, adətlərin, zövqlərin) rolunu dəfələrlə vurğulamışdır. Bu həqiqətlərin məhz Prezidentin dilindən səslənməsi həm praktiki, həm də nəzəri əhəmiyyət kəsb edir. Doğrudan da, Hey-

dər Əliyevin fəaliyyət kursunun xalq tərəfindən dəstəklənməsi fenomeninin özü adi siyasi faktdan daha artıq əhəmiyyətə malik olub, sürətli və harmonik inkişaf naminə səfərbərliyin açıq formalarına ümid bəsləməyə imkan verən hərəkətverici qüvvədir (amildir).

Heydər Əliyevin siyasəti endogen və ekzogen proseslərə xas olan amillərin daim nəzərə alınmasına əsaslanır. Sadə dildə desək, bu halda iki qüvvə «işləyir» - sosial-mədəni elementlər (xalqın öz rəhbərinin xarizmasına inamı və ümumi tərəqqi naminə çətinliklərə dözməyə hazır olması şəklində təzahür edən daxili (endogen) qüvvə və Böyük Pulları və Böyük İradəni akkumilyasiya edən beynəlxalq təşkilatlardan bəhrələnən iradi təkanlar şəklində təzahür edən xarici (ekzogen) qüvvə - Pax Americana xas olan sərt reallıqlar belədir.

### 13. 1995-ci il Konstitusiyası «güclü dövlətin» təcəssümü kimi

1995-ci il noyabrın 12-də parlament seçkiləri ilə eyni zamanda Azərbaycan Respublikasının Konstitusiyasına dair referendum keçirildi. Bu Konstitusiyanın layihəsi Heydər Əliyevin sədr olduğu Konstitusiya Komissiyası tərəfindən işlənib hazırlanmış və hamılıqla müzakirə edilmək üçün oktyabrın 15-də dərc edilmişdi. Konstitusiya Komissiyasının qərarına müvafiq olaraq, onun işçi qrupu Komissiyaya daxil olan təklif və əlavələri təhlil etməli və Konstitusiya layihəsinin yaxşılaşdırılmış variantını müzakirə olunmaq üçün oktyabrın 30-da Komissiyaya təqdim etməli idi. Prezident bu Konstitusiyanı «Azərbaycanın keçdiyi yolun məntiqi yekunu» adlandırdı və onu tarixi nailiyyət kimi qiymətləndirərək bildirdi ki, məhz bu Konstitusiya «Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini təmin etməyə qadirdir».

Konstitusiyada bəyan edilir ki, xalq ölkədə hakimiyyətin yeganə mənbəyidir. Azərbaycanın demokratik, dünyəvi və unitar respublika olması qeyd edilir. Prezident dövlətin rəhbəri olmaqla, ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi ona həvalə edilir, o, ölkənin Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır. Nazirlər Kabineti Prezidentin icra orqanıdır. Sənəddə Milli Məclisin qanunvericilik vəzifələri, prezidentin icra hakimiyyətinin və məhkəmə orqanlarının hüquqi səlahiyyətinin hədləri təsbit olunur, Konstitusiya Məhkəməsinin yurisdiksiyası müəyyən edilir. Konstitusiya ölkənin hər bir vətəndaşının azadlığına, mülkiyyət hüququna, əmək və istirahət hüququna, seçki hüququna, sosial təhlükəsizliyinə və dini etiqad azadlığına təminat verir, müəyyən edir ki, Azərbaycan Respublikasında dövlət dili Azərbaycan dilidir. Kostitusiyada vətəndaşların əsas vəzifələri də təsbit edilmişdir: vətənə sədaqət, dövlət rəmzlərinə hörmət, ölkənin müdafiəsi.

Konstitusiya «güclü dövlət» ideyasının (B.Topornin) təcəssümü oldu. Bu terminin işlədilməsi dövlətimizin faktiki vəziyyətini nəzəri səviyyədə göstərməyə imkan verir. «Güclü dövlət - real səmərəli demokratiyaya, vətəndaş cəmiyyəti ilə konstruktiv əməkdaşlığa əsaslanaraq qurulmuş dövlətdir. Dövlətin idarə edilməsi təkcə idarəetmənin bölünməsi əsasında deyil, həm də hakimiyyətin bütün şaxələrinin əməkdaşlığı və qarşılıqlı əlaqələri əsasında qurulur, çünki praktiki olaraq bütün məsələlərin həlli bu cür qarşılıqlı əlaqələrin olmasını tələb edir» (Российское государство и право на рубеже тысячелетий (Всероссийская научная конференция). Выступление академика Б.Топорнина. // Государство и право. 2000. №7. с.5). Ölkəmizin tarixi də bu fikri təsdiq edərək göstərir ki, dövlət başçısının güclü rola malik olması həmişə dövlət hakimiyyəti sisteminin inkişafına kömək etmişdir.

1995-ci ilin axırlarında Azərbaycanda sabitlik bərqərar olmuşdu, prezident hakimiyyəti ölkədə siyasi vəziyyətə nəzarət edirdi. Ekstremist mübarizə formalarına, separatçıların silahlı çıxışlarını təşkil etməyə ümid bəsləyənlərin şansla-

rı kəskin şəkildə azalmışdı. Cinayətkarlıq halları xeyli azalmış, vətəndaşların şəxsi təhlükəsizliyi, əsasən, təmin edilmişdi. Hakimiyyət xalqın ciddi dəstəyinə güvənirdi. İnsanlar az da olsa təmin edilmiş sabitliyi hüquqi hərcmərclikdən, müharibədən, vətəndaş müharibəsi həddinə çatmış iğtişaşlardan və banditizm qarşısında köməksizlik vəziyyətindən üstün tuturdular. İnsanların yaddaşında dərin izlər qoymuş bütün bu neqativ hallar artıq keçmişdə qalmışdı (bax: Mirzəzadə A. Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri. Bakı, 2001).

1996-cı ilin fevral ayında Milli Məclis, demək olar ki, tam tərkibdə işə başladı. Deputat korpusunun hansı qərarları qəbul edəcəyini əvvəlcədən tam əminliklə yəqin etmək olardı və bu fakt da daxili siyasi sabitliyə təminat verirdi. Azərbaycanda mövcud hakimiyyət sistemini kadr siyasəti baxımından qiymətləndirmək istəsək deyə bilərik ki, bu sistem «qala kimi möhkəm» sistemdir. İntizamın və məsuliyyətin yüksək səviyyədə olmasını təmin edən, deməli, «avtoritar səfərbərlik» deyilən funksiyaları da yerinə yetirən həmin sistemin bu keyfiyyəti xüsusən onda özünü göstərirdi ki, Seçkilər Haqqında Qanuna müvafiq olaraq, deputatların 15 faizi (yəni 18 nəfər) parlamentdəki işi ilə yanaşı, həm də icra hakimiyyəti strukturlarında vəzifə tuta bilərdi. Təqribən 40 deputatı birləşdirən «Yeni Azərbaycan» fraksiyasının üzvləri ikinci qrupu təşkil edirdi. Mahiyyət etibarilə bu sistem meritokratizm, yəni dövlət qarşısında müəyyn xidmətləri olan insanların hakimiyyəti meyarlarına uyğundur. İnanılmış şəxslər eşelonuna daxil olanların hər biri bundan sonra da özünün şəxsi keyfiyyətlərinə ümid bəsləyə bilərdi, bu şərtlə ki, belə şəxslərin zehni qabiliyyəti və xarakteri daha yüksək səviyyədə olsun. Üçüncü qrupa daxil olan deputatlar vətənpərvər əhval-ruhiyyəli ictimaiyyəti – əsasən yaradıcı, elmi və ədəbi ziyalıları təmsil edirdi.



## 14. «Şöhrətpərəst və varlı»...

Gözləmək olardı ki, sarsılmaz islahatçılığın passionar energetikası öz qələbəsini qeyd edəcəkdir. Axı bütövlükdə xalq Prezidentin kursunu birmənalı şəkildə dəstəkləyirdi; dövlət aparatının daxilində səmərəli dəyişikliklər gedir: münasibətlərdə subordinasiyaya və iyerarxiyaya riayət edilir, dövlət intizamı və məsuliyyət mülahizələri anarxik xüdbin niyyətləri get-gedə daha çox sıxışdırır; ictimai şüurda etnik-mədəni identiklik hissinin güclənməsi müşahidə olunur... Lakin həmin dövrün dəhşətli özünəməxsusluğu ondan ibarət idi ki, hegemonizmə və uniformizmə qarşı kortəbii mübarizə əslində hələ yenicə güclənməyə başlayırdı. Sistemdən kənarda qalmış radikal müxalifət gərginlik mənbələrinin sayını artırır, hadisələri və faktları düşmənçilik mövqeyindən şərh edirdi.

1996-cı ilin əvvəllərində müxalifət mətbuatı uydurmalarla dolu məqalələr dərc edir, belə bir fikir təlqin edirdi ki, guya cəmiyyətin xeyli hissəsi yeni Məclisə ümid bəsləyir, güman edir ki, prezident ölkədə vəziyyəti sabitləşdirəndən və özünün istədiyi parlamenti seçəndən sonra islahatçı hökumət yaradacaq və cəmiyyətin uğurlu demokratikləşməsi (yəni liberallaşması) üçün zəruri hüquqi, siyasi və iqtisadi qanunlar paketini təsdiq edəcəkdir, lakin Prezident guya sabitliyin qorunub saxlanması kursuna üstünlük vermişdir, çünki onu «demokratik bazar islahatları keçirməyə» məcbur edən yalnız xaricdən, Qərbdən göstərilən təziq idi.

1996-cı ilin sentyabrın 11-də Milli Məclis spiker Rəsul Quliyevin istefa barədə ərizəsini qəbul etdi və bu addım R.Quliyevdən ötrü şərəf sayıla biləcək bir səbəblə əsaslandırıldı: «səhhətinin vəziyyətinə görə». Modernləşmə xətti yalnız bu şərtlə real olrdı ki, bütün müvafiq qüvvə və vəsaitlər səfərbər edilsin, buna görə də həmin xətti xilas etmək üçün yeganə yol – müstəqil Azərbaycanın düşmənlərinin iradəsi

ilə onların təsirinə düşmüş agentlərə çevrilmiş adamlardan yaxa qurtarmaq idi.

Müxalifət yazarları Rəsul Quliyevi «şöhrətpərəst və varlı», «islahatçı» və «qərbpərəst liberal» kimi səciyyələndirirdi. Mətbuatda göstərilirdi ki, R. Quliyevin gəlirlərinin əsas mənbəyi ölkənin neftayırma sahəsi olmuşdur. O, 1977-ci ildən 1993-cü ilədək neftayırma zavodunun baş direktoru olmuşdur. 1985-ci ildən, yəni neftayırma zavodlarının öz məhsullarını dünya bazarında satmalarına icazə verildiyi vaxtdan etibarən R. Quliyevin saxta kontraktlar və qondarma firmalar vasitəsilə əldə etdiyi gəlirlər onun şəxsi hesablarında yığılmağa başlamışdı. Onun dövlətə zidd fəaliyyətinin ən «coşqun dövrü» Ə.Elçibəyin hakimiyyəti dövrünə, daha doğrusu, ölkədə hakimiyyətsizlik dövrünə təsadüf etmişdi. Sonradan, dövlətçiliyin möhkəmlənməsi və sabitləşmə, neft sahəsində qayda yaradılması başlananda R.Quliyev ifşa ediləcəyindən qorxmağa başlamışdı.

Neft kontraktlarının hazırlanması zamanı R.Quliyevin əməlləri barədə vaxtilə İlham Əliyev belə demişdir: «Xarici neft şirkətləri və ARDNŞ-in nümayəndələri sübut edə bilərlər ki, Rəsul Quliyevin birbaşa göstərişi ilə 1993-cü ildə ARDNŞ «Azəri-Çıraq-Günəşli» layihəsi üzrə danışıqlar aparmaq hüququ Rəsul Quliyevin şəxsi dostu, başqa dövlətin vətəndaşı Marat Manafova verilmişdi. Rəsul Quliyev Azərbaycanın adından danışıqlar aparmaq üçün Marat Manafova verilən mandatı öz əli ilə imzalamışdır. Siz elə bir ölkə adı çəkə bilərsinizmi ki, orada ölkənin istər iqtisadi, istərsə də siyasi gələcəyi ilə bağlı ən vacib məsələnin həlli biznesmenə, həm də başqa ölkənin vətəndaşı olan şəxsə etibar edilsin?! Çox keçmədən xarici şirkətlər öz səfirləri vasitəsilə prezidentə müraciət edib bildirmişlər ki, Manafov kontraktın imzalanması üçün 300 milyon dollar rüşvət istəyir. Bu xəbərlərdən sonra Manafov daha Azərbaycanda görünmədi, yəqin ki, dostu işin şuluq olduğunu ona xəbər vermişdi. Bu əhvalatdan sonra danışıqları davam etdirmək ARDNŞ-ə həvalə edildi. Amma biz əslində hər şeyi təzədən başlamalı olduq. Çünki kontraktla əlaqədar Manafovun «razılaşdırdığı» şərtlər Azərbaycan üçün nəinki məqbul deyildi, hətta ölkənin bütün iqtisadiyyatı üçün çox ağır nəticələr verə bilərdi. Gətirdiyim bütün faktların hamısı təkzibedilməzdir». (Dirçəliş-XXI əsr. 1999. № 19. s.8-9).

Rəsul Quliyevin istefasına bilavasitə səbəb olan fakt onun Rusiyada çıxan «Новое время» jurnalına (1996, №32) verdiyi müsahibədə dövlətə zidd müxalifətçilərin leksikonuna xas olan ibarələrlə Azərbaycan dövlətçilərinin yeritdiyi xəttə qara yaxması olmuşdu. Bundan sonra Yeni Azərbaycan Partiyası Rəsul Quliyevin hərəkətlərini pisləyən bəyanat qəbul etdi. 1996-ci il oktyabrın 16-da Yeni Azərbaycan Partiyasının banilərindən biri, professor Murtuz Ələsgərov Milli Məclisin sədri seçildi. Bununla əlaqədar, müxalifət dairələrində gedən söz-söhbətlərin mahiyyətini təxminən belə ifadə etmək olar ki, M.Ələsgərovun dövründə Milli Məclis Prezidentin liberalizminə əlverişli fon yaratmağa başlamışdır, Milli Məclisin rəhbərliyi və deputatlar indi müxalifətin, onun mətbuatının və hətta Qərbin də ünvanına daha tez-tez hücumlar etməyi özlərinə rəva görürlər.

### 15. Siyasətin gücü və güc siyasəti: vəhdətin ahəngliyi

1996-cı il və 1997-ci ilin çox hissəsi 1995-ci ildə keçirilmiş parlament seçkilərində uğradığı ağır məğlubiyyətdən sonra özünə gəlməyə çalışan radikal müxalifətlə mübarizədə nisbi sakitlik ab-havası ilə əlamətdar oldu. Bu dövrdə müvafiq dövlət orqanları əsas diqqətlərini sanki kölgəyə çəkilmiş, lakin dövlətdən ötrü radikal müxalifətdən daha çox təhlükə mənbəyi olan qruplaşmaların fəaliyyətinə yönəltmişdilər. Məsələn, 1996-cı ilin əvvəllərində Ədliyyə Nazirliyi respublika Ali Məhkəməsinə müraciətlə Əmək Partiyasının və «Qardaşlıq» cəmiyyətinin fəaliyyətinin qadağan

olunmasını xahiş etmişdir. Ədliyyə Nazirliyi göstərirdi ki, bu təşkilatlar «legitim hakimiyyətə qarşı çıxışlar etmiş», terror aktları törətmilər. Qismən hərbiləşdirilmiş qurum olan «Qardaşlıq» cəmiyyəti Əmək Partiyası ilə əməkdaşlıq edirdi. Müraciətdə rəsmən bildirilirdi ki, bu təşkilatların hər ikisi hakimiyyəti silahlı yolla ələ keçirməyi öz qarşılarına məqsəd qoymuşdur.

1996-cı ildə özünü Azərbaycanın Demokratik Gənclər Təşkilatı adlandıran qurumun fəaliyyəti qadağan edildi. Bununla əlaqədar, Ədliyyə Nazirliyinin Ali Məhkəməyə müraciətində bilidirilirdi ki, həmin təşkilat bədnam Rövşən Cavadov tərəfindən yaradılmış və «qanunu pozaraq, mövcud quruluşun əleyhinə yönəlmiş siyasi fəaliyyətlə məşğul olmuşdur».

1996-cı ilin may ayında İslam Partyiasının rəhbərləri həbs edildi. Onlar İranın xeyrinə casusluq etməkdə və «Azərbaycanda islam inqilabı üçün şərait yaratmaqda» günahlandırılırdılar. İstintaq materiallarında göstərilirdi ki, bu məqsədlə respublikanın çağırış yaşlı gənc vətəndaşları qeyri-leqal yolla İrana göndərilir və orada Quranın əsaslarını öyrənməklə yanaşı, həm də xüsusi hərbi düşərgələrdə hazırlıq keçirdilər. Azərbaycanın xüsusi xidmət orqanlarının verdiyi məlumata görə, İslam Partiyasının fəaliyyəti İran tərəfindən maliyyələşdirilirdi. İslam Partiyasının rəhbərləri bu məqsədlə İran səfirliyinin bir sıra əməkdaşları ilə əlaqə saxlayırdılar. Həmin əməkdaşlar ifşa ediləndən sonra ölkəmizi tərk etdilər. İslam Partiyasının yeni rəhbərliyi Azərbaycan dövlətinə münasibətdə loyal mövqe tutduğunu bəyan etdi.

Rəsul Quliyevin fəal müxalifət sıralarına keçməsi təşviş doğuran hadisə idi. Fəxri yolasalma mərasimlərindən sonra o, müalicə olunmaq adı ilə əvvəlcə Türkiyəyə, oradan da ABŞ-a yola düşdü. R.Quliyev Azərbaycanın hüquq-mühafizə orqanlarının səlahiyyət dairələrindən kənarda III Respublikanın iqtidarda olan qüvvələrini planlı şəkildə tənqid etməyə başladı. O bildirirdi ki, guya Prezident ölkə iqtisadiyyatının səviyyəsini qaldırmaq iqtidarında deyildir və bunu necə etmək lazım olduğunu bilmir. Belə çıxırdı ki, guya Quliyev Prezidentdən çox bilir.



Sabiq spiker Azərbaycanın bir sıra müxalifətçi siyasi xadimləri ilə əlaqələrini tənzimlədi və öz partiyasını – teatrlaşdırılmış etiraz aksiyaları keçirən Azərbaycan Demokrat Partiyasını (ADP) yaratdı. O, müxalifət düşərgəsində ən mühüm fiqurdur. Partiyanın rəhbərliyində onun tərəfdarları var və həqiqi dövlətçilərə düşmən olan strukturları o maliyyələşdirir.

Rəsul Quliyevin bu cür açıq-aşkar düşmənçilik hərəkətlərinə müvafiq cavab verildi: 1997-ci ilin dekabr ayında Milli Məclis onu deputat səlahiyyətlərindən məhrum etdi, hüquq-mühafizə orqanları onun respublika Prezidentinə qarşı terror aktı hazırlaması barəsində ittiham irəli sürdülər. Azərbaycan mətbuatında Quliyevin maliyyə fırıldaqları barədə məlumatlar dərc edildi. Quliyevin xarici ölkələrin banklarındakı hesablarında bir neçə yüz milyon dollar məhz bu əməllər nəticəsində vəsait toplanmışdır. Çox güman ki, bu məlumatlar müxalifətçilərin qəlblərini coşdurmuşdu.

Bu hadisələr fonunda 1997-ci il oktyabrın 30-da Ə.Elçibəyin guya «ölkədəki bütün demokratik qüvvələri birləşdirmək naminə» paytaxta qayıtması o qədər də əhəmiyyətli fakt deyildi, çünki hətta müxalifət də elə güman edirdi ki, Ə.Elçibəy sanballı nüfuz sahibi deyil. O, müsavatçı-cəbhəçilərin hakimiyyətdə olduğu dövrdə çox pis ad çıxarmış siyasətçilərin əhatəsində idi.

## 16. Heydər Əliyevin növbəti zəfəri

1995-ci ilin parlament seçkiləri, yeni Konstitusiyanın qəbul edilməsi faktları Azərbaycan dövlətçiliyinin formalaşmasında mühüm, lakin aralıq mərhələ idi. Bu tarixi pro-

ses nisbətən çətin şəraitdə gedir. Çətinliklər təkcə ölkəmizin «nə müharibə, nə də sülh» vəziyyətində olması, ərazilərimizin işğal edilməsi, qaçqınlar, iqtisadiyyatın bərbad hala düşməsi, beynəlxalq mərkəzlərin Azərbaycan iqtisadiyyatını «qızıl milyardın» iqtisadiyyatına xammal daşıyıcısı kimi qoşması qəbilindən olan problemlərlə bitmir. Bütün bunlardan əlavə, ölkədə özlərini millətçi demokratlar adlandıran radikal müxalifətin infrastrukturu ilbəil genişlənməkdədir.

1998-ci ildə keçirilən prezident seçkilərində bu müxalifət və ona müxtəlif qoşmalar – hüquq-müdafiə təşkilatları, tez-tələsik qondarılmış «monitorinq» strukturları və hay-küyçü mətbuat cəmiyyətdə müxtəlif qalmaqallar törədirlər. Bu cür davranış xətti belə bir mühüm faktı kölgədə qoymalı idi ki, həmin müxalifət liderləri hamısının reytinqini bir yerə cəmləyib yeganə namizəd irəli sürəcəkləri halda belə, xalq sevgisi uğrunda Heydər Əliyevlə yarışda onların qalib gəlmək şansına malik olduqlarını güman etmək ciddi deyildir. Bununla belə, biz əminik ki, 1993-cü ildə keçirilmiş prezident seçkilərindən bəri sözün geniş mənasında iki partiya arasında – dövlətçilərlə «bazarçı»-psevdoliberallar arasında mübarizə gedir.

Xaricdəki qüvvələr qarşısında gizli mənəvi öhdəliklərinə görə həmin qüvvələrlə bağlı olan müxalifətçi partiyalar məhdud şüarlar söyləmək və yalan vədlər verməklə kifayətlənirdilər. Siyasi azadlıqların təmin edilməsi və genişləndirilməsi barədə çağırışlar, başlıca olaraq, yalnız ziyalıların və biznesmenlərin bir qismində əks-səda doğururdu. Liberal-kompradorların xüsusi bir canfəşanlıqla müzakirə etdikləri mətbuatda senzurun ləğv edilməsi, radio və televiziyadan istifadə imkanı, partiyaların fəaliyyət azadlığı və digər problemlər bu insanların ideoloji nadanlığını, həmin problemləri aktuallaşdırmağa çalışdıqları ölkənin mənəvi mədəniyyətindən bixəbər olduqlarını göstərirdi. Axı bu mühakimələrdə xalqı xilas etmək ideyası məkrli bir şəkildə fərdi özünüifadə ideyası ilə əvəz edilirdi.



Xalqın əksəriyyəti radikalların «polis rejimi» deyə lənətlədikləri idarə edilən demokratiyaya üstünlük verirdi. Azərbaycan cəmiyyətində şüurun xüsusi bir vəziyyəti var. Sovet dövründən miras qalmış bu vəziyyət xalqın tərəqqiyə, iqtisadi yüksəlişin həlledici əhəmiyyətə malik olmasına inamı ilə, sürətli dəyişikliklərə uyğunlaşmağa hazır olması ilə xarakterizə olunur, bu şərtlə ki, ölkədə «sıx» həmrəylik münasibətlərinin təməlini təşkil edən güclü, lakin ədalətli hakimiyyət olsun.

Müxalifətin iqtidarı korrupsiyada ittiham etməsi onun «müharibəsində» ən güclü istiqamət idi: «Respublikada korrupsiyanın artması göz qabağındadır», «Azərbaycan hökuməti hədsiz dərəcədə korrupsiyaya qurşanmışdır, hamı da bilir ki, əsas korrupsiyaçılar bəzi yüksəkvəzifəli şəxslərdir». Müxalifət qəzetlərində dərc edilən bu tipli bəyanatlarda yumordan əsər-əlamət yox idi. Həmin qəzetlər dünya miqyasında korrupsiyanın vəziyyətini əks etdirən cədvəllər dərc edir, sonra da, idman şərhçilərinə xas olan azartla həmin cədvəldə ölkəmizin tutduğu yeri göstərirdilər. Bu «vətənpərvərlər» heç fikirləşmirdilər ki, onlar əslində korrupsiyanın çox geniş yayıldığı ölkələrin rüşvətxorluq barədə broşuralarını təşviqat ədəbiyyatı dilinə «tərcümə edirlər». Bizim «ifşaçılar» bir faktı çox sevdikləri elektoratdan gizlədirlər ki, onların verdikləri rüşvətlərin məbləği sivil ölkələrin firmalarının vergi deklarasiyalarında rəsmən «nümayəndəlik xərcləri» və sair məsrəflər kimi qələmə verilir. Heydər Əliyev, əvvəlki illərdəkindən fərqli olaraq, belələri ilə polemikaya girişmir, bu illər ərzində əsasən uğurla seçdiyi idarəetmə işçilərinin səriştəsinə ümid bəsləyirdi.

Müxalifət Prezidentin «sağlamlıq faktorunu» əldə bəlgə edərək, H.Əliyevin bundan sonra da ölkəyə rəhbərlik etmək üçün fiziki imkanlarını şübhə altına alırdı. 1998-ci ilin yanvar ayında H.Əliyev 10 gündən artıq Türkiyədə, hərbi qos-

pitalda müalicə olundu, həmin ilin aprel ayında ABŞ-da səfərdə olarkən orada xəstəxanada yatmalı oldu. Bu, Azərbaycan elitasının müəyyən qismi üçün əsl sınaq dövrü idi. Müxalifətin kəskin təzyiqi şəraitində Yeni Azərbaycan Partiyasının bir neçə üzvünün bu partiyadan çıxması elita sıralarında parçalanma barədə şayiələrin güclənməsinə səbəb oldu. 1998-ci il yanvarın 22-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) məruzəçiləri J.Bomel və C.Kolerfayt Bakıya gəldilər. Bu məmurlara tapşırıq verilmişdi ki, Azərbaycanda insan hüquqlarının vəziyyəti barədə yekun sənəd hazırlasınlar. Prezident onlara bildirdi ki, Azərbaycan qanunvericiliyi yaxın 2-3 ildə Avropa standartlarına maksimal dərəcədə yaxınlaşdırılacaqdır (bax: Ə.Həsənov. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). Bakı, 2000).

Yanvarın 29-da Prezident Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın gücləndirilməsi tədbirləri barədə sərəncam imzaladı. Sərəncama əsasən, Prezident yanında hüquqi islahatlar komissiyasına tapşırılırdı ki, AŞPA ekspertlərinin köməyi ilə Polis haqqında, Prokurorluq haqqında, Vəkillik haqqında, Notariat haqqında, Bələdiyyələrin statusu haqqında və s. qanun layihələrinin «eskizlərini» hazırlasın, Cinayət Məcəlləsinin, Cinayət-prosessual Məcəllənin və Mülki-prosessual Məcəllənin Avropa ölkələrində qəbul edilmiş standartlara müvafiqliyi təmin edilsin. Fevralın 6-da Prezident «Azərbaycanda ölüm hökmünün ləğv edilməsi haqqında» öz müraciətini Milli Məclisə göndərdi, fevralın 22-də isə «İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında» Fərman imzaladı. 1998-ci il aprelin 27-də Prezidentin İcra Aparatı «Azərbaycan Respublikasının Prezidentinin seçkiləri haqqında» qanun layihəsini Milli Məclisə təqdim etdi. Qızğın debatların gedişində (mayın 1-dən iyulun 9-dək) müxalifət həmin qanun laiyhəsinə ultimativ formada bir neçə düzəliş təklif etdi və hədə-qorxu gəldi ki, həmin düzəlişlər qəbul edilməyəcəyi təqdirdə müxalifət seçkiləri boykot edəcəkdir.



Bu layihə ABŞ Milli Demokratiya İnstitutunda və ATƏT-də ekspertizadan keçdi. ATƏT ekspertlərinin fikrincə, «əgər seçkilər haqqında qanun peşəkarlıqla, qərəzsiz və vicdanla tətbiq edilsə, bildirilmiş iradlar Mərkəzi Seçki Komissiyasının təlimatlarında və qaydalarında öz əksini tapsa, Azərbaycanda qarşıdakı prezident seçkilərini ATƏT-in tələblərinə müvafiq şəraitdə keçirmək üçün zəruri şərait yaradılacaqdır. Layihənin 59 maddəsindən 32-nə düzəlişlər və dəqiqləşdirmələr edildikdən sonra Milli Məclis «Azərbaycan Respublikasının Prezidentinin seçkiləri haqqında» Qanunu qəbul etdi. Lakin müxalifət gərginliyi artırmaq strategiyasını həyata keçirməkdə idi. Ə.Elçibəy, İ.Qəmbər, L.Şövkət, İ.İsmayılov və R.Quliyev müxalifətin iqtidarla qeyri-bərabər şəraitdə qoyulmasını iddia edərək, bəyanat verdilər: «mürtəce qanunlar əsasında keçirilən seçkilərə boykot elan edirik».

«Çağ» qəzetinin redaksiyasında baş vermiş insident göstərdi ki, müxalifət sıralarında polemikanı küçələrə yönəltmək barədə fikirləşirlər. Sonrakı hadisələr göstərdi ki, bu əhval-ruhiyyə çox qısa bir vaxtda hər şeyə hazır olan insan kütlələri şəklində maddiləşmişdi. Gərginlik strategiyası radikal müxalifətçilər üçün çox sərfəli idi, çünki onlar gözləyirdilər ki, müəyyən strukturlar bu məsələlərə kənardan müdaxilə edəcək və onlar iqtidarın daxili enerjisini tükəndirəcəklər. Məlum olduğu kimi, Belqradda bu strategiyadan istifadə edilmiş, orada bacarıqla istiqamətləndirilən etiraz dalğası ölkənin qanuni hakimiyyətini devirmişdi. Lakin nəzərə almaq lazımdır ki, 1998-ci ildə baş vermiş kəsikn siyasi münaqişələr iqtidarda olan elitanın «zərbəni dəf etmək» qabiliyyətinə səmərəli təsir göstərmişdi. Bundan əlavə, müxalifətin hücumları iqtidar nümayəndələrinin beynində modernləşmə ilə bağlı belə bir həqiqətin kök salmasına şərait yaratmışdı: siyasi münaqişələr, əgər onlar qanun çərçivəsin-

də baş verirsə, partiyalar arasında, siyasi qruplar, siniflər və dövlətlər arasında hakimiyyət məsələləri ilə əlaqədar olan qarşılıqlı münasibətlərin normal, adi formasıdır.

Vəziyyətin dinamizmi intuisiyaya və təcrübəyə əsaslanan operativ qərarlar qəbul edilməsini tələb edirdi.

İyulun 6-da Heydər Əliyev seçkilərə beynəlxalq müşahidəçilərin dəvət edilməsi barədə sərəncam imzaladı. Prezident seçkilərin geniş müşahidə edilməsini «demokratik dəyişikliklər prosesinin və vətəndaşların seçki hüquqlarının həyata keçirilməsində mühüm addım» sayırdı. Buna görə də o, Azərbaycan Konstitusiyasını və «Azərbaycan Respublikasının Prezidentinin seçkiləri haqqında» Qanunu rəhbər tutaraq seçkilərin gedişinin müşahidə edilməsi üçün Milli Məclisə – «beynəlxalq parlamentlərarası təşkilatların və xarici ölkələrin parlamentlərinin nümayəndələrini»; Mərkəzi Seçki Komissiyasına «xarici ölkələrin seçki komissiyalarının nümayəndələrini»; Xarici İşlər Nazirliyinə - «beynəlxalq təşkilatların nümayəndələrini» dəvət etməyi təklif edir (Бакинский рабочий. 1998, 10 июля).

Bundan sonra Prezident növbəti təşəbbüsünü irəli sürdü – iyulun 10-da Milli Məclis Seçkilər haqqında Qanuna yeni düzəlişləri qəbul etdi. Lakin prezident vəzifəsinə 5 namizədin şəxsində müxalifət iyulun 14-də bəyan etdi ki, onların seçkiləri boykot etmək barədə qərarı qüvvədə qalır. «Demokratik Konqres»-in sədrlər şurası isə siyasi partiyaların qeydiyyata alınması, siyasi senzurun ləğv edilməsi; prezidentliyə namizədliyi ehtimal edilən şəxslərin (əlbəttə, Rəsul Quliyev nəzərdə tutulurdu) barəsində cinayət işlərinə xitam verilməsi və s. yeni tələblər irəli surdu.

1998-ci il iyunun sonunda iqtidar nümayəndələri müxalifətlə birbaşa dialoq keçirilməsini təklif etdilər. Bu praktika sonrakı dövrdə də davam etdirildi. Bir məqamı xüsusi qeyd edək ki, bu təşəbbüsün özü idarəetmə üslubunun «kütləvi siyasət» deyilən fenomenə doğru təkamül etməsini, eləcə də Prezident Heydər Əliyevin dövlət aparatının yüksək siyasi



fəaliyyət qabiliyyətinin təzahürü olan bilik və təcrübənin akkumulyasiya olunmasını təsdiq edirdi. Bu cür görüşlərin birincisi avqustun 3-də keçirildi. Dövlət İcra Hakimiyyəti Prezidentin İcra aparatının rəhbəri R.Mehdiyevin, şöbə müdirləri F.Ələsgərovun, Ş.Əliyevin və Ə.Həsənovun şəxsində təmsil edilmişdi. Müxalifət öz əvvəlki tələblərini yenə təkrar etdi və daha iki yeni tələb irəli sürdü – MSK paritetlik əsasında (iqtidar-müxalifət) formalaşdırılmalı, namizədlərin dəstəklənməsi üçün imza toplanması müddətləri artırılmalıdır. Bu tələblər qəbul edildi. Avqustun 4-də keçirilən ikinci görüşdə iqtidar nümayəndələri bildirdilər ki, onlar MSK-da Prezident kvotasından 4 yeri demokratik hərəkatları təmsil edən partiyalara verməyə hazırdırlar, Milli Məclis isə öz kvotasından onlara daha bir yer verməyə hazırdır. İqtidar nümayəndələri imza toplanması müddətinin 10 gün uzadılmasına razılıq verdilər. İqtidarın bu diplomatik priyomu uğurlu oldu, çünki sonralar – müxalifət yeni tələblər irəli süréndə çoxları başa düşdü ki, «demokratlar»ın məqsədi – əsəbləri gərginləşdirmək, destruktivlik səviyyəsini artırmaq və nəticə etibarilə, seçkiləri qeyri-legitim hesab etməkdir.

Prezident vəziyyəti tam aydınlaşdırmaq üçün 1998-ci il avqustun 4-də Ə.Elçibəyə, L.Şövkətə və İ.Qəmbərə məktubla müraciət etdi. Məktubda deyilirdi: «mən Azərbaycanın Prezidenti kimi, növbəti prezident seçkilərənin keçirilməsində öz məsuliyyətimi dərindən başa düşərək bildirirəm ki, sizin nümayəndələrinizə bizim təqdim etdiyimiz şərtlər qüvvədə qalır. Güman edirəm ki, siz də, siyasi partiyaların liderləri kimi, mənim bu dəvətimə Azərbaycanın ümumxalq milli mənafeyi məsələsi və dövlətimiz üçün taleyüklü məsələ kimi yanaşacaqsınız» (Azərbaycan. 1998, 6 avqust). Prezident seçkilərin «taleyüklü» olmasını başa düşdüyünü əməli işlə də sübut etməyə hazır olduğunu təsdiq etmək üçün avqustun 7-də Azərbaycanın mətbuat orqanları üzərində senzurun ləğv edilməsi barədə Fərman imzaladı. Bu, xalis rəmzi xarakterli tədbir idi, çünki hələ cəbhəçilərin dövründə

tətbiq edilmiş senzur, əslində mövcud deyildi. Bu məqamda bir daha aşkar oldu ki, müxalifətin mübarizəsi seçkilərin prosedur qaydaları baxımından düzgün keçirilməsindən daha ciddi məqsədlər güdür. Müxalifət, adəti üzrə, öz korporativ maraqlarını ümumdövlət maraqları kimi qələmə verərək, məhz «öz» tələblərinin ödənilməsində israr edirdi.

Seçki prosedurları ilə əlaqədar Heydər Əliyevin rəftarı çox ibrətamizdir. Qəzetlərdə Prezidentin bu vəzifəyə yenidən seçilmək üçün öz namizədliyini irələi sürməsini xahiş edən vətəndaşların çoxsaylı müraciətləri dərc edilirdi, o isə üzün müddət öz namizədliyini irəli sürməkdən imtina etdi. Bu faktın etik mənası belə idi: Prezident öz həmvətənlərinin idarəsini nəzərə alır və eyni zamanda, xalqın bütün həyat təcrübəsi ilə formalaşmış və sınaqdan çıxarılmış normalara riayət edir.

Bu cür davranışı fərdiyyətsilik adlandırmaq olmaz, əksinə, bu, tradisionalizmə və deməli, kollektivçiliyə əsaslanan davranışıdır, Azərbaycan mentalitetindən irəli gələn davranışdır. Bu halda hər bir insan öz cəmiyyətinin normalarının daşıyıcısı hesab edilir. Onun hərəkətləri cəmiyyət tərəfindən qabaqcadan müəyyənləşdirilməli və bəyənilməlidir. Şəxsiyyətin tradisionalist anlamının əksinə olaraq, liberal-modernist anlama görə, insan bütün varlığın meyarı kimi, özünə bənzərlər arasında atom kimi təqdim edilir. İnsana bu cür tərif verilməsi Qərbin ideologiyasına çevrilmişdir. Bu ideoloqlar lap yaxşı bilirlər ki, insan öz-özlüyündə nə «meyar» ola bilər, nə «məna», nə də «atom». İnsan tarixi və sosial varlıqdır, onun təbiəti konkret cəmiyyətin – Şərq cəmiyyətinin, islam cəmiyyətinin, pravoslav cəmiyyətinin, Qərb cəmiyyətinin, katolik cəmiyyətinin və başqa cəmiyyətlərin təsirlərinin kombinasiyasıdır.

Bütövlükdə bizim milli dövlətçi elitamız kökləri islam dəyərlərinə bağlı olan mentallığa malikdir. Sivilizasiyalı müsəlman ideologiyası isə dünyada dövlətçiliklə ən sıx bağlı olan ideologiyadır. Dövlətin və bazarın əzəli və hər yerdə geniş yayılmış mübarizəsində bu ideologiya, əsasən, dövlətin tərəfindədir. Bundan əlavə, o, icma prinsiplərinə çox böyük əhəmiyyət verir. Bir məsələni qeyd etmək yersiz olmazdı ki, Heydər Əliyevi görkəmli dövlət xadimi kimi səciyyələndirən cəhətlərdən biri də idarəetmə praktikasında kadrların seçilməsi və tərbiyə edilməsi məsələrinə çox böyük diqqət yetirməsidir. Preztdentə xas olan bu keyfıyyətlər suveren milli dövlət quruculuğunun gedişində daha qabarıq şəkildə təzahür edir (bax: S.Qəndilov. Milli dövlətçiliyimizlə əlaqədar dərin elmi təhlil. // Respublika. 2003, 28 fevral).

Heydər Əliyevin namizədliyi ilk dəfə 1998-ci ilin aprel ayında «Ana Vətən» partiyasının qurultayında irəli sürüldü. Qurultayın bu barədə qərarında deyilirdi: «Azərbaycanda prezidentliyə Heydər Əliyevdən güclü və təcrübəli namizəd yoxdur». Lakin Prezident öz namizədliyinin irəli sürülməsinə razılıq vermədi. Bəlkə də ona görə ki, partiya – sosiumun yalnız bir hissəsidir. Buna görə də, yalnız Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) qurultayının nümayəndələri onu 1993-cü ildə başladığı işi davam etdirməyə çağıranda Prezident bu təklifi minətdarlıqla qəbul etdi. 1998-ci ilin avqustun 11-də Heydər Əliyev respublika televiziyası ilə xalqa müraciət edərək, ilk dəfə öz qərarını elan etdi. 1998-ci ilin avqust və sentyabr aylarında müxalifət ölkədə vəziyyəti gərginləşdirmək stategiyasını həyata keçiridi. Məlum olduğu kimi, bu dövrdə küçələrdə iğtitaşlar baş verirdi «demokratlar» iqtidarın qanun çərçivəsində qalmaq qabiliyyətini sınağa çəkmişdilər. 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə qeydiyyata alınmış seçicilərin 79,18 %-i (ümumi sayı 4,3 milyon nəfər olan seçicilərdən 4,4 milyon nəfəri) iştirak edirdi. Ölkədən müvəqqəti getmiş seçicilərin səsvermədə iştirnak etməsinə imkan yaratmaq üçün Türkiyəd, İranda, Misirdə, Almaniyada, Böyük Britaniyada, Rusiyada Gürcüstanda seçki məntəqələri yaradılmışdı. Bir sıra ölkələrdə, o cümlədən ABŞ-da, Çində, Fransada və başqa ölkələrdə səsvermə keçirilməsi üçün məsul şəxslər təyin edilmişdi.

Heydər Əliyev 76,11 % səs topladı. Səslərin faizinin bu qədər yüksək olması onu göstərirdi ki, Prezidentin fəaliyyəti əvvəlki kimi yenə cəlbedicidir, çünki bu fəaliyyət çox geniş miqyasa malikdir. Cəmiyyətin böyük əksəriyyətinin Prezidenti dəstəkləməsi faktı beynəlxalq təşkilatlar tərəfindən aparılan yoxlamaların nəticələrində də öz əksini tapdı. ATƏT-in Demokratik İnstitutlar və İnsan Hüquqları Bürosunun 11 noyabr 1998-ci il tarixli rəyində göstərilirdi ki, «seçki məntəqələrinin əksəriyyətində səsvermə və səslərin hesablanması prosedurları sakit, mütəşəkkil və ümumiyyətlə, korrekt qaydada keçmişdir (Бакинский рабочий. 1998, 14 ноября). Noyabrın 15-də ABŞ-ın respublikaçılar və demokratlar partiyalarının nümayəndə heyəti seçkilərdə səsvermənin məxfiliyinin «lap ABŞ-da olduğu kimi» təmin edilmiş olmasından razı qaldıqlarını bildirdi (Вышка. 1998, 25 ноября).

Küçələrdə icazəsiz etiraz nümayişlərini bərpa etmək cəhdinin qarşısı polis tərəfindən alındı. 1998-ci noyabrın 10-da Milli Məclis bu cür aksiyaları Azərbaycan dövlətçiyinə qarşı təxribat kimi qiymətləndirdi. Parlament hüquq-mühafizə orqanlarına tapşırdı ki, ictimai asayişin və sabitliyin pozulmasına yönəlmiş, milli mənafelərə zidd olan hərəkətlərin qarşısını almaq üçün tədbirlər görülsün. Ədliyyə Nazirliyi, Mətbuat və İnformasiya Nazirliyi KİV-də böhtan, təxribat xarakterli və yoxlanılmamış məlumatların dərc edilməsinə yol verməmək üçün müvafiq tədbirlər görməli idilər. Parlament hüquq-mühafizə orqanlarından tələb etdi ki, Konstitusiyanın 106-cı maddəsinin və Prezidentin şərəf və ləyaqətliyinin qorunması haqda Qanunun maddələrinin tələblərinə riayət edilməsi təmin edilsin.

Ə.Elçibəy Prezidentin şərəf və layaqətinə qəsd etməkdə ittiham üzrə məhkəməyə cəlb edildi. Lakin H.Əliyev lütfkarlıq göstərdi və bu işə xitam verildi. Milli Məclis hökümət müəssisələrindən 300 metrdən yaxın məsafədə aksiyalar keçirilməsini, həmçinin bu cür aksiyaların seçkilər, referendumlar və ümummilli bayram günlərində təşkil olunmasını qadağan edən qanun qəbul etdi. Heydər Əliyev müdrik dövlət başçılarına xas olan əzmkarlıq və qətiyyət nümayiş etdirir, lakin o, qüvvəsinə görə nəinki qürrələnmir, əksinə, müxalifətlə dialoqa hazır olduğunu göstərirdi. Prezident deyirdi: «Azərbaycanda qarşıdurma meyllərinin qarşısı alınmalıdır... yaranmış sabitliyi daha da möhkəmlətmək lazımdır, çünki bu, Azərbaycanın mövcudluğu üçün, onun müstəqilliyinin qorunması üçün ən başlıca şərtdir. (Бакинский рабочий. 1998, 25 ноября). Prezident belə bir iş formulası təklif etdi: ilkin şərtlər təqdim edilmədən, hörmətlə dialoq aparılmalıdır.

## 17. Demokratiyanın və insan hüquqlarının sirkulyar cazibəsi

90-cı illərin axırları beynəlxalq təşkilatlar tərəfindən aparılan «monitorinqləşdirmənin» artması ilə səciyyəvidir. Bu tədbirin «zəruriliyi» ATƏT-in, AŞPA-nın və digər beynəlxalq təşkilatlarının bəyanatlarında rəsmən izah edilirdi. Yaxşı müşahidə qabiliyyətinə malik olan müasirlərimiz respublikamıza diqqətin nəyə görə bu qədər artması barədə sualların cavabını sivil cəmiyyətə inteqrasiya etməyin, totalitarizm qalıqlarından xilas olmağın, dünyəvi, hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti qurulmasının zəruri olması barədə gurultulu nitqlərdə tapırdı. 80-ci illərin axırlarında müstəqillik, dünyəvi, demokratik, milli dövlət qurmaq ideyaları siyasi romantizmin özəyini təşkil edirdisə, 90-cı illərin axırlarında bu ideyalar müvafiq beynəlxalq öhdəliklərin paraqraflarına və bəndlərinə çevrilirdi və həmin öhdəliklərə danışıqsız riayət olunmasını təmin etmək üçün avropalı emissarlar tərəfindən təftiş yoxlamaları aparılmalı idi. Bu emissarların hər dəfə ölkəmizə gəlişi bizim dövlətçi iqtidarın – öz motivləri və öz identikliyi əsasında ölkəni modernləşdirməyə çalışan iqtidarın ideoloji təmizliyinin

«ölçülməsi» demək idi. Azərbaycan dövlətçiləri onlardan xüsusi həssaslıq və uzaqgörənlik tələb edən gərgin vəziyyətə düşmüşdülər. «Tranzisiya» deyilən dövrün, XX əsrin sonu ilə XXI əsrin əvvəlinin qovuşuğu dövrünün sərt həqiqətləri belədir.

## 18. «Azərbaycana kənardan təzyiq göstərilir»

Get-gedə daha çox aydın olurdu ki, sistemdənkənar müxalifət partiyalarının mövcudluğunun mənası yoxdur, çünki bu partiyaların insan resursları yoxdur və həmin partiyalar Elçibəyin özünə tərəfdar hesab etdiyi «binəsib insanların 95%-ni» öz tərəflərinə cəlb edə bilməzdilər. Cəbhəçi-müsavatçılar düşərgəsindən olan xadimlərinin «tədqiqat» və «maarif» mərkəzləri təşkil etmək üçün, cılız jurnalların nəşri üçün, «demokratik» layihələrin həyata keçirilməsi üçün qrantlar alması, müəyyən yönümlü mifləri yaymaq üçün «treninqlər» təşkil etməsi, broşüralar təsis etməsi onlara daha sərfəli idi. Hərçənd, Yuqoslaviyada, Əfqanistanda və xüsusən İraqda baş vermiş məlum hadisələrdən sonra onlar özləri də bu cür miflərə çox inanmırlar. Müxalifət liderlərinin çoxu ölkə daxilində real dəstək qazana bilmədikləri üçün ABŞ-ın və Qərbi Avropa ölkələrinin siyasətçiləri ilə, beynəlxalq təşkilatlarla, xüsusən hüquq-müdafiə təşkilatları ilə kontaktlara ümid bəsləyirdilər. Artıq xeyli vaxtdır ki, onlar bu cür əlaqələri möhkəmləndirməklə «İks saat»ının gəlib çatacağına çox ümid edirlər. Siyasətbazların hakimiyyət barədə mənəviyyatsız xülyaları belədir.

Azərbaycanda demokratiyanın və insan hüquqlarının vəziyyəti ilə maraqlanan müxtəlif institutların və fondların dəvəti ilə səfərlər zamanı müxalifət liderlərinin davranışı onların iç üzünü açıb göstərir. AXCP funksionerlərindən biri olan A.Mollazadə 1999-cu il mart ayında ABŞ-da olarkən orada çoxsaylı görüşlər keçirmiş, həmin görüşlərdəki çıxışlarında «Azərbaycana kənardan təzyiq göstərilməsi» məsələsinə birinci dərəcəli əhəmiyyət vermişdi. O, «Azərbaycanda sabitliyin və inkişafın yalnız demokratiya çərçivəsində mümkün olduğunu hesab edən Xalq Cəbhəsi Partiyasının mövqeyini» Amerikanın siyasi dairələrinin diqqətinə çatdırmışdı. Mollazadə ölkənin «Avro-Atlantika məkanına inteqrasiyası» ilə bağlı aktual problemləri də müzakirə etmiş və böyük məmnuyyətlə qeyd etmişdi ki, ABŞ-ın siyasi dairələrində «Azərbaycan artıq təkcə neft mənbəyi kimi deyil, həm də dünya xəritəsində mühüm geostrateji mövqe tutan bir dövlət kimi qəbul edilir» (Yeni Müsavat. 1998, 24 iyun).

1998-ci il martın əvvələrində ABŞ-ın hökümət təşkilatlarından biri ABŞ İnformasiya Agentliyi «Müsavat» partiyasının başqanı İsa Qəmbəri dəvət etmişdi. İsa Qəmbər iki həftə ərzində Amerika bomonduna aid şəxslərlə görüşmüş və onların diqqətini Azərbaycanın problemlərinə cəlb etmişdi. 1999-cu ilin yayında Etibar Məmmədov ABŞ-da oldu. Orada onu yaxşı qarşıladılar. Bu o demək idi ki, amerikanlar AMİP-i qərb «demokratiyasının standartları»na cavab verən müxəlifətçi qüvvə hesab edirlər.

Azərbaycana rəhbərlik etmək iddiasında olan başqa bir namizəd Rəsul Quliyev isə ABŞ sakinidir və Azərbaycanla peşəkar səviyyədə məşğul olan amerikanlar onu yaxşı tanıyırlar. Amerikan analitiklərinin nəzərincə, bütün bu namizədlərin hər birinin problemləri var və görünür, onların əsas problemi bundan ibarətdir: Konstitusiya normalarını pozmadan prezident vəzifəsini tutmaq üçün elektoratın nəzərində onların mənəvi statusu kifayət qədər yüksəkdirmi, onlar «həqiqi» və «düzgün» modernləşdirməni həyata keçirməyə və bu halda hakimiyyəti əldə möhkəm saxlamağa qadirdirlərimi?

## 19. Bələdiyyə seçkiləri – dövlət hüquq sisteminin formalaşması

Dövlət qüuruculuğunun təkzibedilməz və qanunauyğun məntiqinə görə, Prezident son və qəti addım atmalı idi. Növbəti addım kimi, bələdiyyə seçkiləri keçirilməli idi, çünki yalnız bu halda Azərbaycan dövlətçiliyinin binası tamamlanmış olardı. AŞPA məmurları bələdiyyə hakimiyyətinin zəruri olmasını xatırladırdılar. Azərbaycan dövləti yalnız bu institusional elementin mövcud olacağı təqdirdə həmin təşkilata (Ermənistanla eyni zamanda) qəbul ediləcəyinə ümid bəsləyə bilərdi. Yerli özünüidarə strukturunun təsis edilməsi ona sanballı gəlir mənbələrinin verilməsi demək idi: dövlət mülkiyyətinin təqribən üçdə bir hissəsi – yollar, yerli nəqliyyat, kommunal xidmətlər, səhiyyə və təhsil sahələri, sosial və mədəni-məişət təyinatlı müəssisələr bələdiyyələrin tabeliyinə keçməli idi.

1999-cu ilin iyul ayında Heydər Əliyev bələdiyyə seçkilərinin tarixini elan etdi: bu seçkilərin dekabrın 12-də keçirilməlisni qərara aldı. Avqust ayında Rəsul Quliyevin partiyasının bir nümayəndəsi dedi ki, əgər ölkədə antidemokratik vəziyyət dəyişməsə sağçılar seçkiləri boykot edəcəklər. Quliyev özü seçkiləri boykot etmək zərurətini onunla izah edirdi ki, seçkilər saxtalaşdırılacaq və hətta iqtidarpərəst müxalifətin lehinə verilmiş səslər nəzərə alınacağı halda da müxalifət 20% səs toplaya bilməyəcəkdir (Azadlıq. 1999, 15 avqust). Bu qədər qətiyyətli ritorikanın təsiri ilə bir neçə partiya Quliyevin partiyası ətrafında sıx birləşməli idi. Elə buna görə də, 1999-cu il oktyabr əvvəllərində «Konstitusion seçkilər bloku» deyilən birlik yaradıldı. Onlar seçkilərdə iştirak etməməyə hazırlaşır və elektoratı da onlardan nümunə götürməyə çağıraraq deyirdilər ki, qarşıdakı seçkilər xalqın iradəsini real əks etdirə bilməz (Azadlıq. 1999, 12 oktyabr).

Bununla belə, 43 mindən çox namizəd bələdiyyə seçkilərində iştirak etmək üçün sifariş vermişdi. Bu namizədlərin 36 mindən çoxu qeydiyyatdan keçmişdi. Onların yarısı - 18 min nəfəri rəsmən siyasi partiyaları təmsil edirdi. Dekabrın 28-də MSK seçkilərin nəticələrini dərc etdi: seçicilərin 52,6 %-i səsvermə məntəqələrinə gəlmişdir. Xarici ölkələrin və beynəlxalq təşkilatların 36 nəfər müşahidəçisinin nəzarəti altında keçirilən seçkilərdə 26 partiya iştirak edirdi. 18 min deputat yerindən təqribən yarısı Respublikanın hakim siyasi sistemini təmsil edən Yeni Azərbaycan Partiyası tutmuşdur. Dövlətə zidd mövqe tutan radikal müxalifəti təmsil edən AXCP və Müsavat partiyaları, müvafiq sürətdə 754 və 618 yer ala bildilər.

III Respublikada seçki kampaniyalarının radikal müxalifətlə mübarizə şəraitində keçməsi artıq ənənəyə çevrilmişdir. Bununla əlaqədar, dövlətçilərin və «destruktiv» radikalların siyasət üslubları arasındaki fərqləri qeyd etmək yerinə düşər. Heydər Əliyev və onun davamçıları bir daha nümayiş etdirdilər ki, onların fəaliyyət üslubu – ənənələrə söykənməklə yenilikləri müxalifətə qəbul etdirmək üslubudur. Bu iş üslubu Prezidentin siyasətinin xalq tərəfindən yüksək dərəcədə dəstəklənməsi sayəsində mümkün olmuşdur. Prezident Aparatında və Parlamentdə qərarlar işlənib hazırlanması üçün standart prosedurların məcmusu kimi formalaşmış bu üslub ölkədə qayda-qanunun qorunub saxlanması üçün tətbiq olunan metodların qanuniliyini təmin edir. Bu üslub müxalifətin legitim prosedurlar çərçivəsində hakimiyyətə yiyələnməsinə şans vermir, çünki qiyamçılığa qarşı yüksək dərəcədə mütəşəkkil qüvvə tətbiq etməyin mükünlüyü həmişə nəzərdə tutulur. Müxalifətin siyasətinin üslubu isə seçkilər arasındakı dövrlərdə passivliyin və vəziyyəti «laxlatmaq» niyyəti ilə «qığılcım buraxmaq» kimi irrasional fəallığın simbiozudur. Müxalifətin iş üslubu onu göstərir ki, bu təşkilatlar öz təbiətinə görə, həmlə dəstələrinə oxşayırlar. 1998-ci və 2000-ci illərdə Prezident tərəfindən təklif edilmiş konsensus variantı iqtidarın iş üslubunun bir variantı olsa da, problemin fəal ifadə və həll edilmə-

sinə əsaslanır. Müxalifətdən olan liberallar isə bu variantı zəiflik əlaməti kimi qiymətləndirməyə çalışır və onu qəzəblə rədd edirlər.

### 20. Seçki döyüşləri, yaxud siyasi sistem haraya axınla hərəkət edir?

Qərb ölkələrində siyasi sistem konsensual demokratiyaya, saziş demokratiyasına tərəf səmtləndiyi halda, Azərbaycanda baş verən dəyişikliklər vektoru əks tərəfə yönəlmişdir. Hər dəfə seçkilər əslində dövlət üçün təhlükə mənbəyinə çevrilir. Bəlkə də bu vəziyyət İlham Əliyevin söylədiyi aşağıdakı fikirlə izah edilməlidir: «Böyük neftin böyük başağrı verə bildiyini inkar etmək mümkün deyil, məhz bu hallarda respublikaya rəhbərlik etmək bacarığı çox şeyi həll edir» (İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər. 1-ci kitab. Bakı. 1999, s.13). Bu gün biz psevdoliberal müxalifətin televiziyaya buraxılmış namizədlərinin tamaşaçılar qarşısında söyüş və demaqogiya, hədə-qorxu və yalanla dolu çıxışlar etməsinin və eyni zamanda, öz proqramlarının ideya spesifikası barədə susmalarının şahidiyik.

Parlamentə növbəti seçkilər yuxarıda deyilənləri əyani şəkildə nümayiş etdirdi. Əvvəlki illərdə olduğu kimi, yenə də əsas mübarizə Mərkəzi Seçki Komissiyası və onun namizəd partiyaları qeydiyyata almaq səlahiyyətləri səviyyəsində başlandı. Əvvəlcə seçkilərdə yalnız beş partiyanın iştirak etməsinə icazə verilmişdi, lakin sonradan, etiraf edək ki, kənardan göstərilən təzyiqin də təsiri olmaqla, Prezident 6 dekabr tarixli məktubla MSK-ya müraciət edərək, əvvəlcədən qeydiyyatdan keçmiş bütün partiyaların seçkilərdə iştirak etmələrinə icazə verililməsini xahiş etdi. Bununla əlaqədar, ABŞ Dövlət Departamentinin 5 noyabr tarixli bəyanatı diqqəti cəlb edir. Bəyanatda göstərilirdi ki, Müsavat partiyasının və ADP-nin seçkilərdən kənarlaşdırılması və onların proporsional siyahılarını qeydiyyatda almaqdan imtina edilməsi «azad və ədalətli parlament seçkiləri keçirilməsinə təhlükə yaradır». Fransa, Almaniya, İtaliya səfirlərinin, həmçinin ATƏT-in bəyanatlarında da bu cür çağırışlar və narahatlıq ifadə edilirdi.

2000-ci ildə keçirilən seçkilər zamanı ölkəni idarə edən dövlətçilər hakimiyyət sistemini sabitləşdirməyə, stabil mənəvi-siyasi resupslar, maliyyə və informasiya resupsları axınını təşkil etməyə müvəffəq oldular. Sistem daha da mürəkkəbləşmiş və çevikləşmişdi və buna müvafiq surətdə o, istər daxildən vurulan zərbələri, istərsə də xaricdən göstərilən təzyiqi amortizasiya etdirirdi. Dövlət elitası, ilk növbədə, «evdəki» radikalların cəhdlərinə siyasi rejimi hakimiyyətin və siyasi təsisatların «etalon» təşkilati formalarını sürətlə tətbiq etməyə məcbur etmək cəhdlərinə müqavimət göstərir. Eyni zamanda elita müvafiq novasiyalar tətbiq edir ki, demokratiyaya xas olan, kadrların şaquli səfərbərlik proseslərinin arası kəsilməsin. Məsələn, bu seçki kampaniyasında Yeni Azərbaycan Partiyasının tətbiq etdiyi uğurlu həllər partiyalararası rəqabətdə onun üstünlük əldə etməsinə imkan yaratdı. Prezidentin varisi hesab edilməyə başlanmış İlham Əliyev partiyanın yeni siyahısında 1-ci yeri tutdu.

Eyni zamanda radikallar düşərgəsində qüvvələrin yenidən qruplaşdırılması prosesi gedirdi. Cəbhəçilərin lideri Ə.Elçibəyin qəflətən vəfat etməsi faktı, bəlkə də, bu prosesə bilavasitə təkan verən amil olmuşdu. Bu vaxtdan etibarən, AXCP sıralarında, onunla birlikdə isə müxalifətçi qüvvələrin əsas alyansı olan «Demokratik konqres»də parçalanma başlandı. AXCP-nin fraqmentlərə bölünməsi, eləcə də Sosial-demokrat partiyasında Zərduşt Əlizadə və Arzu Abdullayevanın tərəfdarlarının bu partiyanın sıralarını tərk etmələri süni proseslər idi.. Elə bil kimsə bu siyasətçiləri bir dəst oyun kartı kimi qarışdırır. Azərbaycan uğrunda gələcək döyüşlərdə praktiki əhəmiyyəti az olan və nə edəcəklərinə etibar olmayan kadrlar ələkdən keçirilib saf-çürük edilir...

Mərkəzi Seçki Komissiyasının 5 noyabr 2000-ci ilə olan məlumatına görə, seçkilərdə 2,8 milyon nəfər və ya səsvermə

siyahılarına daxil edilmiş seçicilərin 68%-i iştirak etmişdir. Əvvəlki seçkilərdən fərqli olaraq, bu dəfə MSK daha tələbkar idi. Belə ki, 95 seçki məntəqəsində səsvermənin nəticələri düzgün hesab edilmiş, 4 seçki məntəqəsində isə seçkilərin nəticələri ləğv edilmişdi. Noyabrın 15-də MSK öz məlumatlarını Konstitusiya Məhkəməsinə təqdim etdi: 4 siyasi partiya 6 %-lik həddi aşa bilmişdir. İkinci parlament seçkləri hakimiyyət sisteminin «partiyalaşmasını» nümayiş etdirdi. Yeni Azərbaycan Partiyası «dominant» tipli partiya olduğuna görə partiya-siyasi sistem, məsələn Yaponiyada olduğu kimi, «biryarım» sisteminə xas olan cəhətlər kəsb edir. 2003-cü ildə keçirilmiş referendum nəticəsində partiya siyahıları üzrə seçkilər ləğv edildiyinə baxmayaraq, «partiyalaşma»nın xarakteristikaları gələcək üçün qalmaqdadır. Parlament seçkilərinin gedişinə AŞPA-nın, ATƏT-in, MDB-nin Parlamentlərarası Assambleyasının, RF Dövlət Dumasının, Federasiya Şurasının və MSK-nın, ABŞ Milli Demokratiya İnstitutunun nümayəndələri, ABŞ-dan, Türkiyədən, İrandan, Yunanıstandan və başqa ölkələrdən olan müşahidəçilər nəzarət edirdilər. Onların ümumi qənaəti belədir: seçkilərdə qanun pozuntusu halları olmuşdur, lakin Respublika demokratiya yolu ilə irəliləyir. Müxalifət seçkilərin «total saxtalaşdırılmasından», «oyuncaq parlamentdən» dəm vururdu. 2000-ci noyabrın 18-də müxalifət 20 min nəfərin iştirakı ilə etiraz mitinqi keçirdi. Belə güman etmək olar ki, müxalifət seçkilərin nəticələrinin ləğv olunmasını heç də ciddi tələb etmirdi, çünki ö özü də başa düşürdü ki, hər hansı seçki elektoratın üsünlük verdiyi dəyərlərin strukturu ilə yanaşı, həm də hər bir iqtidarın və hər bir müxəlifətin malik olduğu resursların balansını əks etdirir.

Liberal müxalifətin hərəkətlərinin təhlükəli cəhəti ondan ibarətdir ki, siyasi rejim «daimi qeyri-sabitlik» vəziyyətinə düşərək, gənc «dövlət milləti» (F.Meyneke) üçün nicat yolu olan həmrəylik qabiliyyətini itirə bilər. H.Hegel yazırdı: «Bir dəstə insan özünü yalnız o halda dövlət adlandıra bilər ki, onlar öz mülkiyyətinin məcmusunu birgə müdafiə etmək üçün birləşdirilmiş olsunlar» (Гегель. Г. Конституция Германии. // Гегель. Политические произведения. М., 1978. с.75).



## 21. Kütləvi şüurda Qərb obrazı

Burada söhbət «Qərb obrazı»nın özünü son dərəcə müxtəlif təsəvvür edən sadə insanlardan gedir. Qərb obrazı bir deyil, çoxdur. Qərb və ilk növbədə ABŞ yüksək həyat stnadartlarının nümunəsi, yeni texnologiyaların, iqtisadi sahədə yeni təşkilati formaların mənbəyidir (bax: Ə.Həsənov. Göstərilən əsər). Müəyyən sivil dəyərlərin və mədəni normaların, həyat standartlarının daşıyıcısı olan başqa Qərb obrazı da, ABŞ-ın hegemon dövlət, dünyada ən güclü hərbi təşkilat olan NATO-nun özəyi, «şər oxu»na aid edilən ölkələrin «terminatoru», bütün dünyada terrorizmə qarşı *mübarizənin ilhamvericisi* olması fikri kimi, heç də birmənalı şəkildə qəbul edilmir. Bu müxtəlif Qərb obrazları çox vaxt fərqləndirilmir, onlar eyni insanların şüurunda özünə yer taparaq qəribə bir şəkildə qarşılıqlı təsirdə olur və bir-birini tamamlayır. Azərbaycanda gedən proseslərə məhz Qərbin çoxcəhətli təsiri hiss edilməkdədir və bu təsir yaxın gələcəkdə də hiss ediləcəkdir.

## 22. «Yeni dövrün siyasətçisi» (Ramiz Mehdiyev İlham Əliyev haqqında)

İlham Əliyevin prezidentliyə namizəd göstərilməsi indiki tarixi dövrdə bilavasitə xalqın amallarını əks etdirən idarəçilər sinfinin dövlətçilik maraqlarından irəli gəlmiş elit rotasiyasının müstəsna dərəcədə qanunauyğun təzahürüdür.

İlham Əliyev Milli Olimpiya Komitəsinin rəhbəri vəzifəsində fəaliyyətə başladığı vaxtdan onun populyarlığı getgedə artmaqdadır. 2000-ci ilin noyabr ayında keçirilən par-

lament seçkilərində İ.Əliyev Yeni Azərbaycan Partiyasında - novator potensialına malik olması əsla şübhə doğurmayan bir strukturda birləşmiş gənc siyasətçilərin ümid və təsəvvürlərinin təcəssümü oldu.

R.Mehdiyev İ.Əliyevin siyasi davranışına xas olan və heç bir şübhə doğurmayan fərdi üslubu «ənənələrin və yenilikçiliyin hədsiz dərəcədə uğurlu sintezi, Azərbaycan mentallığının bütün incəliklərinə bələd olmaqla geniş dünyagörüşünün birləşməsi» hesab edir. «Onun fəaliyyətinin güclü tərəfi» bundan ibarətdir ki, o, «insanları sıx birləşdirməyə və onların enerjisini akkumulyasiya etməyə qadirdir» (burada və sonrakı mətndə sitatlar aşağıdakı mənbədən gətirilir: «Мир и национальная идея в конце XX – начале XXI века». // Ramiz Mehdiyev. XXI əsrdə milli dövlətçilik. Bakı.: «XXI» Yeni nəşrlər evi, 2003. s. 234-245).

İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının (AŞPA) vitse-spikeri seçiləndən sonra məsələ qaldırdı ki, Dağlıq Qarabağ narkotiklərin istehsal edildiyi yerə, terrorçuların bazalarının yerləşdiyi və nüvə tullantılarının basdırıldığı əraziyə çevrilmişdir. İlham Əliyev qısa müddət ərzində Azərbaycanın Strastburqdakı parlament nümayəndə heyətini konsolidə etməyə müvəffəq olmuşdur (bax: S.Qəndilov. İlham Əliyev dövlətçiliyimizin və müstəqilliyimizin uğurlu davamının təminatçısıdır. // Azərbaycan. 2003. 14 avqust). Bu nümayəndə heyətinə Yeni Azərbaycan Partiyasının nümayəndələri və müxalifətçi partiyalardan olan deputatlarla yanaşı, bitərəf deputatlar da daxildir. Nümayəndə heyətinin bütün tərkibinin bir məqsədi var – ümummilli mənaelərin təmin edilməsi və nəzərəçarpacaq uğurlar qazanmaq məqsədi. İlham Əliyevin xidməti ondan ibarətdir ki, nümayəndə heyətinin mövqeyi «əlverişli ideoloji konturlar» kəsb etmişdir (R.Mehdiyev). İlham Əliyev əsl Azərbaycan milli dövlətçilik məktəbi keçmiş, həsəd aparılmağa layiq intellektual potensiala malik olan gənc siyasətçidir. Onun beynəlxalq qüfuzunu belə bir fakt inandırıcı şəkildə



təsdiq edir ki, 2003-cü il avqustun 4-də Milli Məclisin razılığı ilə İlham Əliyev ölkə hökumətinin başçısı təyin ediləndən sonra dünyanın onlarca ölkəsinin, o cümlədən ABŞ-ın və Rusiya Federasiyasının rəhbərləri ona təbriknamələr göndərib ən səmimi arzularını bildirmişdir.

Heydər Əliyev demişdir: «Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Biz, Azərbaycanın bugünkü gənc nəsli üçün, gələcək nəsillər üçün yaxşı təməl yaradırıq» (bax: Возрождение – XXI век. 1998. №7).

## 23. İlham Əliyevin siyasi ziyalılığı

İlham Əliyevə xas olan mühüm məziyyətlərdən biri də onun siyasəti yüksək ziyalılıq mövqeyindən anlamasıdır. 1998-ci ilin oktyabr ayında verdiyi bir müsahibədə o, dövlət əhəmiyyətli siyasi məsələlərə spekulyativ-birja mövqeyindən yanaşma hallarını ifşa etmişdir. Jurnalistin ona müraciətlə verdiyi «Bu yaxınlarda eks-spiker... Bakı-Ceyhan kəmərinin Türkiyə üçün o qədər də böyük əhəmiyyət kəsb etmədiyini... bəyan edib. Siz bu barədə nə deyə bilərsiniz?» - sualına İlham Əliyev diaqnostik xarakterli aşağıdakı cavabı vermişdir: «Bu mülahizələr hər bir əməliyyatdan nə qədər şəxsi qazanc götürəcəyini hesablayan adamlar, yəni böyük siyasət strategiyasından uzaq olan alverçilər üçün səciyyəvidir». Elə həmin müsahibənin daha bir əlamətdar məqamını qeyd etmək istərdik. Jurnalist deyir: «Son vaxtlar müxalifət qəzetləri Sizi çox tənqid edir». İlham Əliyev dərhal gülümsəyərək cavab verir: «Siz istəyirsiniz ki, onlar məni tərifləsinlər?»

Bu cavab, siyasətin ali missiyasını xalqa və vətənə xidmət etməkdə görən dövlətçilərlə onların opponentləri – «bazar adamları» olan, siyasəti birjada az və ya çox dərəcədə uğurlu oyun, müvəqqəti əldə edilən hakimiyyət səlahiyyətlərini isə həmin oyunda özlərinin qazancı hesab edən müxalifətçilərin münasibətləri arasında nə qədər dərin bir uçurum olmasını aydın göstərir. Bu təsəvvürün təbii nəticəsi

müvəqqəti vəzifə tutanların psixologiyasında təzahür edir. Radikal müxalifətçi siyasətçilərin İlham Əliyevə hücumlarının səbəbləri barədə sualın cavabı da bu fikri təsdiq edir.

Jurnalist əmindir ki, rəqabət vəziyyəti göz qabağındadır. Bu təsəvvürün kökü yenə də siyasətin bazar interpretasiyası ilə bağlıdır. Yəni siyasi bazarın və onun doğurduğu siyasi marketinqin mövcud olması danılmaz faktdır. Bu marketinq - siyasət texnoloqlarının köməyi ilə müvafiq proqramlar hazırlamaq və onları satmaq sənətidir. İlham Əliyev deyir: «Mən heç kəslə rəqabət aparmaq fikrində deyiləm. Mən işlə məşğulam... fəxr edirəm ki, Azərbaycanın neft sənayesinin dirçəldilməsinin yeni mərhələsinin təməlinin qoyulmasında mənim də xidmətlərim vardır» (İlham Əliyev böyük siyasətdə: reallıqlar və perspektivlər. I kitab. Bakı, 1999. s. 15-16).

Jurnalist növbəti sualı verəndə bu təsəvvür daha da güclənir: «Siz aktiv siyasətlə məşğul olmaq niyyətindəsinizmi?» - sualına İlham Əliyevin cavabının informasiya tutumu adamı heyrətləndirir: «İndicə sizə dediklərim elə siyasətdir. Siyasət dağıtmaq yox, qurub yaratmaqdır» (yenə orada. s. 19).

Gördüyümüz kimi, Nazirlər Kabinetinin sədri İlham Əliyev, Azərbaycanda dövlət xidməti ənənələrinə tamamilə uyğun olaraq, hakimiyyət praktikasını özünüreklama yabançı, müstəsna dərəcədə yaradıcı, qurucu və buna görə də Xalqın qarşısında, Tarixin qarşısında məsul bir xidmət kimi anlamasını nümayiş etdirir. Bu mənada İlham Əliyev - Prezident Heydər Əliyevin layiqli varisidir.



## 24. Varislik mövzusu: siyasi ənənələrin və siyasi dövrün imperativləri

***«İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək»***

*(Heydər Əliyevin Azərbaycan xalqına müraciətdən. «Azərbaycan», 2003, 3 oktyabr)*

Qeyd edək ki, varislik faktı ilə əlaqədar, müxalifətçilərin spekulyasiyaları onlara xas olan daha bir səhvi üzə çıxarır. Onlar anlamırlar ki, qabaqcıl tradisionalist cəmiyyətdə ənənələrin qorunub saxlanması və sonradan ənənələrlə innovasiyaların sintez edilməsi məhz varislik sayəsində təmin edilir. Axı ənənələr - külü yox, odu-ocağı qoruyub saxlamaq deməkdir. Hakimiyyətin varislik qaydası üzrə keçməsi ideyası tarixi keçmişin təməlini dağıtmağa çağırış deyil, əksinə bu, sürətlə dəyişməkdə olan dünyamızda sıravi azərbaycanlıya dayaq nöqtəsi verməyə çağırışdır. Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyevin gənc varisi və davamçısı məhz bu cür varisdir.

Siyasi ənənələrdə davranış və təfəkkürün çox qiymətli stereotipləri var. Bu ənənələr vasitəsilə, baxdığımız halda, millətin insan kapitalı olan idarəçilər sinfinin təcrübəsi və təfəkkürü sonrakı nəslə ötürülür. İnsanlarda siyasi mədəniyyət tərbiyə edilməsi, siyasi fəaliyyət nümunələrinə yiyələnmək yolu ilə onların şəxsiyyətinin formalaşması, çox cəhətdən, siyasi ənənələr çərçivəsində baş verir. Bu fakt İlham Əliyevə tətbiq edildikdə də eyni dərəcədə doğrudur.

Siyasi dövr baxımından varislik ideyasının xeyrinə bir neçə söz demək istərdim. Məlum olduğu kimi, astronomik zamandan fərqli olaraq, siyasi zaman müxtəlif siyasi proseslərdə və müxtəlif siyasi qüvvələr üçün müxtəlif sürətlə

keçir. Bu baxımdan, artıq başa çatmış 90-cı illər xüsusi funksional intensivliyə malik idi. Hakimiyyəti təmsil edən insan üçün bu müddətin bir astronomik ili həmin müddətdə qazanılmış zəfərlərin «sıxlığına» görə adi dövrün iki ilinə, bəlkə də üç ilinə bərabər hesab edilə bilər. İlham Əliyevə tətbiqən tam əminliklə deyə bilərik: onun Prezidentə hamıdan yaxın bir dövlət xadimi kimi formalaşması sürətli tempdə baş vermişdir, çünki bu illər hadisələrlə çox zəngin olmuşdur. Siyasi zaman açıq-aydın göstərir ki, bir siyasi qüvvə (partiya, nəzəriyyə) artıq siyasi keçmişdə qaldığı halda digər siyasi qüvvə indiki dövrlə, üçüncüsü isə zamanı qabaqlayaraq gələcək siyasi dövrlə yaşayır. 2000-ci ildə Yeni Azərbaycan Partiyasının seçkiqabağı siyahısında birinci yerdə gedən İlham Əliyev siyasi zamanın gedişinə yeni təkan vermişdir: siyasi hadisələrlə birlikdə, cəmiyyətin, idarəçilər sinfinin (siyasi menecmentin) həyatının gərginləşməsi və sürətlənməsi ilə birlikdə siyasi zamanın da tempi artır. Gəlin unutmayaq ki, bu dəyişikliklərin tempini prezident, dövlət aparatı, hakim «Yeni Azərbaycan» partiyası müəyyənləşdirir...

Zaman – siyasətin və hakimiyyətin ən mühüm resursudur. İqtidarda olan dövlətçilərin indiki şəraitdə varislik məsələsini hazırlamaqla bağlı zəruri tədbirləri necə sürətlə həyata keçirdiklərini, hər şeyin öz-özünə həll ediləcəyinə ümid bəsləmədən zamanın xilaskar fəaliyyətinə arxayın olmadıqlarını müşahidə etmək çətin deyil. İcra hakimiyyəti ali hakimiyyətin verilməsi prosesini qabaqcadan hazırlayaraq siyasətin zaman resursları barədə fəal sərəncamlar verir. Buna görə də tam əminliklə deyə bilərik ki, İlham Əliyevin gələcəyi onun keçmişinin üzvi davamı olacaqdır: bu məsələ ilk baxışda təsəvvür edildiyindən daha dərin köklərə malikdir...



## III Hissə. İQTİSADİ TƏRƏQQİ VƏ İSLAHATLAR STRATEGİYASI

XX əsrin 90-cı illəri modernləşdirmənin yeni mərhələsi məcrasında cəmiyyətin transformasiyası illəri kimi tarixə düşmüşdür. Bu dövrdə «mahiyyət etibarilə... tamamilə yeni Azərbaycan yaranmışdır». (Heydər Əliyev)

(XXI əsrin və yeni minilliyin başlanması münasibətilə Azərbaycan Prezidenti Heydər Əliyevin Azərbaycan xalqına müraciətindən//Dirçəliş XXI əsr. 2001. № 1-2. S. 47).

### 1. Sistemin böhranından SSRİ-nin parçalanmasına qədər

ABŞ ilə SSRİ arasında soyuq müharibə şəraitində Qorbaçov güruhunun təklif etdiyi modernləşdirmə niyyətləri «sürətləndirmə» və «yenidənqurma» adlandırıldığına baxmayaraq, əslində bu niyyətlər böhran vəziyyətinə düşmüş sovet iqtisadiyyatının məhvini sürətləndirmiş oldu. XX əsrin 80-ci illərinin axırlarında sosializm cəmiyyətinin üzləşdiyi iqtisadi problemlər dərin tarixi köklərə malik idi. İnkişaf yolunu seçmək problemi hələ 50-ci illərin ortalarında qarşıya çıxmışdı. O vaxt SSRİ iqtisadiyyatının səmərəliliyini artırmaq üçün, cəsarətsiz də olsa, müəyyən addımlar atılmışdı. Lakin sosializm sistemi çərçivəsində müvafiq islahatları həyata keçirmək mümkün olmadı. Ölkə durğunluq vəziyyətinə düşdü və bunun nəticəsində son dərəcədə zəruri olan ümdə məsələlərin həlli ən azı iki onillik müddətinə ləngidi. Həlli tapılmayan problemlərin sayı get-gedə çoxalır, SSRİ-nin yüksək inkişaf etmiş ölkələrdən geriliyi daha da artırdı.

Sovet sisteminin ümumi böhranı 70-ci illərə təsadüf etdi. Bu dövrdə ölkə rəhbərliyi, demək olar ki, bütün diqqətini Sovet İttifaqının zəmanətli strateji təhlükəsizliyinin təmin edilməsi məsələləri üzərində cəmləşdirmişdi: raket-nüvə pa-

riteti, ölkənin özünü enerji ilə təchiz etməsi, hərbi-siyasi ittifaqlar yaradılması məsələlərinə daha çox əhəmiyyət verilirdi. Bununla yanaşı, daxili siyasətin ən mühüm məsələləri arxa plana keçmiş, bu isə bir sıra qeyri-sağlam proseslərin sovet cəmiyyətinin iliyinə hopmasını şərtləndirmişdi. 70-ci illərin ikinci yarısında Brejnev özü xəstələndi, onun ən yaxın ətrafındakılar isə Baş katib vəzifəsinə sahib çıxmaq hüququ uğrunda qızğın mübarizəyə başladılar. Bu vəziyyətdə həmin qeyri-sağlam proseslər daha təhlükəli xarakter almışdı. Kölgə iqtisadiyyatının inkişafı, dövlət mülkiyyətinin mənimsənilməsi və korrupsiya faktlarının geniş yayılması halları göz qabağında idi. Sov. İKP MK-da olan məlumatlara görə, 1975-1980-ci illərdə dövlət əmlakının oğurlanması hallarının sayı 30%, aşkar edilmiş rüşvətxorluq hallarının sayı az qala 50%, spekulyasiya halları 40% artmışdı. Sov.İKP sıralarında yaranmış mənəvi vəziyyət belə bir faktdan aşkar görünür ki, 1980-ci ildə rüşvətxorluğa görə sovet məhkəmələri tərəfindən məhkum edilənlərin ümumi sayının az qala 30%-i Sov.İKP üzvləri və Sov.İKP üzvlüyünə namizədlər idi. Ticarət, yüngül və yerli sənaye sahələrində kriminogen hallar total xarakter almışdı.

Tanınmış sosioloq İ.V. Bestujev-Ladanın 1985-ci ildə Sov.İKP MK-ya göndərdiyi analitik materialdan məlum olur ki, o dövrdə «qara iqtisadiyyat» və bir ovuc adamın əlində hədsiz çox maddi sərvətlərin cəmləşməsi SSRİ-də dövlətin əsaslarına təhlükə yaratmışdı. Həmin məktubda deyilirdi: «Öz növbəsində... bu bir neçə faizdən iqtisadi asılılıq vəziyyətində olan adamların əhatə dairəsi get-gedə genişlənir və bu vəziyyət get-gedə daha çox adama sarsıdıcı təsir göstərir. (...) Bir-birinin ardınca «qara bazarlar» yaranır, mafiya klanları bir-biri ilə düşmənçilik edir, nəzarət orqanlarının korrupsiyaya qurşanmaq cəhdləri özünü göstərir... Durmadan artan bu «qara» qüvvə üçün hələ kifayət qədər adekvat ad da tapılmayıb, lakin sosializm quruluşu üçün bundan daha ciddi daxili sosial təhlükə yoxdur. Ona



görə ki, bu qüvvə nə burjuaziyadır, nə qərb tipli mafiya, nə də yeni iqtisadi siyasət dövrünə xas olan nuvorişlər. Ciddi təhlükə mənbəyi olan bu yeni sosial hadisənin inkişafını biz tamamilə gözdən qaçırmış və onu özbaşına buraxmışıq» (Легостаев В. Целлулоид ГКЧП // Завтра. 2003 № 31).

1989-cu ildə SSRİ əhalinin hər nəfərinə düşən sənaye və kənd təsərrüfatı məhsullarının ən mühüm növlərinin istehsalına görə ABŞ-dan xeyli geri qalırdı. Elektrik enerjisi istehsalı sahəsində bu gerilik 50%, əmtəə kömür istehsalı üzrə 35,8%, sulfat turşusu istehsalı üzrə 39,9%, kimyəvi liflər istehsalı üzrə 66,3%, sintetik liflər istehsalı üzrə 86,3%, ipək parça istehsalı üzrə 5,2 dəfə, dənli və dənli-paxlalı bitkilər istehsalı üzrə 40,0%, ət istehsalı üzrə (kəsilmiş şəkildə) 41,7% təşkil edirdi (Алескеров А. Распад СССР как объективная основа зарождения, формирования и развития рыночных отношений // Azərbaycan iqtisadiyyatı yüksəliş yollarında (Məqalələr məcmuəsi). III (XII) buraxılış. Bakı. 2003. S. 5).

«Yenidənqurma»nın iflası başlayanda və 90-cı illərin əvvəllərində ictimai şüurda belə bir nikbin fikir hökm sürürdü ki, guya «özü-özünü tənzimləyən» bazar münasibətləri böhranın çarəsi olacaqdır. Suverenlik əldə edilməsi, siyasi demokratikləşmə, xüsusi mülkiyyətin reabilitasiyası gələcək tərəqqinin vasitələri hesab edilirdi. Müstəqillik aktı (18 oktyabr 1991-ci il) və «Belovejsk parçalanması» barədə saziş (8 dekabr 1991-ci il) qəbul ediləndən sonra Azərbaycan dərhal islahatlar ilkin planı sadəcə, mövcud olmayan irimiqyaslı dəyişikliklər sistemini həyata keçirmək zərurəti ilə üzləşdi.

Sovet İttifaqının parçalanması nəticəsində keçmiş SSRİ-yə daxil olan müttəfiq respublikalar arasında iqtisadi əlaqələr pozuldu. Qiymətlərin liberallaşdırılması üzündən istehsalın tənəzzüllü, müəssisələrdəki dövriyyə vəsaitlərinin qiymətdən düşməsi və əhalinin alıcılıq qabiliyyətinin azalması bütün bunlar ölkənin hərbi məğlubiyyətinə bərabər

idi. «Onilliklər boyu formalaşmış iqtisadi əlaqələr, müəssisələr arasında istehsal kooperasiyası... 1991-1994-cü illərdə pozuldu.... Ticarət balansındakı müsbət saldo 1992-ci ildəki 489 milyon dollardan, 1993-cü ildə 55 milyon dollara, yəni ÜDM-in həcminə nisbətən 40%-dən 3%-ə düşmüşdü» (Алескеров А.К., Ахвердова С.Г. Рынок и проблемы эффективного развития внешнеэкономических связей Азербайджанской Республики с мировым сообществом //Аудит. 2000. №4, C.30).

## 2. İqtisadi yeniliklər və islahatlar konsepsiyasının formalaşması

İqtisadi modernləşdirmə texnoloji tərəqqi ilə xarakterizə olunur. Texnoloji tərəqqi isə, öz növbəsində, elmin vəziyyətindən asılıdır. Modernləşdirmə iqtisadiyyatın birinci (hasiledici) sahələrinin ixtisarı hesabına ikinci (sənaye, kommersiya) və üçüncü (xidmət) sahələrinin inkişafı ilə səciyyəvidir. Bu cür modernləşdirmə həm də yüksək səviyyəli texnologiyalara, istehsal, istehlak və bölgü ilə bağlı iqtisadi fəaliyyət sahələrinin get-gedə daha geniş miqyasda ixtisaslaşmasına əsaslanan sənaye sisteminin (neoindustrializmin) inkişafı ilə səciyyəvidir. İqtisadi liberalizm nəzəriyyəsinə görə, bu halda əsas bazarların – əmtəə, işçi qüvvəsi və maliyyə bazarlarının miqyası və mürəkkəblik dərəcəsi də artmalıdır.

Ölkədə bazar iqtisadiyyatına keçidlə bağlı dəyişikliklərin optimal strategiyasını və onun həyata keçirilməsinin düzgün taktikasını seçmək ehtiyacı yaranmışdı. Əslində ölkə iki alternativ inkişaf proqramından birini seçmək məcburiyyətində idi. Neokonservativ konsepsiyaya əsaslanan birinci proqram bazar totalitarizmini, qiymətyaranmanın sərbəstliyini, dövlətin əhaliyə kömək yönümlü sosial proqramlarının ixtisarını və bunun nəticəsində, sosial-sinfi gərginliyin artması ilə müşayiət olunan bir ovuc nuvorişlərin və saysız-hesabsız binəsiblərin yaranmasını nəzərdə tuturdu.



Bazar iqtisadiyyatına tədricən keçilməsini nəzərdə tutan ikinci halda isə geniş əhatəli orta sinfin, çoxukladlı, çoxsahəli, elm və texnika tutumlu iqtisadiyyatın yaradılmasına yönəlmiş dəyişikliklərin tempini və onların sosial yönümünü dövlət müəyyənləşdirir (Bax: S.Səfərov İqtisadi siyasət strategiyası: konseptual əsaslar. Bakı. 2000).

Radikal müxalifəti təmsil edən iqtisadçılar birinci varianta tərəfdardırlar. Məsələn, Q. İbadoğlunun təklif etdiyi «reseptlərə» fikir verin: «Özəlləşdirmənin gedişində yüksək dərəcədə rentabelli dövlət müəssisələrinin səhmlərinin mərhələlər üzrə satışına üstünlük verilməlidir. Özəlləşdirmə prosesinə strateji investorlarla yanaşı, pensiya fondları şəklində institusional investorları da cəlb etmək, korporativ idarəetmə və nəzarət mexanizmini daha geniş tətbiq etmək, vasitəçilərin investisiya fondlarının və maliyyə institutlarının fəaliyyəti üçün şərait yaratmaq lazımdır». Bu «reseptdə»ki «pensiya fondları» sözlərini çıxarsanız, görəcəksiniz ki, xammal sahələrini («yüksək dərəcədə rentabelli dövlət müəssisələrini») transmilli korporasiyalara vermək, dövləti iqtisadiyyatdan total miqyasda uzaqlaşdırmaq proqramı təklif olunur.

Bizim müxalifətçilərin çox xoşladığı kapitallaşdırma modeli Rusiyada həyata keçirilmişdi. Bəs nəticəsi nə oldu? «90-cı illərdə Rusiyanın sınaqdan keçirdiyi «qovub çatma» modernləşməsi təcrübəsi uğurlu olmadı. Burada ilk dəfə olaraq neqativ səfərbərlik tətbiq edildi, insanlara dedilər: «Nə istəyirsiniz, edin, amma «lehinə» səs verin». Özünütəşkil işlərinin pis vəziyyətdə olduğu ölkədə «neqativ» sərbəstliyə əsaslanan bu cür «sosial kontrakt» sosial hüceyrələri parçaladı, anemiya və neqativ fərdlər yaratdı, xüsusən gənclər arasında milli dövlətçilik və fərdi identiklik sahəsində böhran, cəmiyyətin kriminallaşması müşahidə olunurdu». 70 il müddətində tarixin hərəkətverici qüvvələri sayılan dünya inqilabı, yaxud Böyük tikinti kimi böyük layihələrlə işləmiş Rusiya indi anemiya və Putinin «10 il ərzində ÜDM-

i ikiqat artırmaq» barədə çağırışları kimi gülünc vəziyyətlə üzləşmişdir.

Azərbaycanın dövlət müstəqilliyi bərpa ediləndən sonrakı dövrdə respublika iqtisadiyyat sahəsində öz suveren hüquqlarını həyata keçirməyə və müstəqil iqtisadi siyasət yeritməyə başlamışdır.

Azərbaycan rəhbərliyi ölkənin suverenliyini və dövlətçiliyini daha da möhkəmlətməyi, Qərbin iqtisadi və siyasi strukturlarına sürətlə inteqrasiya etməyi yenə özünün strateji məqsədləri hesab edir. Azərbaycanın milli inkişaf konsepsiyası Xəzərin karbohidrogen resurslarından, ölkənin Avropa ilə Asiyanın qovuşağında əlverişli coğrafi mövqeyindən istifadə edilməsi əsasında qurulmuşdur.

Lakin müstəqilliyin elə ilk illərində Azərbaycan ciddi sınaqlarla üzləşdi. 1991-ci ildə öz suverenliyini bəyan etmiş Azərbaycan Respublikası iqtisadi və siyasi çətinliklərə sinə gərməli oldu.

Bu dövr ərzində ÜDM-in həcmi hər il orta hesabla 13-20 % azalırdı və artıq 1994-cü ildə ÜDM-in həcmi 1990-cı ilin müvafiq göstəricisi ilə müqayisədə 66,6% səviyyəsində idi. 1994-cü ildə inflyasiya göstəricisi 1763,5%-ə çatmışdı, büdcə kəsiri 10%-dən çox idi, dövlətin valyuta ehtiyatları tükənmişdi. Ermənistanın respublikamıza təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi və 1 milyondan çox azərbaycanlının doğma ata-baba yurdlarından qovularaq, öz Vətənində qaçqına çevrilməsi ölkədə sosial-iqtisadi böhranı daha da kəskinləşdirdi.

1993-cü ildə H.Əliyev hakimiyyətə gələndən və ölkədə siyasi sabitlik yaradılandan sonra geniş miqyaslı sağlamlaşdırma tədbirləri reallığa çevrildi. Bu görkəmli dövlət xadiminin hakimiyyətə qayıtması nəticəsində Azərbaycanda varisliyi qoruyub saxlayan, ən yaxşı ənənələri novatorluqla əlaqələndirən modernləşmə üçün prinsipial imkan yarandı. Respublika Prezidenti həmin amillərin iyerarxiyasını belə müəyyən etmişdir: «Siyasi



həyatın sabitliyi iqtisadiyyatda da sabitliyi təmin etmişdir» (Бакинский рабочий. 2000, 25 апреля). Bu və digər fundamental şərtlər Heydər Əliyevin gərgin və məhsuldar fəaliyyəti sayəsində təmin edilmişdir.

Məhz 1995-ci ildən sonra ölkədə daxili siyasi sabitlik yaranması sayəsində milli iqtisadi təfəkkür formalaşır. Ötən on ilin təcrübəsi göstərdi ki, bazar islahatlarının yönümü, templəri və məzmunu siyasi menecerizmin suverenliyi, dövlətin iqtisadi kursu, millətin idarəetmə kapitalı və sair amillərdən, ilk növbədə isə xarizmatik liderin olmasından asılıdır.

Hadisələri bir qədər qabaqlayaraq qeyd edək ki, 2001-ci ilin göstəricilərinə əsasən ən tez inkişaf edən milli iqtisadiyyatların siyahısında (ÜDM-nin artımına görə) Azərbaycan ÜDM-nin 9,9% illik artımı ilə IV yer tutur (müqayisə üçün: Ukrayna- 9,0%; Gürcüstan- 8,4%; Rusiya- 5,0%.) (bax: События года: 2002.M., 2003.-c. 226).

Çoxukladlı iqtisadiyyatın yaradılması, özəlləşdirmə və torpaq islahatı, maliyyə-vergi və idarəetmə sistemlərinin islahatı, bazar münasibətlərinin genişlənməsi – bütün bu konkret tədbirlər Azərbaycanda iqtisadi modernləşmənin mahiyyətini təşkil edir. Azərbaycanda həyata keçirilən iqtisadi modernləşmə yalnız bu şərtlə məqbul sayıla bilər ki, dövlət bu məsələlərə müdaxilə edə bilsin. Sosialist ənənələrinə malik olan bu ölkədə iqtisadi modernləşmənin daha bir xüsusiyyəti iqtisadi demokratiya prinsiplərinin geniş tətbiq edilməsidir. Bu o deməkdir ki, dövlət bərabər imkanlar yaranacağına təminat verir, çünki müasir Azərbaycanda hər hansı islahatın, etik baxımdan, yalnız o halda mənası olar ki, həmin islahat bütün cəmiyyətin əminamanlığını təmin etmiş olsun.

Əlbəttə, cəmiyyətdə heç kəs şübhə etmirdi ki, məhz neft sənayesi iqtisadi tərəqqinin hərəkətverici qüvvəsinə çevrilə bilər. Məhz neft sənayesi transmilli korporasiyaların kapitalını cəlb edə bilərdi, lakin bu investisiyaların tezliklə səmə-

rə verməsi üçün bir sıra şərtlərə riayət edilməli idi. Neft hasilatının intensivləşdirilməsi və neftin nəqli bu cür amillərdəndir. Lakin buradan belə bir nəticə çıxır ki, təsərrüfat sahəsində uğurlar qlobal amillərdən – milli iqtisadiyyatın ümumdünya iqtisadi məkanına uyğunlaşması, neftin beynəlxalq qiymətləri, BVF-in standartları və digər sanballı geosiyasi amillərdən asılıdır.

Biz Prezident H.Əliyevin əvvəlki fəaliyyətinə bələd olduğumuz üçün qətiyyətlə deyə bilərik ki, o, Qərbi Avropa hökümətlərinin praktikasından, yəni həmin ölkələrdə istehsal qüvvələrinin məqsədəuyğun yerləşdirilməsi problemi ilə dövlət səviyyəsində məşğul olmalarından...», ölkələrin sosial-iqtisadi inkişafı üçün isə «... ilk baxışda bazar münasibətlərinə xas olmayan tənzimləyici şərtlərdən istifadə edilməsindən» xəbərsiz ola bilməzdi (Надиров А. Вопросы экономического развития азербайджанских регионов в системе рыночных отношений//AR EA Xəbərləri. İqtisadiyyat seriyası, №3, 1998. S.5). Lakin vəziyyət daha ciddi idi və müdrik siyasətçilər bunu bilirlər...

Azərbaycan hökuməti bazar iqtisadiyyatına keçid strategiyasını əsas götürərək, qiymətlərin liberallaşdırılması və sərt pul-kredit siyasəti yeridilməsi yolu ilə inflyasiyanı cilovlamağa müvəffəq oldu. 1996-cı ildə inflyasiya səviyyəsi endirildi, son illərdə isə həmin göstəricinin qiyməti 2-3% həddindədir. Büdcə kəsirinin Milli Bank tərəfindən maliyyələşdirilməsi kimi qüsurlu praktikaya son qoyulması, büdcə xərcləri üzərində nəzarət təmin edilməsi və bir sıra digər məqsədyönlü tədbirlər görülməsi nəticəsində büdcə kəsirini azaldaraq 1-2%-ə endirmək mümkün olmuşdur. Hazırda respublikamızda illik ÜDM artımı orta hesabla 8-10%-ə bərabərdir (rəqəmlər AR Dövlət Statistika Komitəsinin materiallarından götürülmüşdür).

BVF-in və digər beynəlxalq təsisatların əsas problemi qloballaşma problemi və qloballaşma variantlarının



seçilməsi problemidir. SSRİ-də və Şərqi Avropada real sosializmin məğlubiyyətinin və azad bazar apologiyasının təsiri altında elə bir ideoloji ab-hava yaranmışdı ki, xalis bazar iqtisadiyyatı tərəfdarlarının baxışları üstünlük qazanmışdı. Bu, dövlətin təsərrüfatçılıq rolunun minimuma endirilməsi, faktiki olaraq dövlətin iqtisadiyyatdan uzaqlaşması demək idi. BVF-in standart reseptləri neokonservatorların nəzəri müddəalarına əsaslanır: «Qiymətlərin liberallaşdırılması, xarici iqtisadi fəaliyyətin liberallaşdırılması, sərt maliyyə-kredit siyasəti, büdcə kəsirinin minimuma endirilməsi, müəssisələrin müflisləşməsi haqqında qanunun tətbiq edilməsi, torpaq üzərində alqı-satqı hüququ olmaqla xüsusi mülkiyyət, xarici kapital üçün etibarlı təminatlar» (Современное мировое пространство // Возрождение – XXI век. 1999. № 16. С. 72-79).

Ölkə iqtisadiyyatının məhz iqtisadi metodlarla idarə olunması, bazar iqtisadiyyatı münasibətlərinin düzgün qurulması cənab Heydər Əliyevin gərgin əməyi və müstəsna şəxsi rolu sayəsində mümkün olmuşdur.

Cənab Prezident nəqliyyatın inkişafına da diqqət yetirmişdir və o dəmir yolunu "Azərbaycan iqtisadiyyatının böyük bir hissəsi" hesab edir.

"Azərbaycan Dövlət Dəmir Yolunun son illərdəki uğurlu fəaliyyəti məhz Heydər Əliyev cənablarının bizə olan şəxsi qayğı və diqqətinin sahəsində mümkün olmuşdur" (Z.Məmmədov. Heydər Əliyev və Azərbaycan Dəmir Yolları.- Bakı, 1999, s.86).

"Ölkənin qan damarı" sayılan dəmir yolunda sərnişin və yük daşımalarının həcmi artmış, hərəkətin təhlükəsizliyi təmin edilmişdir.Görülən əsaslı tədbirlər sahəsində iqtisadi göstəricilər yüksəlmişdir "...mən indi Azərbaycan Dövlət Dəmir Yolunda inkişaf hiss edirəm".

### 3. Neft kontraktları vasitəsilə iqtisadi tərəqqiyə doğru

Heç şübhəsiz, neft sənayesi milli iqtisadiyyatın inkişafında mühüm yer tutur. 90-cı illərdə bütövlükdə Azərbaycan iqtisadiyyatında olduğu kimi, neft sektorunda da istehsalın kəskin azalması müşahidə olunurdu. Azərbaycan iqtisadiyyatında neft sənayesinin strateji əhəmiyyəti, milli iqtisadiyyatın struktur islahatlarında neft sənayesinin müstəsna rola malik olması bu sahədə məxsusi dövlət strategiyasının yaradılmasını və həyata keçirilməsini tələb edirdi və belə bir strategiya yaradıldı (bax: S.Səfərov. Yeni Azərbaycan: iqtisadiyyat, siyasət, dinamizm.Bakı. 2003).

İslahatlar, faktiki olaraq, 1994-cü ilin sentyabr ayında «Əsrin müqaviləsi»nin imzalanması ilə başlandı. Bu müqavilənin imzalanması, bir tərəfdən, Heydər Əliyevin strateji istedadının nəticəsi, digər tərəfdən, özünü tamamilə işə həsr etmək bacarığını nümayiş etdirmiş İlham Əliyevin gərgin əməyinin bəhrəsi idi. İlham Əliyev «Əsrin müqaviləsi»nin beşinci ildönümünə həsr edilmiş təntənəli mərasimdə demişdir: «Azərbaycana təzyiq o qədər güclü idi ki, xarici ölkələrin neft şirkətləri bu tezisi (Xəzərin statusu problemini. – Müəllifin qeydi) kontraktın şərtlərinə daxil etmişdilər... Bu, əslində o demək idi ki, kontrakt imzalanacaq, lakin qüvvəyə minməyəcəkdir... Bu şəraitdə Azərbaycan Respublikasının Prezidenti məni o vaxt yekun danışıqların aparıldığı Hyustona və ABŞ-ın Energetika Nazirliyinin rəhbəri ilə görüşmək üçün Vaşinqtona ezam etməyi qərara aldı... Yalnız Amerika hökuməti bu məsələyə müdaxilə edəndən sonra xarici neft şirkətləri həmin bəndi kontraktdan çıxarmağa razılıq verdilər» (Доклад первого вице-президента ГНКАР, депутата Милли Меджлиса Ильхама Алиева // Возрождение – XXI век. 1999. № 19. С. 11-12).

Xəzərin Azərbaycan şelfindəki neft-qaz ehtiyatlarının fəal mənimsənilməsi işləri 1994-cü ilin sentyabrın 20-də «Əsrin müqaviləsi»nin - «Azəri-Çıraq-Günəşli» (AÇG) yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatının pay bölgüsü barədə sazişin imzalanması ilə başlandı. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini (AİOC) yaratmış saziş iştirakçıları arasında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ), Amerikanın Amoco, Unocal və Pennzoil, Britaniyanın British Petroleum, McDermott və Ramco, Norveçin Statoil, Rusiyanın LUKoil (hərçənd, sonradan LUKoil həmin sazişdə özünün payını yapon şirkətinə satmışdır), Türkiyənin TPAO və Səudiyyə Ərəbistanın Delta şirkətləri vardır. Sonradan Yaponiyanın İtochu və Amerikanın Exxon şirkətləri də bu kontrakta qoşuldu. Otuz il müddətinə imzalanmış «Əsrin müqaviləsi»nə görə, ölkəmizə 11 milyard ABŞ dollarından çox vəsait cəlb edilməsi nəzərdə tutulmuşdur (Алиев Н. Баку-Тбилиси-Джейхан- основная часть нефтяной стратегии президента Азербайджана Гейдара Алиева. // Бакинский рабочий. 1999, 27 января).

«Çıraq» yatağının işlənməsi Azərbaycanda neft hasilatının azalması prosesini dayandırmış və 1998-ci ildən başlayaraq Azərbaycan Respublikasında neft hasilatı artmağa başlamışdır. Belə ki, 1997-ci ildə ölkədə 9,0 milyon ton neft çıxarıldığı halda 1998-ci ildə 11,3 milyon ton, 1999-cu ildə 13,8 milyon ton, 2000-ci ildə 14,0 milyon ton, 2001-ci ildə 14,8 milyon ton və 2002-ci ildə 15,3 milyon ton neft çıxarılmışdır.

1994-cü ildən sonra Azərbaycan neft hasilatına dair təqribən 50 milyard dollar investisiya qoyulması nəzərdə tutulan sazişlər imzalanmışdır. 2005-ci ildə investisiyalar hesabına 20 milyon ton neft çıxarılması nəzərdə tutulur. 2010-cu ildə hasilatın həcmi artaraq 40-50 milyon tona çatacaqdır. Xəzərin Azərbaycan sektorunda neftlə zəngin olan 145 perspektivli struktur aşkar edilmişdir. Qiymətləndirilmiş ehtiyatların bütün həcminin üçdə bir hissəsinin yerləşdiyi üç ən zəngin yatağın işlənməsi sayca birinci və ən iri konsorsium Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti

(ABƏŞ) tərəfindən həyata keçirilir. 11 firmanın daxil olduğu bu Konsorsiumda Amerikanın iştirak payı 40%-ə bərabərdir. Konsorsium həmin yataqların 30 il müddətində istismar edilməsi nəticəsində 99 milyard dollar mənfəət əldə etməyi planlaşdırır ki, bu məbləğin də 78 milyard dollarının Azərbaycana çatması nəzərdə tutulur (bax: Агаев Л., Велиев И. Контракт века и проблемы нефтедобычи на Каспии. Баку, 1997. С. 83-114).

Kontrakt imzalanandan sonrakı müddətdə baş vermiş hadisələri təhlil edəndə görürük ki, neft sektoru üçün böhran dövrü artıq geridə qalmışdır, əcnəbi investorların müxtəlif sahələrə marağı artmış, neft hasilatının artırılması ölkə iqtisadiyyatının inkişafına təkan vermişdir. Miqyasına görə analoqu olmayan «Əsrin müqaviləsi»ndən az sonra Azərbaycanda neft yataqlarının müştərək kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü barədə bir-birinin ardınca daha 21 kontrakt imzalanmışdır. Bağlanmış sazişlərə müvafiq olaraq, Azərbaycan iqtisadiyyatına xarici investisiyaların həcmi 60 milyard ABŞ dollarından çox olacaqdır (bax: A. Мурадов. Нефтяные запасы Азербайджана: состояние и перспективы использования. Баку, 2003).

Neft hasilatından ölkəmizin əldə edəcəyi ümumi mənfəət hasil ediləcək neftin dəyərinin 80%-i qədər olacaqdır. Kontraktlar imzalandıqdan sonra ölkəyə maliyyə axını getgedə artırdı. Xarici sərmayələrin çox hissəsi (1994-1998-ci illərdə qoyulmuş 4 milyard dollar ümumi investisiyanın təqribən 66%-i) neft sektoruna yönəldilmişdi. Həm xarici, həm də daxili kreditlərin qalan hissəsi, başlıca olaraq ticarət-vasitəçilik və maliyyə-kommersiya sahələrinə sərf edilmişdir. Dövlətin inhisarçı mövqe tutması nəticəsində Azərbaycanda əhalinin hər nəfərinə düşən investisiyaların orta həcmi Rusiyanın müvafiq göstəricisindən dörd dəfə yüksəkdir. Bu göstərici üzrə ölkəmiz Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələr arasında ilk yerlərdən birini tutur.



Neft kontraktlarının imzalanması, mülkiyyətin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi, yaranmış vəziyyətə adekvat maliyyə yeniliklərinin tətbiq edilməsi sayəsində islahatların ilkin koordinatları müəyyənləşdi. Bu hadisələr fonunda 1995-ci ildə hökümətin böhran əleyhinə proqram qəbul etməsi faktı çox qanunauyğun hal idi. Təbii ki, bu halda Beynəlxalq Valyuta Fondunun (BVF-in) tövsiyələri nəzərə alınmışdı. Fond ölkəmizə məsləhət köməyi, texniki və maliyyə köməyi göstərirdi. İşlənib hazırlanmış proqram qanunverici və icra hakimiyyətlərinin görməli olduğu tədbirlərin müəyyənləşdirdiyi ssenari xarakteri daşıyırdı. İslahatların BVF tərəfindən təklif edilən ssenarisi «üçüncü dünya» ölkələrinə tövsiyə edilmiş trafaretdir.

Burada bir məqamı xüsusi qeyd etməliyik: Azərbaycan Respublikası BVF-in fəaliyyət koordinatlarında qalmaqdadır. Yuxarıda qeyd etdiyimiz kimi, BVF ekspertlərinin rəhbər tutduğu radikal islahatlar konsepsiyasına görə əsas məsələ – qiymətlərin tənzimlənməsindən tam imtina edilməsidir. Ekspertlərin fikrincə, tələbata oriyentasiya edilmiş qiymətlər ölkənin iqtisadi böhrandan çıxmasını, səmərəsiz istehsalatların dayandırılmasını və iqtisadiyyatın strukturunun yenidən qurulmasını sürətləndirməli idi. Qiymətlər direktiv iqtisadi sistemin dağılmasının stimulyatoru və bazar iqtisadiyyatı yaradılmasının oriyentivi olmalı idi. Lakin bu ideyanın həyata keçirilməsi heç bir yerdə arzu edilən nəticələrə gətirib çıxarmadı – nə MDB-də, nə də dünyanın başqa regionlarında. Qiymətlərin liberallaşdırılması onların bir neçə qat artmasına gətirib çıxartdı və hiperinflyasiya mexanizminə çevrildi.

Belə bir gərgin vəziyyətdə respublika Prezidenti tərəfindən həyata keçirilən neft siyasəti ölkəyə sanballı xarici investisiyalar cəlb etdi. Bunun sayəsində 1995-ci ildə neft hasilatını 9,2 milyon tona, 1998-ci ildə isə 11,4 milyon tona çatdırmaq mümkün oldu. 1990-1992-ci illərdə qaz hasilatı kəskin şəkildə azalmışdı və ölkənin ehtiyaclarının yalnız 40%-ni

təmin edirdi. «Şahdəniz» yatağı kəşf ediləndən sonra respublika nəinki özünü qazla təmin edəcək, həm də dünya qaz bazarına çıxa biləcəkdir.

Azərbaycanın neft strategiyası, ilk növbədə, neft hasilatı layihələrinə xarici investisiyaların, yeni müasir texnologiyaların, əcnəbi işgüzar dairələrin və beynəlxalq şirkətlərin cəlb edilməsi yolu ilə dünya bazarına inteqrasiya etməyə yönəlmişdir.

Neft sektorunun inkişafı Azərbaycan iqtisadiyyatına xarici investisiyaların artmasını təmin edir. Məsələn, təkcə dörd layihə – Azəri, Çıraq, Günəşli və Şahdəniz yataqlarının geniş miqyasda işlənməsi, habelə Bakı-Tbilisi-Ceyhan neft kəməri və Bakı-Tbilisi-Ərzurum qaz kəməri layihələri üzrə 2004-cü ilədək Azərbaycan iqtisadiyyatına cəlb edilməsi planlaşdırılan investisiyaların həcmi təqribən 9 milyard ABŞ dollarına bərabər olacaqdır (bax: Алиев Н., Мирзоев М., Шахбазов Э. ОЭТ Баку-Тбилиси-Джейхан: от видения к реальности - Баку, 2001, С.15-17).

Beləliklə, Azərbaycanın neft sektoru öz inkişafının yeni mərhələsinə qədəm qoymuş və Azərbaycanın iqtisadiyyatında neft sektorunun rolu nəzərəçarpacaq dərəcədə artmışdır. Beynəlxalq bazarda neftin və qazın qiyməti ilə əlaqədar pessimist fərziyyələri əsas götürdükdə belə, yaxın illər ərzində Azərbaycanın xeyli gəlir əldə edəcəyi gözlənilir. Azərbaycan hökuməti bu mövqedən çıxış edərək neft gəlirlərindən asılılığı ən yaxın vaxtlarda azaldacaq, iqtisadiyyatı diversifikasiya edəcək, əhalinin həyat səviyyəsinin durmadan artmasını və beləliklə, Azərbaycanın dünyanın sivil ölkələri arasında layiqli yer tutmasını təmin edəcəkdir (Bax: A. Мурадов. Göstərilən əsər).

Qara və əlvan metallurgiya sahəsində istehsalın tənəzzülünün dinamikası, ilk növbədə, avadanlığın köhnəlmə dərəcəsi, tələbatın və innovasiya investisiyalarının azalması ilə bağlıdır. Maşınqayırma məhsullarının istehsalı 1990-cı ildə sənaye məhsullarının ümumi həcminin 20,3%-i



qədər olduğu halda 1998-ci ildə bu rəqəm azalaraq 3,5%-ə düşmüşdü. Kimya və neft-kimya sənayesində tənəzzül resursqoruma və tullantısız istehsal göstəriciləri aşağı olan köhnə sovet texnologiyalarından istifadə edilməsindən irəli gəlirdi.

Əsaslı tikinti sahəsində ağır vəziyyət yaranmışdı. İstehsal təyinatlı tikintilərinin mərkəzləşdirilmiş şəkildə maliyyələşdirilməsi dayandırılmışdı, mənzil tikintisi maddi resurslarla yalnız 50 faiz təmin edilirdi, kommunal tikinti isə ümumiyyətlə resurssuz qalmışdı.

İnvestisiyaların ÜDM-də xüsusi çəkisi cəmi 19% idi. Qeyri-neft sahələrində investisiya fəallığının azalması və kapital qoyuluşlarının ümumi həcminin 25%-dən çox azalması faktları sənayenin yenidən təchiz edilməsi imkanlarına mənfi təsir göstərirdi.

## 4. Maliyyə sabitləşməsi məsələsi gündəlikdədir

Rəsmi məlumatlara görə, 1995-ci ildə Azərbaycan iqtisadiyyatının potensialı 1991-ci il səviyyəsi ilə müqayisədə cəmi 30%, əslində isə 15-20% olmuşdur. Ağır sənaye – metallurgiya, maşınqayırma və neft-kimya müəssisələri, praktiki olaraq, tamamilə dayandırılmışdı. İstehlak malları istehsalı sektoru əslində mövcud deyildi. Azərbaycan bazarları Türkiyədə istehsal edilmiş aşağı keyfiyyətli mallarla doldurulmuşdu. Əhalinin təqribən 85-90%-i yoxsulluq həddindən aşağı səviyyədə idi. Bununla yanaşı, əmək qabiliyyətli yaşda olan insanların təqribən dördə bir hissəsi işsiz qalmışdı.

İnflyasiya səviyyəsi ayda 500%-ə çatdığı bir şəraitdə ölkədə maliyyə sabitliyi yaratmadan islahatlar yolunda növbəti addımlar atmaq mümkün deyildi. Belə bir vəziyyətdə maliyyə sabitliyinə nail olmaq üçün görülən tədbirlər islahatlar prosesində mühüm addım oldu. Lakin təəssüf ki, o

məqamda heç kəs ağlına da gətirmirdi ki, inkişaf baxımından, inflyasiyanın olmamasındansa, nəzarət edilən inflyasiya daha üstündür. Lakin BVF özünün «israrlı məsləhətlərindən» əl çəkmirdi. Buna görə də kredit siyasətinin sərtləşdirilməsi və pul emissiyasının məhdudlaşdırılması üçün bir sıra tədbirlər görüldü. Əmək haqqı və pensiyaların ödənilməsi üçün, eləcə də sosial proqramların həyata keçirilməsi üçün büdcə məsrəflərinin azaldılması hesabına tələbat kəskin şəkildə aşağı salındı. Belə ki, 1995-ci ilin axırlarında Azərbaycanda qiymətlərin artma göstəricisini xeyli azaldaraq, ayda 4-6%-ə endirmək və milli valyutanı sabitləşdirmək mümkün olmuşdu.

Bu, çox «qan bahasına» başa gəlmiş olsa da, hər halda real uğur idi. Fövqəldövlətin və onun himayədarlıq etdiyi beynəlxalq maliyyə-iqtisadi təsisatların hegemonluq etməsi şəraitində gənc dövlətlər üçün yeganə mümkün uğur bundan ibarət ola bilərdi. 1995-1996-cı illərdə makroiqtisadi sabitləşmə sayəsində 1997-1999-cu illər üçün iqtisadiyyatın struktur yenidənqurmasına dair hökumətin orta müddətli proqramının işlənib hazırlanması və islahatlar strategiyasının dəqiqləşdirilməsi üçün zəruri ilkin şərait yaranmış oldu. Beləliklə, dövlət mülkiyyətinin özəlləşdirilməsinə başlamaq üçün imkan yarandı.

### 5. Özəlləşdirmə: bir qədər gec, amma dəqiqləşdirilmiş

Respublikamız özəlləşdirmə prosesinə MDB-nin bəzi ölkələrindən gec başlamışdı. Bu, həmin ölkələrdə və ilk növbədə Rusiyada özəlləşdirmə prosesində yol verilmiş səhvləri və nöqsanları nəzərə almağa imkan verirdi. Rusiyalıların əksəriyyəti nəinki «sahibkarlıq hissi» qazanmamış, üstəlik, özəlləşdirmənin özünə dövlət mülkiyyətinin qarət edilməsi kimi münasibət bəsləməyə başlamışdılar.

Azərbaycanda dövlət mülkiyyətinin özəlləşdirilməsi «1995-1998-ci illərdə Azərbaycan Respublikasına da dövlət



mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı» qəbul ediləndən sonra həyata keçirilməyə başlandı. Bu, özəlləşdirmənin birinci mərhələsi oldu. Həmin dövrdə «İxtisaslaşdırılmış çek auksionları haqqında əsasnamə»; «Açıq tipli səhmdar cəmiyyətlərinə çevrilən dövlət müəssisələrinin səhmlərinin əmək kollektivlərinə güzəştli satışı haqqında əsasnamə»; «Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsi qaydaları haqqında əsasnamə»; «İcarəyə verilmiş dövlət əmlakının özəlləşdirilməsi haqqında əsasnamə»; «Dövlət özəlləşdirmə auksionları haqqında əsasnamə»; «İxtisaslaşdırılmış çek investisiya fondları haqqında əsasnamə»; «Milli depozitar sistem haqqında əsasnamə»; «Özəlləşdirmə prosesində dövlət müəssisələrinin çevrilməsi nəticəsində yaradılan səhmdar cəmiyyətinin ixtisaslaşdırılmış investisiya fondlarının formalaşmasına yönəldilən səhmləri haqqında»; «Qeyri-dövlət hüquqi və fiziki şəxslərin əmlakına mülkiyyət hüququnun rəsmiləşdirilməsi haqqında» Prezident fərmanları, «Özəlləşdirilən müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin satılması qaydası haqqında əsasnamə» və başqa sənədlər qədul edildi. Bu fərman və əsasnamələrin qəbul edilməsi özəlləşdirmə prosesini hüquqi normalar çərçivəsində saxlamaq cəhdi ilə bağlı idi. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası da bu prosesdə öz rolunu oynadı. Konstitusiyada göstərilirdi ki, ölkədə dövlət mülkiyyəti, xüsusi mülkiyyət və bələdiyyə mülkiyyəti mövcuddur.

1997-ci ilin əvvəlinədək təqribən 13 min kiçik dövlət müəssisəsi özəlləşdirilmiş, 976 orta və iri dövlət müəssisəsində səhmdar cəmiyyətləri yaradılmışdır. 409 səhmdar cəmiyyətinin səhmlərinin 70%-i çek hərraclarında və pullu hərraclarda satılmışdı. Bundan sonra metallurgiya və kimya sənayesi müəssisələri, tikinti kompleksləri, mehmanxana və sanatoriyalar özəlləşdirməyə başlandı. Ümumiyyətlə, özəlləşdirmə proqramında təqribən 60 min təsərrüfat obyektinin xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulurdu. Ekspertlərin

fikrincə, həmin obyektlərin ümumi dəyəri 15 milyard dollara bərabər idi. Əhaliyə özəlləşdirmə çekləri paylanmışdı. Bu çeklərin ilkin dəyəri 800-1000 dollar həddində qiymətləndirilirdi. Özəlləşdirmənin Azərbaycan modelinə görə, özəlləşdirilən müəssisələrin səhmlərinin 15%-i əmək kollektivinin üzvlərinin çeklərinə dəyişdirilir, səhmlərin ən azı 55%-i açıq çek hərraclarına, qalan hissə isə pullu hərraclara göndərilir.

Özəlləşdirmənin gedişində xarici kapital da ölkəyə «daxil olmuşdur» özəlləşdirilən orta və iri müəssisələrin səhmlərinin 25%-i xarici kapitalın payına düşür. Azərbaycanda özəlləşdirmə liberal bazar iqtisadiyyatının Çubays kimi tərəfdarlarından çox-çox uzaq olan dövlət məmurlarının nəzarəti altında həyata keçirilirdi. Bununla belə, çətinlik və ziddiyyətlərdən yan keçmək mümkün olmadı. Bir sıra hallarda özəlləşdirmə dövlət mülkiyyətinin aşağı və orta pilləli idarəetmə kadrlarının həmin mülkiyyətə yiyələnməsini pərdələmək üçün yalnız formal tədbir oldu. Banklar və keçmiş dövlət müəssisələrinin müdiriyyəti əksər hallarda həmin müəssisələrin şəriksiz mülkiyyətçilərinə çevrilirdi. Bu məqsədlə onlar aşağıdakı metod və vasitələrdən istifadə edirdilər: özəlləşdirilən müəssisələrin ilkin qiyməti, bir qayda olaraq bilərəkdən, qat-qat aşağı göstərilir, real start şərtləri təmin edilmirdi, səhmlərin qiymətləri barədə zəruri informasiya yox idi. Təsadüfi deyildir ki, səhmlərin qiyməti 100 dollardan yuxarı qalxmadı, son nəticədə isə təqribən 10 dollar ətrafında dəyişirdi.

1999-cu ilin aprelin 1-dək respublikada ilkin dəyəri 407,3 milyard manat olan 28423 obyekt və müəssisə, o cümlədən: 9324 məişət xidməti obyekti, 514 sənaye müəssisəsi, 108 kənd təsərrüfatı müəssisəsi, 204 tikinti təşkilatı, 98 yarımçıq tikinti, 2000 ticarət müəssisəsi, 532 ictimai iaşə müəssisəsi, 448 yanacaqdoldurma stansiyası, 13179 nəqliyyat müəssisəsi və nəqliyyat vasitəsi, 41 kommunal təsərrüfat obyekti və bir sıra digər obyektlər özəlləşdirilmişdi. (bax: Алескеров А.К. Экономические реформы и социально-экономические сдвиги в Азербайджане. // Общество и экономика. 1999. №10-11, С. 189-190).



1997-ci ildə Azərbaycanda qeyri-dövlət sektorunun ÜDM-in tərkibində xüsusi çəkisi, orta hesabla, 46% olmuşdur. Lakin kənd təsərrüfatında qeyri-dövlət sektorunun payı 85%-ə çatdığı halda sənayedə bu göstərici 15%-i aşmırdı. Özəlləşdirmə vergi siyasətinin təkmilləşdirlməsinə təkan verdi. İqtisadçılar və siyasətçilər dövri mətbuatda fəal çıxışlar edərək, vergi islahatları keçirilməsini tələb etməyə başlamışdılar. Vergilərin yığılmasını təmin etmək üçün ictimai şüurda vergilərin azaldılması və unifikasiya edilməsi ideyası bərqərar olmuşdu. Lakin bu cür vergi islahatı keçirmək ideyası dərhal qəbul edilmədi. Büdcə müəssisələrinin maraqları nəzərə alınmadan vergilərin azaldılması xalis plutokratiya olub yalnız kapitalın xeyrinə işləyir.

### 6. Aqrar islahat: haqlı radikalizm (?)

Sovet hakimiyyəti illərində kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatında mühüm rol oynayırdı. Təkcə bunu demək kifayətdir ki, o dövrdə respublikada ÜDM-in 50%-ə qədəri və ixracdan mədaxilin 40%-ə qədəri aqrar sahənin payına düşürdü. 1996-1997-ci illərdə həyata keçirilən aqrar islahatı, özəlləşdirmə ilə yanaşı, bazar iqtisadiyyatına keçidlə bağlı dəyişikliklərin əsas tərkib hissəsinə çevrilmişdi. 1995-ci ilin fevral ayında «Aqrar islahatın əsasları haqqında» və «Kolxoz və sovxozların islahatı haqqında» qanunların, 1996-cı ilin iyul ayında isə «Torpaq islahatı haqqında» Qanunun qəbul edilməsi islahatların hüquqi bazasını təmin edirdi. Azərbaycanda torpaq pulsuz xüsusi mülkiyyətə verilir və alqı-satqı obyektinə çerilirdi. Kənddə yaşayan hər bir vətəndaş torpaq payı alırdı. Torpağı sərbəst şəkildə satmaq, dəyişmək, miras vermək, icarəyə vermək, girov kimi istifadə etmək olardı, yəni torpaq əmtəəyə çevrilirdi. Bu, ən radikal qanun oldu – o, kapitallaşmanın təntənəsini təcəssüm etdi-

rir və müəyyən mənada, istismarın iqtisadiyyatdan kənar formalarının yaranmasını qabaqlayırdı. Əlbəttə, kolxoz və sovxozların mütləq mənada qəbul edilməməsi mübahisəli ideya idi. 1996-cı ildə respublikamızda 1970 kolxoz və sovxoz olduğu halda, 1999-cu ildə onların sayı 201-ə düşmüşdü. Eyni zamanda, fərdi kəndli təsərrüfatının sayı artaraq, 1996-cı ildəki 3186-dan 1999-cu ildə 44561-ə çatmışdı.

Bu tədbirlər nəticəsində 1769 kolxoz, sovxoz və təsərrüfatlararası müəssisə ləğv edilmişdi. Onu da nəzərə almaq lazımdır ki, kolxozlar sovet dövründə büdcəyə mədaxilin çox böyük hissəsini təmin edirdilər. Bütün bu kampaniya çox vaxt rüşvətxorluq və müdiriyyət tərəfindən nəzarətsizliklə müşayiət olunurdu. Çünki fərdiyyətçi kəndli (fermer) çox vaxt müdiriyyətin qarşısında köməksiz vəziyyətdə qalırdı. Kollektiv mülkiyyət forması tamam yox olmadı: 366 müstəqil kənd təsərrüfatı istehsal kooperativi, 627 kiçik müəssisə, 5758 kollektiv və icarə müəssisəsi yaradıldı. Artıq 1996-cı ildə ölkədə istehsal edilən kartofun 95%-dən çoxu, meyvənin 90%-i, tərəvəzin 85%-i, bostan bitkilərinin 69%-i, ətin 82%-i, südün 94%-i, yumurtanın 94%-i, yunun 70%-i, həmçinin tütünün çox hissəsi xüsusi təsərrüfatlar tərəfindən istehsal edilmişdi. Mal-qara özəlləşdiriləndən sonra 1997-ci il aprelin 1-nə olan məlumata görə qaramalın 90%-dən çoxu şəxsi təsərrüfatlarda idi. 1999-cu il iyulun 1-dək 4,2 milyon hektar torpaq sahəsi, o cümlədən kənd təsərrüfatı üçün yararlı olan 2,6 milyon hektar torpaq sahəsi müxtəlif mülkiyyət formalı təsərrüfatlar tərəfindən özəlləşdirilmiş və təsərrüfatlar arasında paylanmış, 1,1 milyon hektar torpaq sahəsi xüsusi mülkiyyətə verilmişdi ki, bu da, üst-üstə, bütün torpaq sahələrinin 89,3%-i deməkdir.

Aşkardır ki, kənd təsərrüfatının inkişaf etdirilməsi üçün torpaq üzərində mülkiyyət məsələsi ilə yanaşı, su və irriqasiya sistemləri problemini, kreditlər və idarəetmə problemini də həll etmək zəruridir. Bu məsələlərin həllində çox şey emal sənayesinin vəziyyətindən, ölkədə kənd təsərrüfatının inkişafı mənafelərinə müvafiq olan bank-kredit sisteminin yaradılmasından asılıdır. Başqa sözlə desək, dövlət inkişaf etmiş ölkələrin siyasətindən nümunə götürərək, kənd təsərrüfatından üz döndərməməlidir. Həmin ölkələrdə kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi 50%-ə çatır.

1996-cı ildə 1990-cı ildən sonra ilk dəfə kənd təsərrüfatı məhsullarının istehsalı artdı, kənd təsərrüfatı məhsullarının ümumi həcmi 1995-ci ilin göstəricisi ilə müqayisədə dəyər ifadəsində üç dəfə artdı.

## 7. III Respublikada biznes-birlik: iqtisadi səmərəlilik və siyasi loyallıq

Heydər Əliyev 2002-ci il aprelin 25-də biznesmenlərlə görüşündə yeni sosial sinfin – sahibkarlar sinfinin yaranmasını dövlətin düzgün iqtisadi siyasətinin nəticəsi kimi qiymətləndirərək demişdir: «Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq və bundan sonra da sahibkarlığın inkişafı üçün zəruri olan bütün tədbirləri həyata keçirməklə məşğul olacağıq» (Dirçəliş XXI əsr. 2002. № 5, s.182). Azərbaycan cəmiyyətində sahibkarlığa mənfi münasibət bəsləndiyi vaxtlar artıq geridə qalmışdır. İndi hamı başa düşür ki, işgüzar adamın əməyi və enerjisi dövlətə və cəmiyyətə lazımdır. Azərbaycanın siyasi elitası da iş adamlarının quruculuq imkanlarını yaxşı bilir və yüksək qiymətləndirir. Bu məsələdə Prezidentin mövqeyi həlledici rol oynamışdır. Bununla əlaqədar, belə bir mühüm faktı qeyd edək: A. İvanov «Nezavisimaya qazeta»da yazır ki, yenidənqurmadan sonrakı illərdə, «tədris və elm cəmiyyətə lazım olmayanda İlham (Əliyev *müəllifin qeydi*) sahibkara çevrilir. Onun MDBMİ-də (Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda) aldığı biliklər Türkiyədə və Rusiyada uğurlu biznes fəaliyyətini

səhmana salmasına imkan verir. Bazarın qanunları barədə haçansa nəzəri şəkildə öyrəndiyi bilikləri praktikada, özü də çox uğurla mənimsəyir. Buna görə də təsadüfi deyildir ki, 1994-cü ildə onu Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsinə dəvət edirlər». (Иванов А.Обреченный на власть. Ильхам Алиев имеет хорошие шансы стать новым лидером Азербайджана. // Независимая газета. 2000, 5 марта). Belə güman etmək olar ki, bazarın reallıqlarının prezident ailəsi səviyyəsində bilinməsi də sahibkarlığın rəğbətləndirilməsi siyasətinə təsir göstərmişdir.

Prezidentin siyasəti müvafiq qanunlar şəklində hüquqi şəraitlə bərabər, müəyyən bazar mühiti, biznes məkanı yaradılmasına yönəlmişdir. İslahatlar praktikası göstərir ki, prezident dövlət adamı olmaq etibarı ilə öz vətənini və öz xalqını sevən yerli sahibkarlara üstünlük verir. Bu cür sahibkar bütün dünyada məşhur olan Yozef Şumpeterin nəzərdə tutduğu mənada yenilikçi olmalıdır. Sahibkar yeni, istehlakçılara hələ məlum olmayan nemətlər yaratmağa, yeni istehsal üsullarını və texnologiyaları öyrənməyə, yeni satış bazarlarını, yeni xammal mənbələrini mənimsəməyə, öz sahəsində baş verən təşkilati dəyişikliklərə uyğunlaşmağa çalışmalıdır. Sahibkarın digər növü – maliyyə spekulyantı isə sürətli inkişafa nail olmaq məqsədi güdən dövlətdə qəbul edilə bilməz. Dövlət bu cür biznesmenə kömək etməyə borcludur, çünki Şumpeterin yazdığı kimi, «Əgər əsas amil – yeni kombinasiyaları həyata keçirməyə girişən insan yoxdursa heç bir kredit iqtisadi inkişafa gətirib çıxara bilməz».

Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi üçün hüquqi baza, mahiyyət etibarı ilə yaradılmışdır. «Sahibkarlıq fəaliyyəti haqqında», «Müəssisələr haqqında», «Məşğulluq haqında», «Mülkiyyət haqqında», «İcarə haqqında» və sair qanunlar qəbul edilmişdir. Sahibkarlığı maliyyə və təşkilati baxımdan dəstəkləmək üçün Milli Fond təsis edilmiş, «Antiinhisar siyasəti və sahibkarlığa kömək üzrə dövlət komitəsi», «Kiçik və orta sahibkarlığın inkişafı agentliyi», «Biznes və iqtisadiyyat informasiya mərkəzi», «Azərbaycan Respublikasının Auditor palatası» yaradılmışdır.

Ötən illər ərzində Azərbaycanda sahibkarlar sinfi iqtisadi reallıq olmaqla bərabər, həm də siyasi reallığa çevrilmişdir. Məsələ bundan ibarətdir: bu sinif hakimiyyətlə qarşılıqlı münasibətləri öz xeyrinə yenidən bölüşdürməlidirmi və beləliklə, idarəetmə funksiyalarının həyata keçirilməsi üçün müəyyən siyasətçilər qrupunun maliyyələşdirdiyi partiyaları təmsil edən bəzi siyasətçiləri cəlb etməklə hakimiyyət funksiyalarını tam həcmdə həyata keçirməlidirmi? Tanınmış maliyyə maqnatı Berezovski öz fikrini məhz bu ruhda ifadə etmişdir: «Kapital hakimiyyəti işçi kimi cəlb edir və bunun forması – seçkilərdir». Sosialist (bolşevik) inqilabını və kommunistlərin 70 illik ağalığının şahidi olmuş Azərbaycanda hakimiyyətin siyasi təşkilinin bu cür modeli yaxın perspektivdə böyük şansa malik deyildir.

Görünür, Azərbaycanın məxsusi identikliyi əsasında modernləşmənin xüsusiyyəti ondan ibarətdir ki, yeni yaranmış burjuaziya sinfi dövlətin və cəmiyyətin xeyrinə işləyəcək və inqilabdan əvvəlki dövrdə (Rusiya imperiyasının tərkibində) Azərbaycanda mövcud olmuş ənənələrə müvafiq şəkildə siniflərin fövqündə dayanan hakimiyyətə siyasi loyallığını ifadə edəcəkdir. Bununla bərabər, sahibkarlığın inkişafı dövlət büdcəsinə vəsaitlər daxil olmasına, yeni iş yerləri açılmasına, inflyasiyanın və əmək miqrasiyasının cilovlanmasına şərait yaradacaqdır. Sahibkarlığın inkişafı həm də bu mənada modernləşmənin xeyrinədir ki, cəmiyyət və dövlət işləri daha səmərəli idarə etməyi öyrənir, idarəetmənin direktiv metoduna menecmentlik, yəni səmərəli və rasional idarəetmə elementi də əlavə olunur.

## 8. Azərbaycan dövlətinin iqtisadiyyatda rolu

«Qovub çatma» prinsipinə əsaslanan inkişaf siyasəti, ənənəvi olaraq, dövlət tərəfindən müəyyən spesifik funksiyaların yerinə yetirilməsini nəzərdə tutur. Əslində, yüksək dərəcədə inkişaf etmiş ölkələrdən geri qalmanı məhz həmin funksiyaların sayəsində aradan qaldırmaq mümkün olur. Dövlətin rolu məsələsi həmişə kəskin diskussiyalara səbəb olmuşdur, çünki bu məsələ nəzəri polemika çərçivəsindən kənara çıxır və modernləşmə problemini dərk edən hər bir cəmiyyətdə aparılan siyasi mübarizəni bilavasitə əks etdirir. Modernləşməkdə olan cəmiyyətə münasibətdə dövlətin fəaliyyətinin iki aspekti var – «neqativ» və «pozitiv» aspektlər. Modernləşmədə dövlətin rolu mövzusu III Respublikanın tarixində çox maraqlı bir taleyə malikdir. Siyasi strukturlar (partiyalar və hüquq müdafiə cəmiyyətləri) dövlət intervensionizmi ideyasına tamamilə düşmən mövqe tuturlar, lakin onlar öz tənqidlərini avtoritarizmin tənqidi kimi, korrupsiyanın tənqidi kimi qələmə verərək, guya dövlətdən daha yüksək prioritetə malik olmalı vətəndaş cəmiyyəti yaratmaq istədiklərini bildirirlər. Bu cür qüvvələrin hakimiyyətə gəlməsi «neqativ» variantın tətbiq edilməsi, yəni dövlətin iqtisadiyyatdan kənarlaşması və faktiki olaraq, onun (dövlətin) xüsusi kapital üçün, necə deyərlər, gecə keşikçisinə çevrilməsi demək olardı. «Dövlət və iqtisadiyyat» probleminin «pozitiv» variantı Azərbaycan tarixində son iki yüz ildə həyata keçirilmişdir. Bu, ölkənin iqtisadi həyatında və deməli, sosial-siyasi və mənəvi həyatında da, dövlətin birbaşa iştirak etməsi deməkdir.

Başqasını «qovub çatmaq» istəyən ölkə sadəcə inkişaf etməklə kifayətlənməyib, ondan irəlidə gedən ölkəyə nisbətən daha sürətlə inkişaf etməlidir. Bundan əlavə, nailiyyətləri sadəcə qəbul etmək və onları öz şəraitinə adaptasiya etmək də kifayət deyildir. Bu yol, ən yaxşı halda, yalnız geriləmənin artmamasına imkan verər. Dövlət əhəmiyyətli vəzifə isə daha artıq inkişaf etmiş ölkəyə məlum olmayan üsulları (institutları, mexanizmləri) axtarıb tapmaqdan ibarətdir. «Qovub çatma» inkişafının birinci qaydası budur – daha çox inkişaf etmiş ölkənin yolu ilə getmək olmaz. III Respublikada öz üsullarını axtarıb tapmaq mövzusu hələ yetişməyib – bu fikir ilk təəssuratın ifadəsidir və bu barədə mübahisə etməyə dəyər. Heç şübhəsiz, ölkə rəhbərliyi qlobal təsirlərin təzyiqini hiss edir və böhranlı vəziyyətlərə cavab rejimində fəaliyyət göstərir. Bu proses hələ başa çatmayıb. Əvvələn ona görə ki, modernləşmənin milli modeli, o cümlədən Azərbaycanın iqtisadi inkişaf modeli konseptual baxımdan hələ tam deyil və ikincisi, istər cəmiyyətin daxilində, istərsə də onun hüdudlarından kənarda mövcud olan ziddiyyətli uzunmüddətli amillərin nə ilə nəticələnəcəyi məlum deyil.

## NƏTİCƏ

Əsərin yekun bölməsində hakim dövlətçilərlə sistemdənkənar radikal müxalifət arasında mövcud konseptual fərqləri qabarıq şəkildə göstərmək çox vacibdir.

Müxalifət Heydər Əliyevə və onun davamçılarına qarşı mübarizədə nəyi qəbul etmir? - modernləşdirmənin məqsədlərinə nail olmaq naminə dövlətin milləti səfərbər etmək kursunun həyata keçirilməsini.

Radikal müxalifət tarixi həqiqətləri qəbul etmək istəmədiyini heyrətamiz şəkildə nümayiş etdirir, 70 illik tariximizin yalnız mənfi cəhətlərini qabardaraq bu dövrdə qazanılmış nailiyyətlərin üstündən xətt çəkməyə çalışır. Heydər Əliyev isə 1993-cü ilin yay və payız aylarındakı ilk çıxışlarında dönə-dönə göstərirdi ki, transformasiya proseslərini konkret zaman-məkan kəsiyində nəzərdən keçirmək lazımdır. Prezident və onun davamçıları üçün sovet tarixi modernləşdirmə prosesində tamdəyərli şəkildə «iştirak edir», bu tarix modernləşdirmənin səmərəli olmasını müəyyənləşdirir, mədəni-siyasi, iqtisadi dəyərlərlə elan edilmiş vəzifələr arasında harmoniya yaranmasını təmin edir.

Prezidentin hakimiyyətinin ilk illərində qəbul edilmiş siyasi qərarlar ilk baxışda situativ məntiq çərçivəsindən kənara çıxmırdı. Lakin böhranlı reallıqların doğurduğu suallara cavab xarakteri daşıyan bu qərarlarda müşahidə olunan daxili ahəngdarlıq və vəhdət müəyyən niyyətlərin məcmusu barədə danışmağa imkan verir. Təbii ki, «Heydər Əliyevin və onun davamçılarının siyasi layihəsi» barədə danışmaq olar. Bu layihə köhnə ilə yeninin üzvi sintezi olduğuna görə Azərbaycanın siyasi gerçəkliyini «demokratik tranzit» ideologiyasının reallaşdırılması uğrunda mübarizə kimi, yəni qərb standartları üzrə modernləşmə ideologiyasının – mahiyyət etibarilə qərbləşmə ideologiyasının reallaşdırılması uğrunda mübarizə hesab etmək olmaz. Azərbaycanda «köhnə qaydalardan birdəfəlik əl çəkmək» sxemi tətbiq edilə bilməz, çünki bizim cəmiyyət nihilist əhval-ruhiyyəli müxalifətin Azərbaycanı qərbləşdirmək planlarını dəstəkləmir. Azərbaycanın modernləşməyə hazır olmasında müəyyən asimmetriya nəzərə çarpır: sosial strukturun vəziyyəti ilə müqayisədə mədəni münasibətlər baxımından modernləşmə meyli daha güclüdür. Bizdə Qərbin siyasi liberalizminin ən pis təzahürlərini (siyasi həyatın teatra çevrilməsini, partiyabazlığı, iyrənc texnologiyaları) qəbul etməyə hazır olmaqdan daha çox, bazar münasibətlərinə keçid meyli nəzərə çarpır. Siyasi demokratiyaya ümumi hazırlıq da qeyri-müntəzəm paylanmışdır: seçkilər institutunu və prezident üsul-idarəsini qəbul etməyə hazırlıq partiyalar institutunu və parlament nümayəndəliyini qəbul etməyə hazırlıqdan daha güclüdür.

Böyük tarixi transformasiyalar dövründə insanın seçim imkanı daha çox aktuallaşır. Modernləşmə prosesi də bu cür transformasiyalar qisminə aiddir. Məhz Heydər Əliyevin hakimiyyəti dövründə insanın həqiqətən «bifurkasiya nöqtəsinə» (seçim nöqtəsinə) çevrilməsi üçün şərait (həm sabitlik, həm də sərbəstlik) yaradılmışdır; gələcək cəmiyyətin konturları, inkişaf trayektoriyaları insanın iradəsindən və seçimindən bizim Azərbaycan gerçəkliyində korporativ, sosial münasibətlərin (mülki, ailə-qohumluq, peşəkar, yerlilik və s. münasibətlərin) geniş şəbəkəsində insanın iradəsindən və seçimindən əhəmiyyətli dərəcədə asılı olduqda, bu şəraiti yaradan məhz dövlət idi. Dövlət, total miqyasda olmasa da, hər halda paternalist funksiyalarını yerinə yetirir, bu isə minimum məsrəflər və minimum risk müqabilində həyatdan daha çox şans əldə etməyə çalışan insanın bu istəklərinə çatmasına imkan yaradırdı. Qətiyyətlə deyə bilərik ki, İlham Əliyevin məhz öz sələfi Heydər Əliyevin dövlətçilik kursunu davam etdirməsi onun modernləşdirmə kursunu da davam etdirməyə imkan verəcəkdir.

Müxalifət nəyi başa düşmək və etiraf etmək istəmir? – özlərinin yaşadığı cəmiyyətin və dövlətin özünəməxsus cəhətlərini. Azərbaycan qabaqcıl ənənələrə sadiq olan bir cə-

miyyətdir. Bu cəmiyyətdə bütün siyasi rejimlər dövründə həyata keçirilən modernləşmə ilə tradisionalist dünyanın dəyərləri vəhdətdədir. Bu özünəməxsusluğu başa düşmək çətin deyil. Bundan ötrü sadəcə olaraq «xalqın» (yəni siyasi ideyalarla işləri olmayan sadə adamların) dövlət hakimiyyətinə, hökmdar obrazına, hakimiyyətin irsən keçməsi mövzusuna münasibətini öyrənmək lazımdır.

Mütərəqqi ənənələrə malik olan Azərbaycan cəmiyyətində hakimiyyətin verilməsi ayrıca bir mərasimdir, hakimiyyət «vertikalı» isə üç müstəqil səviyyədən ibarətdir: dövlət başçısı Azərbaycanın mədəni dünyasının «əbədi» rəmzlərinin daşıyıcısıdır («yuxarıya yönəlmiş vertikal») və vətəndaşlarla hüquqi münasibətlər saxlayır («aşağıya yönəlmiş vertikal»). Müasir Azərbaycanda dövlət başçısı təkcə seçki qutularından «çıxardılmış» səlahiyyətlərin daşıyıcısı deyil, həm də bu cəmiyyətdə ən çox ehtiram bəslənən mənəvi məziyyətlərin daşıyıcısıdır. Bu keyfiyyətlərin eyni şəxsdə cəmləşməsi dövlət başçısına səmimi sevginin və hörmətin təzahürü və eyni zamanda, öz fikrini ifadə etmək azadlığının, məsələn kütləvi informasiya vasitələri azadlığının təzahürüdür. Prezident Heydər Əliyev «yuxarıdan islahatlar» keçirir. Azərbaycan dövlətinin svilizasiyasının məxsusiliyi bundan ibarətdir. Siyasi sosiallaşma, yəni vətəndaşların islahatların şərtlərini müəyyənləşdirən dəyərlərə yiyələnməsi modelləşmənin məzmununa çevrilir. Bu cür anlaşılan normal siyasi prosesin zəruri şərti öz mənafelərini başqalarının mənafeləri ilə uzlaşdırmağı bacaran idarəçilər sinfinin olması və təkcə qanuna deyil, cəmiyyətin siyasi ənənələrinə də hörmət bəslənməsini nəzərdə tutan xüsusi siyasi ab-havanın olmasıdır.

Müxalifət ideoloqlarının təqdim etmək istədikləri cəmiyyət prinsip etibarilə artıq dərk edilmişdir, sağlam düşüncəli insanlar, necə deyərlər, hər şeyi yerbəyer ediblər. İnsanların adi vaxtlarda həll etdiyi problemlər fraqmentar xarakter daşıyır, onları başa düşmək asandır və bu problemlər tamailə konkretdir. Lakin tarixdə elə dövrlər olur ki, bütövlükdə cəmiyyət taleyin sınaqlarına sinə gərməli olur, təhlükə qarşısında qalır. Bəs belə dövrlərdə sağlam düşüncə sarıdan vəziyyət necə olub? Sosial hadisələrin qeyri-adiliyi, öz dəyərini itirmiş bütün əvvəlki qaydaların açıq-aşkar iflasa uğraması insanlarda qavrayış hissini gücləndirir. Əvvəllər heç vaxt qarşıya çıxmayan məsələlər indi problemə çevrilir. Belə vaxtlarda cəmiyyətdə baş verən hadisələrin əvvəlki anlamı insanları qane etmir, onlar cəmiyyətin özünün necə dəyişməsini başa düşməli və bu prosesdə öz yerlərini, öz rollarını bilməlidirlər. Belə vaxtlarda öyüd-nəsihət etmək, «Avropadakı kimi yaşamağa» çağırmaq əvəzinə, soydaşlarımızı narahat edən problemləri anlamaq və onlara «yol kartı» verməyi bacarmaq lazımdır. Elmi nəzəriyyəni, tətbiqi nəzəriyyəni və praktikanı bu cür ahəngdar şəkildə birləşdirməyi yalnız dövlət təfəkkürünə malik olan böyük şəxsiyyətlər bacararlar. Bizim bəxtimiz gətirib ki, bizdə öz şəxsiyyətinin miqyasına görə millətin qarşısında duran mürəkkəb və tutumlu vəzifələrə müvafiq olan şəxsiyyət var. Bizdə Heydər Əliyev kursunun uğurla davam etdirə biləcək şanslı şəxsiyyət var: bu, Prezidentin tərbiyəsini görmüş, onun işini davam etdirən İlham Əliyevdir. Bizdə güclü idarəçilər və dövlətçilər nəsli var. Axı insanlar başa düşürlər ki, tarixin keçid dövrlərində çox şey konkret fəaliyyətdən asılıdır, onlar özlərini tarixin iştirakçıları hesab edirlər, laikn onu da bilirlər ki, qeyri-adi şəxsiyyətlərin lazımi anda və lazımi kontekstdə əhəmiyyəti çox böyükdür. Bir mühüm həqiqəti xüsusi qeyd etməyi vacib sayırı: Azərbaycanda modernləşdirmənin əsas hərəkətverici qüvvəsi siyasi idarəcilər sinifidir. Bu fikri başqa şəkildə də ifadə etmək olar: Heydər Əliyevin dövlətçilik məktəbinin yetişdirmələri olan siyasi menecerlər sinfi Azərbaycanda dövlətçiliyin dayağı, siyasi və iqtisadi modernləşdirməni həyata keçirən qüvvədir.

## *Müəllif haqqında*

Məhərrəm Fərman oğlu Məmmədov 1955-ci ildə anadan olmuşdur. 1972-ci ildə Yerevan şəhərinin 1 saylı orta məktəbini bitirib. Yerevan Dəmiryolu Texnikumunu bitirdikdən sonra, təhsilini Rostov- Don Dövlət Texniki Universitetində davam etdirib.

Yerevan Dəmiryolu Masis stansiyasında müxtəlif vəzifələrdə çalışıb, sonralar Yerevan metropolitenində stansiya rəisi təyin olunub.

1988-ci ildən Bakı metropolitenində müxtəlif vəzifələrdə işləyib.Hal-hazırda Dövlət Dəmiryolu İdarəsinin Qaradağ stansiyasının rəisidir.

Hazırda təhsilini Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında davam etdirir.

1993-cü ilin yanvarından Yeni Azərbaycan Partiyasının üzvüdür.

Azərbaycan Respublikasının Prezidenti haqqında dövlət mətbuatında dərc olunan bir sıra məqalələrin müəllifidir.

Ailəlidir. 3 övladı var.



# MÜNDƏRİCAT:

**Kitab haqqında..........................5-16**
*(Azərbaycan və rus dillərində)*

**Ön söz....................................17-24**
*(Azərbaycan və rus dillərində)*

**I hissə. İslahatlar yolu ilə tərəqqiyə doğru hərəkət: tarixi şüur təcrübəsi (müqəddimə əvəzinə).....................25-46**

**II hissə. Azərbaycan identikliyinin qorunub saxlanması problemi......47-116**

**III hissə. İqtisadi tərəqqi və islahatlar strategiyası..............................117-141**

**Nəticə............................................142-145**

**M 54 Məmmədov M. F. III Respublika: milli inkişaf modeli və strategiyası. Bakı. «Elm» nəşriyyatı, 2003.-155 s.(fotoşəkillərlə)**

**Kitab III Azərbaycan Respublikasının milli inkişaf modelindən bəhs edir. Burada Azərbaycan dövlətinin mübarizələrdə möhkəmlənməsi, hüquqi, demokratik, unitar dövlətin yaranma və möhkəmlənmə prosesində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin əvəzolunmaz rolu təhlil edilir. Prezidentin seçdiyi yolun konseptual zənginliyi açıqlanmaqla yanaşı onun milli dövlətçilik konsepsiyasının yaradılmasında, müstəqil Azərbaycanın formalaşmasında müstəsna xidmətləri geniş açıqlanır. III Respublikanın hakimiyyət mexanizmi təhlil edilir.**

**Kitabda ilk dəfə olaraq "Heydər Əliyev layihəsi", "milli təmərküzləşmə siyasəti", "siyasi ziyalılıq" və digər politoloji terminlər istifadə edilir.**

**Əsərdə Prezidentin kursunun layiqli davamçısı İlham Əliyevin dövlətçilik fəaliyyəti elmi cəhətdən təhlil edilir. Kitab tarixçilər, politoloqlar, iqtisadçılar, elmi işçilər, tələbələr, magistr və aspirantlar, dövlət qulluğu sahəsində çalışanlar üçün nəzərdə tutulur.**

**ISBN 5-8066-1579-0** $M\frac{0601000000}{655(07)-03}$ *Qrifli nəşr*

**UOT 328(479.24)**
**KBT 66.61(2)**

**MƏMMƏDOV MƏHƏRRƏM FƏRMAN OĞLU**
**III RESPUBLİKA: MİLLİ İNKİŞAF MODELİ VƏ STRATEGİYASI**

**МАМЕДОВ МАГЕРРАМ ФАРМАН ОГЛЫ**
**III РЕСПУБЛИКА: МОДЕЛЬ И СТРАТЕГИЯ НАЦИОНАЛЬНОГО РАЗВИТИЯ**

Yığılmağa verilib: 25.09.03. Çapa imzalanıb: 08.10.03.
Format 60x84 1/16. Ş.ç.v. 9,25. Sifariş № 98. Kağız əla növ.
Tiraj 500 nüsxə. Qiyməti müqavilə ilə.

***"Tİ-MEDİA" şirkətinin mətbəəsi.***